# 31 DEKABR DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜDÜR


RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 293 (8316) ÇƏRŞƏNBƏ AXŞAMI, 31 dekabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# Dünya azərbaycanlılarının Prezidenti

Müstəqil dövlət kimi gənc olsa da, Azərbaycanın uğurları, keçdiyi inkişaf yolu onilliklərə, qərinələrə bərabərdir. 28 illik müstəqillik tariximizin heç də bütün mərhələlərinin inkişaf dövrləri olmadığını nəzərə aldıqda isə uğurlarımızın miqyasının daha böyük olduğunu görərik. Bu mənada gənc respublikamız öz inkişafı ilə dünyada həm də nümunəyə çevrilib. Ona görə Azərbaycan tək bu ölkənin vətəndaşları olan bizlərin deyil, dünyanın hər yerində yaşayan soydaşlarımızın qürur və fəxarət ünvanıdır.

## Mütərəqqi diaspor siyasəti

1991-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edilməsi Azərbaycanın ən yeni tarixinin mühüm siyasi hadisələrindən birinə çevrildi. Çünki ümummilli mənafelərimizin həyata keçirilməsi naminə xalqımızın bütün gücünü bir yerə toplamaq arzusunu və əzmini təcəssüm etdirən bu gün bir-birindən ayrı düşən soydaşlarımızın milli mənlik şüuru əsasında sıx birləşməsi prosesinin başlanğıcını qoydu. Prezident İlham Əliyevin bu günlərdə dünya azərbaycanlılarına ünvanladığı təbrikində deyildiyi kimi, bu tarixi gün milyonlarla soydaşımızın azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birliyinin rəmzidir: **"İlk dəfə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə qeyd olunmuş bu tarixi gün xarici ölkələrdə məskunlaşıb yaşayan milyonlarla soydaşımızın azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birliyinin və vətənə sədaqətinin rəmzi kimi hər il xalqımız tərəfindən ruh yüksəkliyi ilə bayram edilir".**

Heydər Əliyevin milli həmrəylik və azərbaycançılıq amalının şüurlarımızda möhkəm yer tutmasına yönəlmiş uzaqgörən siyasətini bu gün inamla davam etdirən, milli həmrəylik və diaspor fəaliyyətini daim diqqət mərkəzində saxlayan Prezident İlham Əliyevin bu sahədə həyata keçirdiyi fəaliyyət ardıcıl və sistemli səciyyə daşıyır. Xarici ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələrin genişləndirilməsini dövlət siyasətinin mühüm istiqamətinə çevirmiş cənab İlham Əliyev mövcud sosial-iqtisadi inkişaf şəraitində diaspor quruculuğu sahəsində dövrlə səsləşən genişmiqyaslı tədbirlər həyata keçirir. Dövlət başçısı xaricdə yaşayan hər bir azərbaycanlının maraq və mənafeyinin qorunmasını Azərbaycan dövlətinin başlıca vəzifəsi hesab edir, hər zaman ölkə hüdudlarından kənarda yaşayan soydaşlarımızda milli ruhun yüksəldilməsinə, onların vahid ideologiya və məqsədlər ətrafında konsolidasiyasına çalışır.

Məhz bu siyasətin məntiqi nəticəsi olaraq cənab İlham Əliyev daim 50 milyonluq dünya azərbaycanlılarının dəstəyini alıb, onların alternativsiz namizədi və lideri olub. Bu fəaliyyətin ən ümdə cəhətləri xaricdəki azərbaycanlıların ana vətənimizin maraqları ətrafında daha sıx səfərbər olmaları və ən əsası Azərbaycan həqiqətlərinin dünyada getdikcə yaxından eşidilməsidir.

*Ardı 7-ci səh.*

# Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan xalqı əsrlər boyu xeyirxahlıq, fədakarlıq, könüllü və təmənnasız kömək ənənələrini yaşatmışdır.

Könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir.

Bu fəaliyyətin təşviqi məqsədilə dövlətimiz tərəfindən zəruri addımlar atılmış, normativ hüquqi baza təkmilləşdirilmiş, dövlət dəstəyi mexanizmləri formalaşdırılmışdır. Könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilmiş, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə etmiş, gənclərimizin həyat tərzinə çevrilmişdir. ASAN, "Regional İnkişaf" İctimai Birliyi, "Bir" Tələbə könüllüləri və digər könüllü hərəkatları yaranmış, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında on minlərlə gənci birləşdirən könüllü qrupları formalaşmışdır.

Könüllülərimiz öz kreativliyi, təşəbbüskarlığı, innovativ düşüncə tərzi və müasir dünyagörüşləri ilə qoşulduqları fəaliyyətə yeni nəfəs vermiş, ölkəmizdə Avroviziya Mahnı Müsabiqəsi, I Avropa Oyunları, "Formula 1" yarışları, IV İslam Həmrəyliyi Oyunları kimi irimiqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində əvəzsiz rol oynamışlar.

Bu il 5 dekabr Beynəlxalq Könüllü Günü ərəfəsində Azərbaycanda ilk dəfə keçirilmiş və bütün könüllüləri əhatə etmiş Könüllülük Həftəsi ölkəmizdə könüllülüyün yeni mərhələyə qədəm qoyduğunu və böyük potensiala malik olduğunu nümayiş etdirmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə **qərara alıram:**

1. 2020-ci il Azərbaycan Respublikasında "Könüllülər ili" elan edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti 2020-ci ilin Azərbaycan Respublikasında "Könüllülər ili" elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2019-cu il*

# Bakıda abadlıq və yenidənqurma işləri geniş vüsət alıb



*Bax: səh. 3*

# Prezident İlham Əliyev "Rossiya-24" televiziya kanalına müsahibə verib

**Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının "Rossiya-24" televiziya kanalına müsahibə verib. Dövlət başçısı müsahibədə Azərbaycan-Rusiya ikitərəfli münasibətləri və digər məsələlərlə bağlı sualları cavablandırıb. AZƏRTAC müsahibəni təqdim edir.**

**- Cənab Prezident, salam. Çox sağ olun ki, bizi Azərbaycanda yenidən qəbul edirsiniz. Biz 2019-cu ilə birlikdə yekun vura bilərik. Bu il Azərbaycan üçün, Rusiya-Azərbaycan münasibətləri üçün necə olub?**

- Sizi Azərbaycanda yenidən görməyimə çox şadam, xoş gəlmisiniz. Keçənilki görüşümüzü xatırlayıram. İlin sonunda görüşmək yaxşı bir ənənə olub. Əlbəttə, həm azərbaycanlı, həm də rusiyalı tamaşaçılara deməyə sözümüz var. Ona görə ki, bu il ikitərəfli münasibətlərin inkişafı baxımından həqiqətən çox zəngin olub.

Biz ilə yekun vururuq. Əminəm ki, bu il bizim münasibətlərimizin tarixinə ölkələrimizin yaxınlaşması baxımından ən fəal və dinamik illərdən biri kimi daxil olacaq. Yüksək səviyyədə əlaqələrimiz çox olub. Mən Rusiya Prezidenti ilə dəfələrlə görüşmüşəm və hər bir görüş çox faydalı, səmərəli və nəticəyönümlü olub. Bizim öz komandalarımıza verdiyimiz tapşırıqlar yerinə yetirilib. Biz praktiki olaraq bütün fəaliyyət sahələrimizi - ticarət, nəqliyyat, energetika, humanitar və turizm sahələrini əhatə edən beş "yol xəritəsi" çərçivəsində proqramı fəal surətdə reallaşdırırıq. Bu ilin sonunda həmin "yol xəritələri"nə daha ikisi - innovasiyalar üzrə və gənclər siyasəti üzrə "yol xəritələri" əlavə olunub. Bu, bizim təşəbbüsümüz idi və Rusiya tərəfindən müsbət qəbul edildi.

Deməliyəm ki, artıq gələn ilin fevral ayında I Rusiya-Azərbaycan Gənclər Forumunun keçirilməsini planlaşdırırıq. Biz hesab edirik ki, ikitərəfli nailiyyətlərimizi qoruyub saxlamaq və artırmaq üçün gənc nəsil hökmən ünsiyyətdə olmalı, bir-birini tanımalı, əməkdaşlıq baxımından yetkin həyata hazırlaşmalıdır. Buna görə əminəm ki, Azərbaycan və Rusiya gənclərinin birinci forumu çox faydalı, xoşagələn, maraqlı olacaq və beləliklə, gənc nəslin nümayəndələri artıq bir-birini tanıyacaqlar. Əminəm ki, indiki nəsil kimi, gələcək nəsil də əlaqələrimizi möhkəmlətməyə çalışacaq.

Sənaye sahəsində çox iş görülüb. Şadıq ki, bu il Azərbaycanda ən iri sənaye layihələrindən biri həyata keçirilib. "Qazprombank" bu layihənin maliyyələşdirilməsinə təqribən 500 milyon dollar ayırıb. Bu il Azərbaycanda 100 faiz Rusiya investisiyalı əczaçılıq müəssisəsi açılıb. Bu da çox mühüm hadisədir. Ona görə ki, bu gün biz əczaçılıq şirkətlərinin məhsullarının satışı məsələsində çox cəhətdən idxaldan asılıyıq. Bu il həm də "Vertolyotı Rossii" şirkəti ilə birlikdə helikopterlərin təmiri və onlara xidmət üzrə servis mərkəzinin təməli qoyulub. Deməliyəm ki, bizdə Rusiya istehsalı olan 100-dən çox helikopter var və əlbəttə, onlara servis tələb olunur. Biz hesab edirik ki, bu mərkəz həm də regional xarakterli olacaq və Rusiya hərbi texnikasına malik qonşu ölkələr bizim imkanlarımızdan istifadə edəcəklər.

*Ardı 2-ci səh.*

# Heydər Əliyev Fondu uşaqlar üçün ənənəvi bayram şənliyi təşkil edib

## Birinci vitse-prezident Mehriban Əliyeva bayram şənliyində iştirak edib



*Bax: səh. 3*



# Prezident İlham Əliyev "Rossiya-24" televiziya kanalına müsahibə verib

*Əvvəli 1-ci səh.*

Hərbi-texniki əməkdaşlıq baxımından da bu il uğurlu olub. Biz əvvəllər imzalanmış, həcmi milyard dollarlarla ölçülən kontraktların reallaşmasını davam etdirmişik, bu sahədə mövcud dinamikanın qorunub saxlanması üçün yeni kontraktlar bağlanması imkanlarını müfəssəl müzakirə etmişik. Azərbaycanda istehsal edilən "KamAZ" və "Ural" avtomobillərindən əlavə, "QAZ" avtomobilləri istehsalı zavodunun da təməli qoyulub. Metro vaqonlarının təchizatı barədə Rusiya şirkəti ilə üçillik kontrakt imzalanıb. Biz metronun vaqon parkını tamamilə yeniləyirik. Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Azərbaycan" pavilyonu açılıb. Bu da əlamətdar hadisədir. Pavilyon ilkin görkəmində bərpa edilib. Bu, məşhur beynəlxalq məkanda Azərbaycanın mədəni mərkəzidir.

Dekabrın 24-də Samur çayı üzərində yeni avtomobil körpüsü açılıb. Bu körpü dövlətlərimizi əlaqələndirir. Bu da çox mühüm hadisədir. Ona görə ki, köhnə körpü ötən əsrin 50-ci illərində tikilmişdi və daşınan yüklərin, oradan keçən minik avtomobillərinin həcminə davam gətirmirdi. Buna görə dekabrın 24-də sərhəddə təntənəli şəraitdə istifadəyə verilmiş körpü bizim əməkdaşlığımız, habelə regional əməkdaşlıq üçün yeni qapı olacaq. "Şimal-Cənub" layihəsinin həyata keçirilməsi nəticəsində yükdaşımaların həcmi keçən il 8 dəfə, bu il isə 60 faiz artıb. Buna görə bu mühüm nəqliyyat layihəsinin reallaşdırılması ilə əlaqədar öz ərazisində bütün işləri prinsip etibarilə başa çatdıran Azərbaycan qonşu ölkələr üçün artıq nəqliyyat-logistika imkanları təqdim edir. Mən bu siyahını davam etdirə bilərəm.

**- Layihələr həqiqətən də çoxdur və əsas odur ki, onlar həyata keçirilir, bu, tamamilə başqa səviyyədir. Bu, artıq sənaye sahəsində əməkdaşlıq, qarşılıqlı fəaliyyət və yüksək texnologiyalar səviyyəsidir. Yəqin Siz razılaşarsınız ki, onların dinamikası, ümidvaram, növbəti il də davam edəcək və bu il sadəcə Rusiya və Azərbaycan münasibətlərində yeni mərhələnin başlanğıcı olacaq, irəlidə bizim digər layihələrimiz də olacaq, bizi başqa rekordlar gözləyir. Bütün bunları bu gün məhdudiyyətləri ilə biznesə mane olan inzibati baryerlərin aşılması şəraitində inkişaf etdirmək zəruridir. Əgər gələn ilə nəzər salsaq, Sizcə növbəti ildə bu məhdudiyyətlərdən hansıları aradan götürülə bilər? Hansı addımları atmaq zəruridir?**

- Bu məsələlər il ərzində detallı şəkildə müzakirə olunub. Belə ki, sizin söylədikləriniz bizim münasibətlərimizin, o cümlədən iqtisadi-ticari sahədə əməkdaşlığımızın inkişafının ayrılmaz hissəsidir. Ona görə də ölkələrimizin müvafiq strukturlarına artıq bu gün gömrük prosedurlarının sadələşdirilməsi, yüklərin daşınmasına nəzarət üzrə müasir texnologiyaların tətbiqi, sərhədi keçməyin sadələşdirilməsinə dair tapşırıqlar verilib. Həm Azərbaycanda, həm də Rusiyada bu istiqamətdə müasir texnologiyalar tətbiq edilir. Ona görə düşünürəm ki, məhz bu cür inzibati və bürokratik maneələrin aradan qaldırılması əsas istiqamətlərdən biri olacaq.

İqtisadi sahədə əməkdaşlığa gəldikdə, əminəm ki, əmtəə dövriyyəsi artacaq. Bu il biz 25 faiz artım müşahidə edirik, ötən il 20 faizə yaxın olub. Bu, iqtisadi-ticari münasibətlərdə ciddi dinamikadan xəbər verir. Çünki artıq mövcud olan yüksək bazanı aşmaq bizim üçün asan deyil. Bunun üçün isə, əlbəttə, biz mənim söylədiyim "yol xəritələri"ni uğurla həyata keçirməliyik və nəqliyyat-tarif siyasətinə yanaşmaları əhəmiyyətli dərəcədə unifikasiya etməli, o cümlədən yeni nəqliyyat layihələri üzrə fəaliyyətimizi əlaqələndirməliyik. Bu gün Azərbaycanda Xəzər dənizinin sahili boyunca mövcud yola paralel olaraq Bakıdan Rusiya sərhədinə qədər yeni avtomobil trası inşa edilir. Avtomobil trasının bu marşrutu məsafəni xeyli azaldacaq. Ona görə də Rusiya sərhədinə çatmaq daha tez və rahat olacaq.

**- Mütləq rəqəmlərlə ifadə etsək, bizim qarşılıqlı əmtəə dövriyyəsinin həcmi 3 milyard dollara yaxınlaşır. Dollar demişkən, Rusiya və Azərbaycan dollardan asılılığı azaltmaq üçün tədricən milli valyutalarda hesablaşmalara keçirlər. Bu gün Azərbaycanın "Mir" ödəmə sisteminə qoşulmasının mümkünlüyü də müzakirə edilir. Bu yaxınlarda Vladimir Putin MDB-nin sammitində, ümumiyyətlə, ortaq maliyyə bazarı yaradılmasının perspektivləri barədə düşünməyi təklif edib. Belə təşəbbüslərə Sizin münasibətiniz necədir?**

- Biz bu təşəbbüsləri ciddi surətdə nəzərdən keçiririk. Biz ölkələr arasında ticarətin milli valyutalarla aparılması ilə bağlı məsələləri qonşu ölkələrdə də müzakirə edirik. Bildiyiniz kimi, bu məsələ orada da çox fəal müzakirə olunur və bu istiqamətdə ilk addımlar atılır. Buna görə də düşünürəm ki, ilk növbədə, bizim əmtəə dövriyyəsində milli valyuta ilə satıla biləcək malların nomenklaturu müəyyən edilməli və sonra bu istiqamətdə addımlar atılmalıdır.

"Mir" ödəmə sisteminə qoşulmaq barədə təklifi nisbətən yaxın vaxtlarda almışıq və onu ciddi öyrənirik. Fikrimcə, xüsusən Rusiyadan Azərbaycana turist axınının kəskin artması ilə əlaqədar burada yaxşı perspektiv var. Keçən il Azərbaycana təqribən 900 min rusiyalı gəlib. Bu il isə 11 ay ərzində müvafiq rəqəm yenə 900 mindir. Yəni biz milyona yaxınlaşırıq. Biz turizm sənayesini fəal inkişaf etdirir və turizm hesabına gəlirin uçotunu aparmağa çalışırıq. Əlbəttə, turistlərin ödəmə kartları üzrə nə qədər xərclədiklərini hesablamaq çox asandır. Lakin turistlərin çoxu həm də nağd pul xərcləyir. Bu, əsasən keçmiş SSRİ məkanından olan turistlərə aiddir. Buna görə əgər bu sistem Azərbaycanda tətbiq edilsə, bizdə mədaxilin dəqiq uçotu aparılacaq, rusiyalılar üçün isə Azərbaycana gəlmək xeyli rahat və münasib olacaq, bəzən mübadilə məntəqələrində pul dəyişdirilməsi ilə bağlı problemlərlə üzləşməyəcəklər.

**- Bəs vahid maliyyə bazarı?**

- Maliyyə bazarı daha mürəkkəb məsələdir. Bu barədə bizə hələlik konkret təkliflər edilməyib. Bu barədə bəyanatlar eşitmişik. Əlbəttə, bunu ciddi öyrənəcəyik. Təbii ki, bizim yanaşmamız həmişə praqmatizmə, məsələnin praktiki tərəfinə əsaslanır. Əgər bu, sərfəli, maraqlı, rahat olsa, əmtəə dövriyyəsini stimullaşdırsa, biznes strukturlarının fəaliyyətini asanlaşdırsa, əlbəttə, biz bu məsələyə çox ciddi yanaşacağıq.

**- Əlbəttə, Rusiya və Azərbaycan dedikdə həmişə iri enerji layihələri yada düşür. Biz burada həm də tərəfdaşlarıq. Bizi rəqiblər də adlandırırlar. Bunun nə dərəcədə əsaslı olduğunu bilmirəm. Biz "Türk axını" layihəsinin inkişafı və "Cənub qaz dəhlizi" barədə danışırıqsa, gələn il üçün Sizin planlarınız necədir? Siz Avropaya çatmalısınız...**

- Elədir. Mən də, ilk növbədə, bu məsələyə toxunmaq istərdim. Ona görə ki, bəzən müxtəlif ölkələrin mətbuatında burada hansısa rəqabət olması barədə eşidirik, bu cür tezislər görürük. Bu, əsla belə deyil, heç vaxt belə olmayıb və əminəm ki, belə olmayacaq. Bizim və ya Rusiyanın həyata keçirdiyi enerji layihələri məsələsi heç vaxt hər hansı ciddi diskussiyaların mövzusu olmayıb. Yəni, mənim fikrimcə, bizim həyata keçirdiyimiz layihələri həm Rusiyada, həm də Azərbaycanda dəstəkləyirlər.

"Türk axını" layihəsinə gəldikdə, bu layihənin həm Rusiya üçün, həm də Türkiyə üçün nə dərəcədə vacib olduğunu bilirik. Hər iki ölkə bizim yaxın tərəfdaşlarımızdır. Buna görə də biz bu layihəni lap əvvəldən dəstəkləmişik.

Azərbaycan qazının Avropa bazarına çıxması məsələsinə gəldikdə, "Cənub qaz dəhlizi" layihəsi həyata keçiriləndən sonra Avropa bazarına ildə 10 milyard kubmetr qaz göndəriləcək. Rusiyadan göndərilən həcm ilə müqayisədə, - dəqiq rəqəm yadımda deyil, lakin ayrı-ayrı illər üzrə təxminən 150-170 milyard kubmetrdir, - bu, çox kiçik həcmdir. Ona görə də "Cənub qaz dəhlizi" layihəsi, əlbəttə, əsla rəqib deyil. Biz də bunu heç vaxt belə hesab etməmişik. Sadəcə bu layihə Azərbaycana öz qaz ehtiyatlarını beynəlxalq bazarlarda satmaq imkanı verəcək. Bu dəhliz üzrə qazın bir hissəsi artıq Türkiyə bazarına çatdırılır. Bu il noyabrın sonunda TANAP layihəsi - "Cənub qaz dəhlizi"nin bir hissəsi olan Trans-Anadolu qaz kəməri artıq Yunanıstan sərhədinə çatdırılıb. Türkiyə-Yunanıstan sərhədindən İtaliyaya qədər qaz kəmərinin tikintisi də 90 faizdən çox tamamlanıb. Beləliklə, biz uzunluğu 3500 kilometr olan bu layihəni gələn il bütünlüklə istifadəyə verməyi nəzərdə tuturuq. Bu həm də bizə hazırda işlənilmə mərhələsində olan yeni qaz yataqlarını istismara verməyə imkan yaradacaq və daha düşünməyəcəyik ki, Azərbaycan açıq dənizlərə çıxışı olmayan ölkədir. Ona görə ki, biz nəqliyyat və enerji dəhlizləri vasitəsilə artıq çoxdan həm Qara dəniz, həm də Aralıq dənizi bazarına çıxmışıq və indi, əlbəttə, Türkiyənin və Avropanın qaz bazarlarına nisbətən böyük həcmdə çıxırıq.

**- Tərəfdaşlıq Avropaya göndərilmək üçün Rusiya qazının alınması ilə davam edə bilər.**

- Bəli, şübhəsiz. Düşünürəm ki, gələcəkdə biz yenə də çoxtərəfli səmərəli əməkdaşlıq çərçivəsində əvvəllər bəlkə də həyata keçirilməsi mümkünsüz görünən bir çox birgə layihələri reallaşdıra bilərik. Bu cür əməkdaşlığın örnəyi kimi mən Azərbaycan və Türkiyənin dəmir yolu xətlərini birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisini misal gətirə bilərəm. Bu gün rusiyalı təchizatçılar Rusiyadan yükləri Azərbaycan ərazisi ilə Türkiyə limanlarına, ilk növbədə, Mersinə çatdırırlar. Daha sonra Avropa ölkələrinə yüklərin limanlarda yükaşırma olmadan dəmir yolu ilə daşınması perspektivi var. Bu gün biz artıq milyonlarla tona çatacaq mümkün həcmlərdən danışırıq. Həm də biz Azərbaycanla Türkiyə arasında dəmir yolu xəttinin tikilməsi təşəbbüsünü irəli sürəndə çoxlarına elə gəlirdi ki, bu, yalnız Çin və Mərkəzi Asiyadan olan yükgöndərənlərə aid ediləcək, lakin bu gün rusiyalı yükgöndərənlər artıq yüklərini bu istiqamət üzrə daşıyırlar. Buna görə də istisna etmirəm ki, Türkiyə ərazisində cəmləşəcək bizim yaratdığımız və artıq Rusiyanın da yaratdığı mövcud qaz nəqli infrastrukturu müəyyən mərhələdə ortaq infrastruktura çevrilə bilər.



**- Burada yəqin ki, həm də Azərbaycan, Rusiya və İranın enerji sistemlərini xatırlatmaq vacibdir. Burada da əməkdaşlıq üçün böyük imkanlar mövcuddur.**

- Tamamilə doğrudur. Biz Rusiya ilə paralel rejimdə işləyirik. Bu, çox səmərəli rejimdir. Hər rübdə mənə enerji mübadiləsi üzrə məlumatı təqdim edirlər. Ən əsası odur ki, hər hansı qəza zamanı biz həmişə bir-birimizə güvənə bilərik. Ötən ilin yayında Azərbaycanda qəza baş verəndə, demək olar ki, tam blekaut vəziyyəti yarananda Rusiya tərəfi bizə müəyyən strateji obyektləri elektrik enerjisi ilə təmin edə bilmək üçün qəbul edə biləcəyimiz həcmdə zəruri yardım göstərdi.

Dağıstanda qəza baş verəndə biz də eynilə bu cür hərəkət edirik, dərhal enerji axınını Rusiya bazarına yönəldirik. Bu gün Azərbaycanda min meqavat həcmində elektrik enerjisi artıqlığı var. Biz Gürcüstan, Türkiyə və bəzi Avropa ölkələrinə elektrik enerjisi ixrac edirik. Zərurət yarananda Rusiya ilə də satış həyata keçiririk. Biz, həmçinin İranla yeni elektrik verilişi xətti inşa etmişik. Beləliklə, artıq üç ölkə arasında energetika dəhlizi mövcuddur və üç ölkənin nazirləri mütəmadi olaraq görüşərək bu istiqamətdə gələcək əməkdaşlıq məsələlərini müzakirə edirlər.

**- Bu, ortaq enerji sisteminə çevrilə bilərmi?**

- Bəli, bu, artıq praktik olaraq baş verir. Çünki artıq mənim dediyim kimi, biz Rusiya Federasiyası ilə paralel rejimdə işləyirik. Həmçinin qərb istiqamətində, cənub istiqamətində bizim enerji xəttimiz və ixracımız nizamlanıb. Ona görə düşünürəm ki, təkcə üçtərəfli Azərbaycan-İran-Rusiya miqyasında deyil, daha böyük həcmdə koordinasiya və çoxtərəfli əməkdaşlıq hamı üçün faydalı olacaq.

**- Yəqin ki, Siz Rusiyanın "Şimal axını-2" layihəsinin necə təzyiqə məruz qaldığını müşahidə edirsiniz. Siz dediyiniz kimi, Azərbaycanın Avropa bazarında ambisiyaları bir qədər azdır, lakin o da bu cür basqıya məruz qala bilər. Siz bunu hiss edirsinizmi?**

- Xeyr. Enerji layihələri baxımından hiss etmirik. Üstəlik, avropalı istehlakçılar Azərbaycan qazının əlçatan olmasında maraqlıdırlar. Dediyim kimi, bu həcm kiçik olsa da, amma hər halda mövcuddur. Buna görə də energetika ilə bağlı məsələlərdə biz bu cür təzyiq hiss etmirik.

**- Avropalı istehlakçılar "Şimal axını-2" layihəsində maraqlıdırlar, amerikalı istehsalçılar isə o qədər də yox. Bu maraq çox da qarşılıqlı deyil. Bütövlükdə, qarşılıqlı siyasi fəaliyyət, siyasi fon barədə danışmalı olsaq, Rusiyanın qərbli tərəfdaşları ilə münasibətlərinin sizə hər hansı təsirini görürsünüzmü, bu münasibətlər Azərbaycana necə təsir göstərir?**

- Mən deyərdim ki, əlbəttə, bu təsiri birbaşa görmürük, ona görə ki, bu məsələ bir növ bizim fəaliyyət sahəmizə aid deyil. Amma, əlbəttə, bütövlükdə ölkələr arasında, bizimlə tərəfdaşlıq münasibətləri olan ölkələr arasında əlaqələr gərginləşəndə, bu, hamıya mənfi təsir göstərir.

**- Bəlkə Sizi Rusiya ilə dostluq etməkdən çəkindirmək istəyirlər?**

- Fikrimcə, elə deyil. Məncə, artıq hamıya, o cümlədən Avropa məkanında da məlumdur ki, Azərbaycan müstəqil xarici siyasət yürüdür və bunu açıq elan edir. Bizim sözlərimiz heç vaxt əməllərimizə zidd olmur. Avropa ölkələri ilə bizim yaxşı, xoş münasibətlərimiz var. Biz Avropa İttifaqının üzvü olan 9 ölkə ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalamışıq və ya bu cür sənədlər qəbul edilib. Bu, Avropa İttifaqı ölkələrinin üçdəbiri deməkdir, lakin Brexitdən sonra üçdəbirdən də çox olacaq. Keçən il biz Avropa İttifaqı ilə tərəfdaşlığın prioritetləri barədə sazişi paraflamışıq. Bu sazişdə Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin, sərhədlərinin toxunulmazlığının dəstəklənməsi ifadə edilib.

Hazırda Avropa İttifaqı ilə danışıqlar prosesi gedir. Bütün bunlar başqa ölkələrlə münasibətlər qurulmasına əsla mane olmur. Avropada da başa düşürlər ki, Azərbaycan qonşularla münasibətlər baxımından tamamilə müstəqil kurs yürüdür. Azərbaycan o ölkədir ki, o, yarana biləcək təsiri və təzyiqi dəf edə bilər və bunu dəfələrlə nümayiş etdirib. Səbəb odur ki, biz iqtisadi baxımdan müstəqilik. Biz öz vəsaitimiz hesabına yaşayırıq. Bizim kreditə ehtiyacımız yoxdur. Beynəlxalq İnkişaf Assosiasiyasının hesablamalarına görə, biz donor ölkə olmuşuq. Azərbaycanın xarici dövlət borcu ümumi daxili məhsulun təqribən 17 faizi civarındadır. Bu göstərici üzrə biz dünyada 9-cu yerdəyik. Buna görə də iqtisadi müstəqillik siyasət meydanında da öz mövqeyimizi qorumaq üçün bizə güc verir. Biz də bunu uğurla edirik. Yarana biləcək təzyiq və basqıları dəf etmək üçün bir imkanımız da ondan ibarətdir ki, bizim siyasətimiz xalq tərəfindən dəstəklənir, biz haqlı olduğumuza əminik. Beləliklə, əvvəllər Azərbaycanı hansısa məcraya yönəltmək üçün göstərilən bütün cəhdlər puç olub.

**- Siz Avropa İttifaqına daxil olmağa hazırlaşmırsınız?**

- Tamamilə doğrudur.

**- Əvvəlcə göstərilib, sonra yığışdırıla bilən bu cür dadlı tikə yoxdur...**

- Bu yaxınlarda Azərbaycan jurnalistləri ilə görüşümdə mən bu məsələlər barədə ətraflı danışmışam, belə ki, bəzən bizim mətbuatımızda bununla bağlı reallıqdan uzaq fikirlər səsləndirilir. Mən bu məsələnin üzərində təfsilatı ilə dayanaraq dedim ki, bizi orada heç gözləmirlər də. Biz hətta namizədlərin siyahısına da daxil deyilik. Həm də Azərbaycan "Şərq tərəfdaşlığı" layihəsində birləşən keçmiş SSRİ ölkələrinin bəzilərindən fərqli olaraq assosiasiya haqqında sazişi imzalamayan ölkədir. Mən onu əvvəldən axıradək oxumuşam. Başa düşdüm ki, bu, saziş deyil. Bu, təlimatdır. Bunlar bizim əməl etməyimiz üçün yuxarıdan göndərilən təlimatlardır. Mən öz komanda üzvlərimə sual verdim. Bu təlimat bizim nəyimizə lazımdır? O, bizə nə verəcək? Burada Azərbaycan üçün hər hansı əməli fayda varmı? Mən şəxsən bunu görmədim. Ona görə də biz Avropa Komissiyasına bunun yerinə bizim üçün faydalı olacaq, Azərbaycan vətəndaşlarına bu addımı nədən ötrü atdığımızı izah edə biləcəyim ikitərəfli saziş üzərində işləməyi təklif etdik. Axı biz kiminsə xoşuna gəlmək üçün və ya sadəcə "ondan bizdə də var" demək xətrinə saziş imzalaya bilmərik. Biz bu cür işləmirik. Bizim əldə edəcəyimiz hər hansı saziş, hər hansı razılaşmanın konkret nəticələri olmalıdır.

Biz bu gün Rusiya-Azərbaycan münasibətlərindən bəhs etdik. Görürsünüz, hər məsələdə konkret nəticə var, bizim razılıq əldə etdiklərimizin və imzaladıqlarımızın hamısı həyata keçirilir. Biz Avropa Komissiyasına da bunu təklif etdik və deməliyəm ki, yeni saziş üzrə danışıqlar bütövlükdə pis getmir. Bəndlərin 90 faizindən çoxu razılaşdırılıb. Lakin razılıq əldə olunmayan bəndlər bizim üçün qətiyyən qəbuledilməzdir. Əgər Avropa İttifaqının mövqeyində dəyişiklik baş verərsə, onda biz nəticəyə hesablanmış danışıqları davam etdirə bilərik.

**- Bu il Dağlıq Qarabağda atəşkəs haqqında sazişin, müddətsiz sazişin 25 ili tamam oldu. Elə bu il tərəflər Bakının və Yerevanın qəbul etdiyi proqram üzrə sülhə doğru hərəkətin başlandığını bəyan etdilər və bir neçə maraqlı hadisə baş verdi. O cümlədən məsələn, Ermənistanda və Azərbaycanda jurnalist nümayəndə heyətləri mübadiləsi. Siz bu, çox mürəkkəb məsələdə daha hansı müsbət cəhətləri qeyd edərdiniz?**

- Təəssüf ki, daha heç nəyi. Hesab edirəm ki, 2019-cu il münaqişənin nizamlanması üçün itirildi. Bunun günahı isə erməni tərəfinin qeyri-ardıcıl, ziddiyyətli və anlaşılmaz mövqeyidir. Çünki il ərzində biz Ermənistanın ali rəhbərliyinin bir-birinə tamamilə zidd olan bəyanatlarını eşidirdik. Məsələn, onlardan biri Dağlıq Qarabağın "müstəqil dövlət" olması və Azərbaycanın belə adlandırılan "müstəqil dövlət" ilə danışıqlar aparmalı olması barədə bəyanatdır. Bu, danışıqlar prosesinin tamamilə pozulması, mahiyyətcə onun dayandırılması cəhdi idi. Təbii ki, bununla nə biz razılaşa bilərdik, nə də vasitəçi ölkələr - ATƏT-in Minsk qrupunun həmsədrləri. Bildiyimə görə, onlar da Ermənistan rəhbərliyinə xəbərdarlıq etdilər ki, bu populist və zərərli, təhlükəli siyasətdən əl çəksin.

Görünür ki, bu ağlabatan məsləhəti eşidən Ermənistan rəhbərliyi öz mövqeyini dəyişdi, lakin yenə də daha pis bir istiqamətdə. Ermənistanın baş nazirinin növbəti bəyanatı ondan ibarət oldu ki, Dağlıq Qarabağ Ermənistandır və nöqtə. Onda bizdə belə bir sual meydana çıxır: onlar gah deyirlər ki, Dağlıq Qarabağ heç kimin, o cümlədən Ermənistanın da tanımadığı müstəqil dövlətdir, gah da deyirlər ki, Dağlıq Qarabağ Ermənistandır. Bu da yalandır. Beləliklə, onlar özləri Dağlıq Qarabağın nə olduğunu bilmirlər. Əgər onlar Dağlıq Qarabağın nə olduğunu bilmirlərsə, biz bunu onlara izah edə bilərik. Mən bunu oktyabrda "Valday" forumu çərçivəsində sizin kanalınızın birbaşa efirində etmişəm, onda demişdim ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi. Erməni tərəfinin tezislərindən fərqli olaraq, bu, həqiqətdir, çünki həm tarixi ədalət, həm də beynəlxalq hüquq Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu təsdiq edir. Azərbaycan BMT-yə daxil olanda, o, özünün tam ərazi bütövlüyü çərçivəsində üzv olub. Əgər biz buraya BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin işğal olunmuş əraziləri dərhal və qeyd-şərtsiz tərk etməsi haqqında qətnamələrini, digər beynəlxalq təşkilatların qətnamələrini və heç bir ölkənin Dağlıq Qarabağ adlanan ağlasığmaz və qeyri-qanuni qurumu tanımadığını da əlavə etsək, onda görərik ki, münaqişənin həlli Azərbaycanın ərazi bütövlüyünün tanınması və onun suverenliyinə hörmət müstəvisində olmalıdır. Ona görə də Ermənistan rəhbərliyi bu sadə həqiqəti nə qədər tez başa düşsə, bizim danışıqlar prosesində irəliləmək şansımız yaranar.

**- Bəli, bu proqram davam etdiriləcək. Siz bu mövqelərə sadiq qalırsınızmı?**

- Nizamlanma mövqeyi üzrə?

**- Bəli, sülhə nail olmaq üzrə.**

- Bəli, sülhə doğru irəliləmək fəal danışıqlar prosesi ilə müşayiət olunmalıdır. Erməni tərəfinin bizim Dağlıq Qarabağla danışıqlar aparmalı olduğumuz barədə bəyanatına baxmayaraq, indi danışıqlar Azərbaycan və Ermənistan arasında aparılır. Mənim baş nazir Paşinyanla görüşlərim, o cümlədən ATƏT-in Minsk qrupunun təsbit etdiyinə görə, martda Vyanada keçirilən rəsmi görüş erməni tərəfinin onu necə dəyişmək istədiyinə baxmayaraq, bir daha təsdiq etdi ki, danışıqlar prosesi və format dəyişilməyib. Ona görə də sülhə doğru irəliləmək və danışıqlar trekində real tərəqqi paralel getməlidir.

**- Növbəti il bizim ortaq tariximiz üçün xüsusi il olacaq. Biz böyük Qələbənin, Böyük Vətən müharibəsində Qələbənin 75 illiyini qeyd edəcəyik. Təəssüf ki, biz artıq hər dəfə bu bayramda tarixi yenidən qiymətləndirmək cəhdləri ilə ovqatların təlx edilməsi hallarına alışırıq. İndi tarixi yenidən qiymətləndirmək cəhdlərinə faşizmin qəhrəmanlaşdırılması da əlavə olunub ki, bu, artıq ölkəmizi müdafiə edən və bu Qələbəni bizim üçün qazanan insanlar və onların nəsli üçün yolverilməzdir. Birincisi, Siz bu bayramı necə qeyd edəcəksiniz, Azərbaycan xalqı onu necə qeyd edəcək? İkincisi, Siz bizim ortaq tariximizdə baş verənləri necə qiymətləndirirsiniz?**

- Siz çox vacib məsələyə toxundunuz. Bu məsələ mütləq bütün ölkələrin gündəliyində olmalıdır və düşünürəm ki, bütün ölkələr və onların rəhbərləri öz mövqelərini açıq şəkildə ifadə etməlidirlər. Bu məsələ üzrə susmaq siyasəti aparmaq olmaz və necə deyərlər, "həm sizin, həm də bizim" siyasəti aparılmamalıdır. Hesab edirəm ki, bütövlükdə hər bir məsələ üzrə hər bir ölkənin öz mövqeyi olmalıdır və ilk növbədə, bu məsələyə dair. Çünki biz tarixin yenidən yazılması, faşizmin qəhrəmanlaşdırılması, tarixi həqiqətin təhrif edilməsi üzrə təhlükəli tendensiyaları görürük. Biz buna çox ciddi yanaşmalıyıq. Ona görə də MDB-də əməkdaşlıq çərçivəsində bu məsələ gündəlikdədir və MDB-nin Sankt-Peterburqda sonuncu qeyri-formal sammitində Vladimir Vladimiroviç Putin tarixi sənədlərə istinadla onlardan ətraflı danışdı. Onların bir çoxunu biz ilk dəfədir eşidirdik, mən Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda təhsil aldığım zaman tarixi yaxşı öyrənmişəm, o vaxt həmin sənədlər yox idi, onları bizə tədris etmirdilər və düşünürəm ki, bu, bir xəta idi.

**- Bu, xəta idi?**

- Bu, xəta idi. Amma mənim fikrimcə, bu, siyasi korrektliklə bağlı olub. Ona görə ki, bu cür sənədlərdə elə incə məqamlara toxunulur ki, sovet tarix elmi həmin məqamları "məxfi" qrifi altında saxlamağı qərara almışdı. Amma Rusiya Prezidentinin ətraflı çıxışında həmin məqamlar hamıya təqdim edildi və mənim fikrimcə, bu, çoxları üçün böyük sürpriz oldu. Biz həmin dövrdə, əslində, nələr baş verdiyini bir daha gördük. Buna görə də istər tarixin yenidən yazılması, istərsə də faşizmin qəhrəmanlaşdırılması əsla yolverilməzdir.

Azərbaycan Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə ehtiramla yanaşır. Hərçənd, açıq deməliyəm, təəssüf ki, müstəqilliyin ilk illərində belə olmayıb. O vaxt özünü Xalq Cəbhəsi adlandıran bir qrup hərbi çevriliş yolu ilə hakimiyyətə gələndə onlar 9 May bayramını ləğv etmişdilər, müharibə veteranları təqiblərə, mənəvi terrora məruz qalırdı. Praktiki olaraq, indi bəzi ölkələrdə baş verən hadisələr o vaxt bizdə olurdu. Yalnız Heydər Əliyev hakimiyyətə qayıdandan sonra tarixi ədalət bərpa edildi. Veteranlar yenidən dövlətin dəstəyindən istifadə etməyə başladılar, 9 May günü ümummilli bayram elan edildi və o vaxtdan - 1994-cü ildən biz bu bayramı qeyd edirik, həmin gün qeyri-iş günüdür. Mən hər il veteranlarla görüşürəm, biz həlak olanların xatirəsini ehtiramla yad edir, onların məzarları üzərinə gül-çiçək, əklillər qoyuruq. Azərbaycanda Böyük Vətən müharibəsi veteranları dövlətin çox böyük dəstəyindən istifadə edirlər.

Onu da demək istərdim ki, Azərbaycan bizim ümumi Qələbəmizə böyük töhfə verib. 120-dən çox Sovet İttifaqı Qəhrəmanı əslən Azərbaycandandır. Bizim müəssisələrdə gecə-gündüz hərbi texnika, o cümlədən məşhur "Katyuşa" raketləri istehsal edilirdi. Ona görə ki, həmin illərdə Azərbaycan sənayesi inkişaf etmişdi. Həmçinin Sovet ordusu üçün neftin 70 faizini, benzinin 80 faizini, sürtgü yağlarının 90 faizini Azərbaycan təmin edirdi, bunlar olmasa idi, müharibədə qalib gəlmək mümkün olmazdı. Biz bilirik ki, Hitler ordusunun çox hücumlarının uğursuz olması yalnız yanacağın vaxtında gətirilməməsinin nəticəsi idi. Təsadüfi deyil ki, faşist Almaniyası Bakını tutmağa çalışırdı. Yeri gəlmişkən, mən bu barədə oktyabr ayında Aşqabadda MDB-nin sammitində danışmışdım. Məşhur bir kadrda Hitlerə üzərində alman dilində "Xəzər dənizi" sözləri yazılmış tort gətirirlər. Orada Xəzər dənizinin sərhədlərində qara rəngli əridilmiş şokolad tökülüb. Hitler svastikanı götürüb düz Bakı sözü yazılan yerə qoyur. Onun planları belə idi. Bakının tutulması Sovet İttifaqı üçün fəlakət olardı. Ona görə ki, Sovet İttifaqı mühüm bir komponentdən məhrum edilərdi. Bizim vətəndaşlar üçün isə bu, ona görə fəlakət olardı ki, bütün neft quyuları minalanmışdı. Əgər faşistlər Bakını tutmağa nail olsaydılar, hər şey havaya uçar, yüz minlərlə insan həlak olardı. Buna görə də Böyük Vətən müharibəsi və Vətən uğrunda həlak olanlar haqqında xatirə, - Azərbaycandan müharibədə iştirak etmiş 600 mindən çox döyüşçünün 300 mini həlak olub, - bizim üçün müqəddəsdir. Biz bunu xatırlayırıq və ehtiramla yad edirik.

Daha bir məqam. Biz faşizmin qəhrəmanlıq kimi qələmə verilməsi məsələsində hər hansı siyasi korrektlikdən uzaq olmalıyıq. Kimin necə nitqlər söyləməsindən, kimin nə etməsindən asılı olmayaraq, biz hər şeyin öz adını deməliyik. Oktyabrda Aşqabadda mən daha bir məsələ qaldırdım, çünki gündəlikdə ümumi Qələbəmizin 75 illiyinin bayram edilməsinə hazırlıq məsələsi dururdu. Mən dedim ki, MDB məkanında faşistlərin qəhrəmanlaşdırılması, Ermənistanda baş verənlər, Yerevanda faşistlərin əlaltısı Qaregin Ter-Arutyunyana altı metr hündürlüyündə heykəl qoyulması yolverilməzdir. Njde ləqəbi ilə məşhur olan bu adam SMERŞ tərəfindən həbs edilərək 25 il azadlıqdan məhrum edilib və Vladimir həbsxanasında ölüb. Ona bəraət verilməmişdi. İndi belə bir adama Ermənistanda altı metr hündürlüyündə heykəl qoyulur, küçələrə, meydanlara onun adını verirlər. Bu, Ermənistan rəhbərliyinin də guya faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinin əleyhinə olması barədə bəyanatı ilə bir araya necə sığa bilər? Mən bu barədə açıq danışdım, öz mövqeyimi bildirdim və bu biabırçı məsələdə əli olmayan Ermənistanın baş nazirinə öz mövqeyini bildirmək şansı verdim. Lakin təəssüf ki, onun reaksiyası tamamilə qeyri-adekvat oldu. O, cavab verdi ki, Soljenitsın da sovet düşərgələrində olub. Mən yenidən çıxış üçün söz alıb deməyə məcbur oldum ki, Soljenitsın ilə faşist cəlladının eyniləşdirilməsi həyasızlıqdır.

Bir müddət sonra Ermənistanın baş naziri rusiyalı jurnalistlərlə görüşdə daha irəli gedərək deyib ki, Molotov da Hitler ilə görüşmüşdü, bunda təəccüblü heç nə yoxdur. Lakin bu tezisi, ümumiyyətlə, şərh etmək çətindir. Ona görə ki, tarixdən elementar biliyi olan hər kəsə məlumdur ki, Molotov Sovet İttifaqının Xarici İşlər naziri olub və onun bir vəzifəsi müharibənin əvvəlində riskləri mümkün qədər minimuma endirmək idi. Çünki biz yaxşı bilirik ki, Sovet İttifaqı 1939-cu ildə, əslində elə 1941-ci ildə də müharibəyə hazır deyildi, əgər hazır olsaydı, bu cür itkilər olmazdı. Buna görə də düşünürəm ki, bütün bu qeyri-adekvat bəyanatlar çox ciddi diqqət tələb edir. Burada siyasi korrektlik və ya hər hansı siyasi maraqlar xatirinə tarixin yenidən yazılması və faşizmin qəhrəmanlaşdırılması cəhdlərinə yol vermək olmaz.

Mən gələn il 9 May gününü Moskvada keçirməyi planlaşdırıram. Vladimir Vladimiroviç Putindən dəvət almışam. Adətən mən həmin günü Bakıda veteranlarla birgə qeyd edirəm. Bu dəfə isə - 5 il bundan əvvəl Qələbəmizin 70 illiyini qeyd edəndə olduğu kimi, Moskvada olacağam.

**- Bu sözləri Sizdən bu gün eşitməyimiz çox sevindirici və vacibdir. Biz Sizi Moskvada qarşılamağa şad olacağıq. Müsahibə üçün çox sağ olun.**

- Sağ olun.

# Bakıda abadlıq və yenidənqurma işləri geniş vüsət alıb

**Dekabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Binəqədi rayonundakı Səttar Bəhlulzadə küçəsi, Atatürk və Ziya Bünyadov prospektlərinin kəsişməsində yerləşən parkda aparılan yenidənqurma işləri ilə tanış olub.**



AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev dövlət başçısına parkda həyata keçirilən yenidənqurma işləri barədə məlumat verdilər.

Bildirildi ki, bu parkın ərazisi 1,1 hektardır. Abadlıq və yenidənqurma işlərinin yüksək səviyyədə həyata keçirildiyi parkda sakinlərin, o cümlədən uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılıb.

Qeyd edək ki, paytaxt Bakının yaşıllıqlar şəhərinə çevrilməsi istiqamətində təməli xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan nəcib təşəbbüs Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıllıqla və kompleks şəkildə uğurla davam etdirilir. Dövlət başçısı Azərbaycanda reallaşdırılan milli inkişaf strategiyasının prioritet istiqamətlərindən biri kimi ətraf mühitin mühafizəsini və eyni zamanda, insanların sağlam təbii şəraitdə yaşamasını ən yüksək səviyyədə təmin etməyi qarşıya məqsəd qoyub. Ölkəmizdə bu istiqamətdə silsilə tədbirlər və genişmiqyaslı abadlıq-quruculuq işləri həyata keçirilir.





Son illər Azərbaycanın bütün regionlarında, o cümlədən Bakıda abadlıq və yenidənqurma işləri geniş vüsət alıb. Əhalinin rahatlığı və istirahətinin yüksək səviyyədə təşkili məqsədilə yeni parklar və çoxsaylı yaşıllıq zolaqları salınır, mövcud park və xiyabanlar isə əsaslı şəkildə yenidən qurulur. Həyata keçirilən bu layihələr Bakının və regionların simasını dəyişməklə yanaşı, ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasında da mühüm rol oynayır. Aparılan yaşıllaşdırma işlərinə və ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində həyata keçirilən layihələrə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da böyük dəstək verir.

Parkda görülən işlərlə yaxından tanış olan Prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.

## Kuba Respublikasının Prezidenti zati-aliləri cənab Migel Dias-Kanel Bermudesə

Hörmətli cənab Prezident.

Kuba Respublikasının milli bayramı - Azadlıq Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kuba xalqına daim sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2019-cu il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Əziz İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Siz hələ gəncsiniz, ona görə yəqin düşünürsünüz ki, həyatda ən mühüm zəfərlər hələ irəlidədir. Siz müdrik insansınız, ona görə də yəqin bilirsiniz ki, insanın yaşı onun yaşadığı illərlə deyil, gördüyü işlərlə müəyyən olunur.

Buna görə arzu edirəm ki, Siz həyatınızın istənilən anında həm keçmişə nəzər salanda, həm də irəliyə baxanda həqiqətən intəhasız məkanlar görə biləsiniz. Bu məkanlar sevdiyiniz insanlara və yaxınlarınıza görə fərəh, ölkənizin qayğıları və onun qələbələrinə görə qürur hissi ilə dolu olsun.

*Hörmətlə,*

***Leonid KUÇMA,***
***Ukraynanın sabiq Prezidenti (1994-2005)***

❖ ❖ ❖

Çox hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Siz böyük siyasi təcrübənizdən və peşəkarlığınızdan istifadə edərək Azərbaycan Respublikasının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yüksək nəticələrə nail olmaq üçün qətiyyətli və ardıcıl səylər göstərirsiniz.

Azərbaycanın inkişafının təmin edilməsinə, beynəlxalq arenada respublikanın nüfuzunun möhkəmlənməsinə və xalqın rifahının yüksəlməsinə yönəlmiş fədakar əməyiniz ölkənizdə və onun hüdudlarından kənarda Zati-alinizə layiqli hörmət qazandırıb.

Əminəm ki, Sizin müdrik rəhbərliyinizlə Azərbaycan ictimai həyatın bütün sahələrinin dinamik təkmilləşdirilməsini və dünyada fəal siyasətin həyata keçirilməsini davam etdirəcək.

Şanxay Əməkdaşlıq Təşkilatının inkişaf məsələlərinə və geniş Avrasiya məkanında mövqelərinin möhkəmlənməsinə daimi diqqətinizə görə Sizə səmimi-qəlbdən minnətdarıq.

Hörmətli İlham Heydər oğlu.

İcazə verin, Sizə möhkəm cansağlığı, Azərbaycan xalqının rifahı naminə məsul dövləti fəaliyyətinizdə yeni böyük nailiyyətlər arzulayım.

*Hörmətlə,*

***Vladimir NOROV,***
***Şanxay Əməkdaşlıq Təşkilatının Baş Katibi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Qoy Sizin geniş dünyagörüşünüz və müdrikliyiniz, peşəkarlığınız və zəngin təcrübəniz, enerjiniz və həyatsevərliyiniz bütün məqsəd və planlarınızın uğurla həyata keçməsinin rəhni olsun.

Sizə uğur qazanacağınıza qəti inam və xeyirxah işlər üçün qüvvə arzulayır, cansağlığı, firavanlıq və doğmalarınızın hərtərəfli dəstəyini diləyirəm.

*Hörmətlə,*

***İqor ORLOV,***
***Arxangelsk vilayətinin qubernatoru***

# Heydər Əliyev Fondu uşaqlar üçün ənənəvi bayram şənliyi təşkil edib

## Birinci vitse-prezident Mehriban Əliyeva bayram şənliyində iştirak edib

**Heydər Əliyev Fondu dekabrın 30-da "Buta" sarayında Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində uşaqlar üçün şənlik təşkil edib.**





AZƏRTAC xəbər verir ki, ənənəvi olaraq keçirilən şənliyə müxtəlif uşaq evlərində və internat məktəblərində tərbiyə alan, xüsusi qayğıya ehtiyacı olan uşaqlar dəvət alıblar.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, fondun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva bayram şənliyində iştirak ediblər.

Həmişə olduğu kimi, bu dəfə də uşaqlar şənliyin keçirildiyi "Buta" sarayına onlar üçün ayrılmış avtobuslarla gəldilər. Xüsusi zövqlə bəzədilən və balacaların ixtiyarına verilən bu məkan uşaqları sevindirmək üçün bayram əhvali-ruhiyyəsində, nağıllar aləmini xatırladan dizaynla tərtib olunmuşdu.

Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə hər il Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il ərəfəsində müxtəlif uşaq evlərində və internat məktəblərində tərbiyə alan, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün şənlik təşkil edilir. Bu il də istisna olmadı.

Bayram şənliyi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin uşaqlara qayğısından, müxtəlif illərdə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramlarında uşaqlarla bir yerdə olmasından bəhs edən filmin nümayişi ilə başladı.

Daha sonra "Qış nağılı" təqdim edildi. Rusiyalı rejissor Aleksey Smirnovun quruluşunda hazırlanan teatrlaşdırılmış səhnəcik iştirakçılar tərəfindən maraqla qarşılandı. Rəngarəng səhnə tərtibatı ilə uşaqların sevincinə səbəb olan "Qış nağılı" müxtəlif ölkələrdə Yeni ilin qarşılanması tarixçəsi üzərində qurulub. Bu proqram, "Buta"da balacalar üçün qurulan və əsl bayram əhvali-ruhiyyəsi bəxş edən dekorasiyalar uşaqların sevincini daha da artırdı. Bər-bəzəkli sarayda rəqslərə qoşulan, mahnılar ifa edən, məharətlərini göstərən uşaqların sevinci hədsiz idi. Çünki Heydər Əliyev Fondunun təşkil etdiyi bayram və bu şənlikdə tanınmış sənətçilərin, sevimli nağıl və cizgi filmləri qəhrəmanlarının bir-birindən maraqlı çıxışları məhz onlara ünvanlanmışdı. Bayram şənliyində uşaqların sevinci, üzlərindəki təbəssüm bu hədiyyəni onlara bəxş edən Heydər Əliyev Fondunun fəaliyyətinə verilən ən yüksək qiymət idi. Hər il olduğu kimi, bu dəfə də balacalar onların ən böyük himayədarı Mehriban Əliyevanın ətrafına toplaşdılar.





Azərbaycanın Birinci vitse-prezidenti uşaqların sevinc və fərəhini bölüşdü, onlarla səmimi söhbət etdi.

Şənliyin iştirakçısı olan hər bir uşaq Mehriban Əliyevanın onlara diqqət və qayğısını hiss etdi. Birinci vitse-prezident Mehriban Əliyeva sarayda uşaqlar üçün qurulan masaların hamısına yaxınlaşdı, onların əhvalı ilə maraqlandı, istəklərini dinlədi, hər biri ilə şəkil çəkdirdi. Cəmiyyətdə xüsusi kateqoriyaya aid olan bu uşaqlar bir daha onların daim qayğı ilə əhatə olunduğunu gördülər.

Nağıl və musiqili-əyləncəli proqram müxtəlif uşaq kollektivlərinin, uşaq evlərinin sakinlərinin və Azərbaycan incəsənət ustalarının iştirakı ilə hazırlanmışdı.

Balacaların sevimli qəhrəmanlarını canlandıran personajlar şənlik iştirakçılarında gözəl həyəcan hissləri doğurdu. Səhnəciklər, oynaq, şux mahnılar, rəqslər bayram tədbirini daha da rəngarəng etdi.

Qış nağılını xatırladan sarayda uşaqlar bayram ərəfəsində sevimli qəhrəmanların əhatəsində oldular, onlarla birlikdə şənləndilər.

Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu valideyn himayəsindən məhrum olan uşaqların problemlərinin həllinə xüsusi diqqət yetirir. Cəmiyyətdə nəcibliyin, mərhəmət və xeyirxahlığın ali ünvanına çevrilməklə, ümumxalq mənafeləri baxımından bir sıra strateji layihələri qısa müddətdə uğurla gerçəkləşdirən Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti də məhz bu nəcib dəyərlərə söykənir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva bayram şənliyində çıxış etdi.

***Bax: səh. 4***

# Heydər Əliyev Fondu uşaqlar üçün ənənəvi bayram şənliyi təşkil edib







## Birinci vitse-prezident Mehriban Əliyevanın çıxışı

- Hörmətli valideynlər, hörmətli müəllimələr, əziz uşaqlar.

Mən sizin hər birinizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə ürəkdən təbrik edirəm. Heydər Əliyev Fondu fəaliyyətinə başladığı dövrdən - yəni, 15 ildir ki, biz Yeni ili birlikdə qarşılayırıq. İl ərzində müxtəlif tədbirlərdə, müxtəlif məkanlarda da sizinlə görüşürük. Amma Yeni il bayramı xüsusi bayramdır. Bu, həm uşaqların, həm böyüklərin ən sevimli bayramlarından biridir. Bu gün bizim bir ailə kimi bir-birimizə doğma, dəyərli, əziz olduğumuzu ifadə etməyimiz üçün gözəl bir imkandır.

Artıq 2019-cu ilin son günlərini yaşayırıq. Ümidvaram ki, sizin hər biriniz üçün bu il uğurlu oldu. Ölkəmizin həyatında da bir sıra əhəmiyyətli, yaddaqalan hadisələr baş verdi. Azərbaycanda sabitlik, əmin-amanlıq hökm sürdü. Azərbaycanda inkişaf davam edir. 2018-ci ildən cənab Prezident İlham Əliyev tərəfindən start verilmiş islahatlar davam edir. Dünya Bankının 2020-ci il üzrə hesabatında Azərbaycan dünyanın 20 ən islahatçı ölkələri sırasındadır. Davos Dünya İqtisadi Forumunun hesabatında rəhbərliyin islahatlara meyillilik səviyyəsi üzrə Azərbaycan beşinci yerdədir. Bu il dünyanın ən güclü 80 ölkəsi arasında reytinqdə bizim ölkəmiz 45-ci yerdədir.

Ölkəmizdə bu il bir sıra vacib, mühüm beynəlxalq tədbirlər, o cümlədən VII Qlobal Bakı Forumu, V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü, Dünya dini liderlərinin II Sammiti keçirildi. Digər sahələrdə də bir sıra mühüm hadisələr baş verdi. Mədəniyyət sahəsində ən yaddaqalan hadisə yəqin ki, Şəki Xan Sarayının və Şəki şəhərinin tarixi mərkəzinin UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi, Bakı şəhərinin UNESKO-nun yaradıcılıq şəhərlərinin şəbəkəsində yer tutmasıdır. Digər sahələrdə - idman sahəsində böyük nailiyyətlər əldə edilib. 2019-cu ildə ölkəmizdə bir sıra beynəlxalq yarışlar keçirilib. Mən bir gəncin qələbəsi haqqında xüsusi danışmaq istəyirəm. Bu ilin oktyabr ayında bizim gənc şahmatçı Aydın Süleymanlı 14, 16 və 18 yaşlı qızlar və oğlanlar arasında dünya çempionatında qələbə əldə edib. Əlbəttə, bu, bizim hər birimizin qəlbini böyük qürur və sevinc hissi ilə doldurur.

Bir sözlə, bir çox sahələrdə, demək olar ki, həyatımızın bütün sahələrində ölkəmiz yeni nailiyyətlər, yeni qələbələr əldə edir. Əziz uşaqlar, bu gün görülən bütün işlər, atılan bütün addımlar sizin xoşbəxt sabahınız, xoşbəxt gələcəyiniz naminədir.

Yeni il, eyni zamanda, yeni arzular, yeni hədəflər, yeni imkanlardır. Mən arzulayıram ki, sizin hər birinizin ürəyində olan ən müqəddəs arzularınız gerçəkləşsin. Əminəm ki, ölkəmizi yeni qələbələr və yeni nailiyyətlər gözləyir. Bu bayram günündə mən bizim bütün müəllimlərimizə əvəzolunmaz əməklərinə görə, bizim gənc nəslə, bizim uşaqlara göstərdikləri diqqətə görə öz dərin minnətdarlığımı bildirirəm. Artıq 15 ildir ki, Heydər Əliyev Fondunun kollektivi ilə bir yerdə bu bayram ab-havasını yaratmağa kömək edən, iştirak edən, uşaqları şənləndirən bizim hörmətli sənət adamlarımıza mən öz dərin minnətdarlığımı bildirirəm.

Əziz dostlar, bir daha hər birinizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram. Ölkəmizə sülh, əmin-amanlıq arzulayıram. Qoy, Tanrı Azərbaycanı və Azərbaycan xalqını daim qorusun. Təbrik edirəm.

❖ ❖ ❖

Beləliklə, Heydər Əliyev Fondunun həyata keçirdiyi çoxşaxəli fəaliyyətin bir hissəsi olan bayram şənliyi yüzlərlə uşağı sevindirdi.

Bir saatdan çox davam edən proqramın sonunda uşaqlara Heydər Əliyev Fondu tərəfindən bayram hədiyyələri verildi. Fondun balacalara hədiyyə etdiyi bu bayram şənliyi onların yaddaşında silinməz iz qoydu.

# Birinci vitse-prezident Mehriban Əliyeva Uşaq Psixonevroloji Mərkəzində əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub







Dekabrın 30-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Heydər Əliyev Fondu tərəfindən Uşaq Psixonevroloji Mərkəzində aparılan əsaslı təmir işlərindən sonra yaradılan şəraitlə tanış olub, mərkəzin yeni korpusunun açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva Uşaq Psixonevroloji Mərkəzində yaşayan və müalicə alan, xüsusi təhsilə yiyələnən uşaqlar üçün yaradılan şəraitlə maraqlandı.

Məlumat verildi ki, uşaqların müayinə və müalicəsi üçün geniş və müasir mərkəzin yaradılmasının zəruri olduğunu nəzərə alaraq, 2009-cu ildə Heydər Əliyev Fondu Bakı şəhərində Psixonevroloji Uşaq Mərkəzi inşa etdirib. Fondun prezidenti Mehriban Əliyeva və vitse-prezidenti Leyla Əliyeva mütəmadi olaraq mərkəzdə uşaqlara baş çəkirlər. Mərkəzdə əsasən autizm, serebral iflic, əqli gerilik və ləngimələrdən əziyyət çəkən uşaqlar müalicə olunurlar. 2015-ci ildə təmir edilən bina bu il Heydər Əliyev Fondu tərəfindən yenidən əsaslı təmir olunub və əlavə 2 mərtəbəli yeni korpus inşa edilib. Yüz çarpayılıq mərkəzdə 100-ə yaxın uşaq tibbi xidmətlərdən yararlanır. Valideyn himayəsindən məhrum olan 24 uşaq isə stasionar şəraitdə uşaq evi şöbəsində müalicə alır.

Uşaq Psixonevroloji Mərkəzin yeni inşa edilən korpusu ilə tanışlıqdan sonra Birinci vitse-prezident Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva mərkəzdə müalicə alan uşaqlarla birgə qarşıdan gələn 31 dekabr -Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramlarını qeyd etdilər.

Burada uşaqların iştirakı ilə Yeni ilə həsr edilən səhnəcik təqdim olundu.

Sonda xatirə şəkli çəkdirildi.

# Autizm sindromlu uşaqlar üçün Reabilitasiya Mərkəzində bayram şənliyi

## Birinci vitse-prezident Mehriban Əliyeva şənlikdə iştirak edib







Dekabrın 30-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Bakının Nərimanov rayonunda "Birgə və Sağlam" İctimai Birliyinin nəzdində fəaliyyət göstərən autizm sindromlu uşaqlar üçün Reabilitasiya Mərkəzində olublar.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Gününü və Yeni il bayramını Heydər Əliyev Fondunun dəstəyilə fəaliyyət göstərən autizm sindromlu uşaqlar üçün Reabilitasiya Mərkəzində qeyd etdi.

Autizmli uşaqlar öz istedadlarını nümayiş etdirdilər. Birinci vitse-prezident Mehriban Əliyeva mərkəzin nəzdində fəaliyyət göstərən xor kollektivi ilə birgə mahnı ifa etdi.

Sonra Mehriban xanım Əliyeva uşaqlarla birgə tort bişirdi, onlarla söhbət etdi.

Mərkəzin yetirməsi olan, hazırda Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin ikinci kursunda təhsil alan Əlisahib Bayramov və digər uşaqlar pianoda müxtəlif musiqilər ifa etdilər.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da musiqi ifa etdi.

Daha sonra Birinci vitse-prezident autizmli uşaqlarla birgə bişirdikləri tortu çay süfrəsi arxasında daddılar. İctimai Birliyin sədri Aytən Eynalova bildirdi ki, hazırda bu mərkəzdə 70-dək uşaq intensiv terapiyadan faydalanır. Burada autizm sindromlu uşaqların qayğısı ilə müvafiq təlim keçən mütəxəssislər məşğul olurlar. Birinci vitse-prezident Mehriban Əliyeva mərkəzin kollektivini, burada müalicə alan uşaqları və ailə üzvlərini Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik etdi, onlara uğurlar arzuladı.

# Sosial müdafiə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, habelə sosial müdafiə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin davam etdirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra - Nazirlik) tabeliyində aşağıdakı publik hüquqi şəxslər yaradılsın:

1.1. Nazirlik yanında Dövlət Məşğulluq Xidmətinin əsasında Dövlət Məşğulluq Agentliyi;

1.2. Nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun əsasında Dövlət Sosial Müdafiə Fondu;

1.3. Nazirlik yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin əsasında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi;

1.4. Sosial Xidmətlər Agentliyi.

2. Bu Fərmanın 1-ci hissəsi ilə yaradılan publik hüquqi şəxslərin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

2.1. Azərbaycan Respublikasının Prezidentinə:

2.1.1. nizamnamənin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

2.1.2. idarəetmə orqanlarının yaradılması;

2.1.3. yenidən təşkili və ləğv edilməsi;

2.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

2.2.1. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsində nəzərdə tutulmuş qərarın qəbul edilməsi;

2.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə:

2.3.1. bu Fərmanın 2.1-ci və 2.2-ci bəndlərində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin (bu Fərmanın 3.4-cü bəndi nəzərə alınmaqla) həlli.

3. Müəyyən edilsin ki:

3.1. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş publik hüquqi şəxslərin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün onlarda İdarə Heyəti yaradılır;

3.2. İdarə Heyətinin üzvlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri vəzifəyə təyin və vəzifədən azad edir;

3.3. Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin və Sosial Xidmətlər Agentliyinin fəaliyyəti dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir;

3.4. Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin və Sosial Xidmətlər Agentliyinin işçilərinin sayının yuxarı həddini və əməkhaqlarını (o cümlədən dövlət büdcəsi vəsaiti hesabına əməkhaqqına əlavələri, mükafatları və digər ödənişləri) Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla təsdiq edir.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. bu Fərmanın 1-ci hissəsi ilə yaradılan publik hüquqi şəxslərin nizamnamələrinin layihələrini, o cümlədən nizamnamə fondlarının miqdarı barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

5.1. tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin "DOST" mərkəzləri açıldıqca bu Fərmanın 1-ci hissəsi ilə yaradılan publik hüquqi şəxslərin yerli qurumlarının fəaliyyətinin, əhaliyə göstərilən xidmətlərin əlçatanlığı qorunmaqla, regional əsaslarla qurulmasını təmin etsin;

5.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Sosial Xidmətlər Agentliyi dövlət qeydiyyatına alındığı tarixdən bir ay müddətində bu Fərmanın 1.2-ci bəndinə əsasən yenidən təşkil edilmiş Dövlət Sosial Müdafiə Fondunun tabeliyində olan sosial xidmət müəssisələri həmin Agentliyin tabeliyinə verilsin.

7. Bu Fərmanın 1-ci hissəsi ilə yaradılan publik hüquqi şəxslər "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti, Dövlət Sosial Müdafiə Fondu və Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti öz fəaliyyətlərini davam etdirsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2019-cu il*

# "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 118; 2016, № 5, maddə 862, № 8, maddələr 1373, 1384; 2017, № 1, maddə 46, № 7, maddə 1345, № 12 (I kitab), maddə 2340; 2018, № 10, maddə 2010, № 11, maddə 2287, № 12 (I kitab), maddə 2603; 2019, № 4, maddə 644, № 6, maddə 1031) 1-ci və 2-ci hissələri ləğv edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin, Əmlak Məsələləri Dövlət Xidmətinin və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin əsasnamələrinin layihələrini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2019-cu il*

*Fərmana edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin strukturu"nda və "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 411, № 8, maddə 680; 2007, № 6, maddə 602, № 8, maddə 770, № 10, maddə 947; 2008, № 7, maddə 612, № 11, maddələr 967, 970; 2009, № 10, maddə 779, № 12, maddə 983; 2010, № 2, maddə 83; 2011, № 2, maddə 85; 2012, № 7, maddə 688, № 9, maddə 855; 2013, № 2, maddə 114, № 6, maddə 651, № 9, maddələr 1060, 1061; 2016, № 3, maddə 436; 2017, № 10, maddə 1781; 2018, № 2, maddə 217, № 5, maddə 932, № 10, maddə 1990) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin strukturu"nun 2-ci hissəsinin birinci, ikinci və üçüncü bəndləri ləğv edilsin.

2. "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2575; 2019, № 6, maddə 1012; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 894 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olan Bakı Şəhər Baş Səhiyyə İdarəsi, Gəncə Şəhər Səhiyyə İdarəsi, Sumqayıt Şəhər Səhiyyə şöbəsi, habelə tabeliyindəki dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələri (Məhkəmə Psixiatrik Ekspertiza Mərkəzi, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi və onun şöbələri, Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin tabeliyindəki dezinfeksiya stansiyaları və profilaktik dezinfeksiya şöbələri, Bakı Şəhər Dezinfeksiya Stansiyası və onun bölmələri, tibb tədris müəssisələri, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi və onun filialları, Milli Onkologiya Mərkəzi və onkoloji xəstəxanalar (dispanserlər), Respublika Leproz (Cüzam) Xəstəxanası, taun əleyhinə stansiya və şöbələr, İctimai Səhiyyə və İslahatlar Mərkəzi, Respublika QİÇS-lə Mübarizə Mərkəzi, ailə planlaması məsləhətxanaları və mərkəzləri, ailə və nikah məsləhətxanaları, "Tibb" qəzeti, "Azərbaycan Tibb Jurnalı", Azərbaycan Respublikası Dövlət Elmi-Tibbi Kitabxanası, Azərbaycan Təbabəti Muzeyi, Analitik Ekspertiza Mərkəzi, "Azərtibbtəchizat" Məhdud Məsuliyyətli Cəmiyyəti, sanatoriyalar və kurort üsulları ilə müalicə edən tibb müəssisələri, Bakı Sağlamlıq Mərkəzi, Tikilməkdə Olan Müəssisələrin Müdiriyyəti, İnformatika və Statistika İdarəsi, Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi, İnnovasiya və Təchizat Mərkəzi, psixiatrik və narkoloji xidmətlər göstərən tibb müəssisələri, habelə körpələr evləri istisna olmaqla) TƏBİB-in tabeliyinə verilsin.";

2.2. 3.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

"3.6. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla, bu Fərmanın 2-ci hissəsinə uyğun olaraq TƏBİB-in tabeliyinə verilən dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələrinin "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində qeyd edilən publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərini (işçilərin əməkhaqlarının (o cümlədən əməkhaqqına əlavələrin, mükafatların və digər ödənişlərin) təsdiqi istisna olmaqla) TƏBİB həyata keçirir;";

2.3. Aşağıdakı məzmunda 3.7-ci bənd əlavə edilsin:

"3.7. bu Fərmanın 2-ci hissəsinə uyğun olaraq TƏBİB-in tabeliyinə verilən dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələrinin "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2.4-cü maddəsində qeyd olunan publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərini (işçilərin əməkhaqlarının (o cümlədən əməkhaqqına əlavələrin, mükafatların və digər ödənişlərin) təsdiqinə münasibətdə) İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi həyata keçirir.";

2.4. 6.5.7-ci yarımbənddə "müəssisələrdə" sözü "tibb müəssisələrində" sözləri ilə əvəz edilsin və həmin yarımbənddən "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi ilə birlikdə" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2019-cu il*

# Ağstafa rayonunda Dilbaz Atçılıq təsərrüfatı üçün yeni kompleksin tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ağstafa rayonunda Dilbaz Atçılıq təsərrüfatı üçün yeni kompleksin tikintisi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.12.23-cü yarımbəndində göstərilmiş məbləğin 5 030 000 (beş milyon otuz min) manatı Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2019-cu il*

# Yeni yaradılmış inzibati və kommersiya məhkəmələri hakimlərinin təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Aşağıdakı şəxslər yeni yaradılmış inzibati və kommersiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

**İnzibati məhkəmələr üzrə:**

**Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsi**

Muradov Hicran Xasay oğlu
Novruzov Səxavət Hüseyn oğlu

**Bakı İnzibati Məhkəməsi**

Abdullayeva Aygün Abdulla qızı
Abıyev Nəriman İbrahim oğlu
Əliyev Elvin Əhəd oğlu
Hacıbəyova Miminat Tacib qızı
Həsənova Şəlalə Akif qızı
Hüseynov Araz Firidun oğlu
Hüseynov Pərviz Aktiv oğlu
Qarayeva Mehriban Cəfər qızı
Mədətli Fərid İlham oğlu
Oruczadə Aytən Pənah qızı
Rəcəbov İlkin Əbülfəz oğlu

**Gəncə İnzibati Məhkəməsi**

Axundov Emin Tahir oğlu
Hüseynov Fikrət Cilingir oğlu
İsgəndərova Aygül Vulqar qızı
Osmanov Usaməddin Hidayət oğlu

**Sumqayıt İnzibati Məhkəməsi**

Əzizova Vəfa Ehtiram qızı
Quliyev İsmayıl Rza oğlu
Məmmədov Ceyhun Bəşir oğlu

**Şirvan İnzibati Məhkəməsi**

Allahyarov Zaur Mirzağa oğlu
Həsənov Samir Firdusi oğlu
İsmayılov Orxan Nadir oğlu

**Şəki İnzibati Məhkəməsi**

Cabbarov İlqar Hidayət oğlu
Qasımov Vidadi Kamal oğlu

**Kommersiya məhkəmələri üzrə:**

**Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsi**

Hüseynov Elnur Heydər oğlu
Salmanov Elşən Fizuli oğlu

**Bakı Kommersiya Məhkəməsi**

Axundova Zeynəb Əli qızı
Burcayev İmran Ramazan oğlu
Əliyev Emin Zöhrab oğlu
Əliyeva Aytən Heydər qızı
Əliyeva Leyla Rauf qızı
Nuriyeva Səbinə Vidadi qızı
Pirverdiyev Zaur Rafiq oğlu
Qasımov Fərrux Hüseynağa oğlu

**Gəncə Kommersiya Məhkəməsi**

Məmmədov Rəşad Seylan oğlu
Vəliyev Kənan Hafiz oğlu

**Sumqayıt Kommersiya Məhkəməsi**

Məmmədov Zahid Tahir oğlu
Sadiqov Zülfüqar Əhməd oğlu
Tağıyev Xəqani Qəhrəman oğlu

**Şirvan Kommersiya Məhkəməsi**

İsmayılov Rafiq Tofiq oğlu

**Şəki Kommersiya Məhkəməsi**

Məcidov Rüfət Azadəli oğlu

2. Bu Sərəncam 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2019-cu il*

# Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin müavininin, İnzibati və Kommersiya kollegiyaları sədrlərinin və bir sıra birinci instansiya məhkəmələri sədrlərinin təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Əsgər Novruz oğlu Novruzov Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi sədrinin müavini təyin edilsin.

2. Yusifəli Süleyman oğlu Qurbanov Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının sədri təyin edilsin.

3. Əhliman Mehman oğlu Xıdırov Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının sədri təyin edilsin.

4. Hicran Xasay oğlu Muradov Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsinin sədri təyin edilsin.

5. Elşən Fizuli oğlu Salmanov Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinin sədri təyin edilsin.

6. Hüseyn Məmməd oğlu Məmmədov Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin sədri təyin edilsin.

7. Bu Sərəncam 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2019-cu il*

# Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin və sədrlərinin vəzifələrinin dəyişdirilməsi ilə bağlı bəzi məsələlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

1. Aşağıdakı hakimlər və məhkəmə sədrləri vəzifələrinin dəyişdirilməsi ilə əlaqədar tutduqları vəzifələrdən azad edilsinlər:

Abıyev Nəriman İbrahim oğlu - Sumqayıt Şəhər Məhkəməsinin hakimi vəzifəsindən

Axundov Emin Tahir oğlu - Gəncə şəhəri Nizami Rayon Məhkəməsinin hakimi vəzifəsindən

Axundova Zeynəb Əli qızı - Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin hakimi vəzifəsindən

Burcayev İmran Ramazan oğlu - Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi vəzifəsindən

Əliyev Emin Zöhrab oğlu - Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi vəzifəsindən

Əliyeva Aytən Heydər qızı - Bakı şəhəri Səbail Rayon Məhkəməsinin hakimi vəzifəsindən

Həsənova Şəlalə Akif qızı - Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin hakimi vəzifəsindən

Hüseynov Araz Firidun oğlu - Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi və sədri vəzifəsindən

Hüseynov Elnur Heydər oğlu - Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər Məhkəməsinin hakimi vəzifəsindən

Hüseynov Pərviz Aktiv oğlu - Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin hakimi vəzifəsindən

Qarayeva Mehriban Cəfər qızı - Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi vəzifəsindən

Qasımov Fərrux Hüseynağa oğlu - Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi vəzifəsindən

Məmmədov Ceyhun Bəşir oğlu - Sumqayıt Şəhər Məhkəməsinin hakimi vəzifəsindən

Məmmədov Rəşad Seylan oğlu - Tovuz Rayon Məhkəməsinin hakimi vəzifəsindən

Novruzov Səxavət Hüseyn oğlu - Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin hakimi vəzifəsindən

Osmanov Usaməddin Hidayət oğlu - Mingəçevir Şəhər Məhkəməsinin hakimi və sədri vəzifəsindən

Sadiqov Zülfüqar Əhməd oğlu - Abşeron Rayon Məhkəməsinin hakimi vəzifəsindən

Salmanov Elşən Fizuli oğlu - Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin hakimi vəzifəsindən

Tağıyev Xəqani Qəhrəman oğlu - Quba Rayon Məhkəməsinin hakimi və sədri vəzifəsindən

2. Aşağıdakı şəxslər birinci instansiya məhkəmələrinin hakimləri və sədrləri təyin edilsinlər:

Rzayev Rəşid Şükür oğlu - Bakı şəhəri Xətai Rayon Məhkəməsinin hakimi və sədri

Əliyev İslam Əli oğlu - Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi və sədri

Abbasov Natiq Mehdi oğlu - Ağstafa Rayon Məhkəməsinin hakimi və sədri

Nuriyev Mehman Bağış oğlu - Cəbrayıl Rayon Məhkəməsinin hakimi və sədri

3. Aşağıdakı şəxslər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

Heydərov Faiq İnqilab oğlu - Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin hakimi

Mustafayev Etibar Mustafa oğlu - Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi

Tağıyev Zaur Müzəffər oğlu - Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin hakimi

Kərimli Rüstəm Lətif oğlu - Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi

Əsədova Tahirə Əlif qızı - Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi

Süleymanova Şəhla Ənvər qızı - Bakı şəhəri Səbail Rayon Məhkəməsinin hakimi

Daşdəmirov Rauf Məhərrəməli oğlu - Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi

İmanov Xaliq Xalıq oğlu - Kürdəmir Rayon Məhkəməsinin hakimi

Ələkbərov Əfqan Qəzənfər oğlu - Sumqayıt Şəhər Məhkəməsinin hakimi

Məmmədov Elçin Qüdrət oğlu - Sumqayıt Şəhər Məhkəməsinin hakimi

Rzayev Kamil Allahqulu oğlu - Tərtər Rayon Məhkəməsinin hakimi

4. Bu Sərəncam 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2019-cu il*

# Azərbaycanın xarici siyasəti Prezident İlham Əliyevin rəhbərliyi ilə milli maraqlarımıza uyğun olaraq uğurla həyata keçirilir

**Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov 2019-cu ilin yekunları ilə əlaqədar kütləvi informasiya vasitələrinin suallarını cavablandırıb. AZƏRTAC müsahibəni təqdim edir.**



**- 2019-cu ili Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlar baxımından necə qiymətləndirirsiniz? Tərəflər arasında hansı konkret məsələlər müzakirə olunub? Bu il ərzində tərəflər münaqişənin həlli çərçivəsində humanitar tədbirlərin həyata keçirilməsi təşəbbüsləri ilə çıxış etdilər, bu xüsusda KİV nümayəndələrinin qarşılıqlı səfərləri baş tutdu. Bu təşəbbüslərin faydalı olduğunu düşünürsünüzmü və gələcəkdə bu kimi səfərlərin davamı gözlənilirmi?**

- Bu il ərzində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlar prosesi çərçivəsində ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının baş naziri arasında 29 mart tarixində Vyanada bir görüş, Xarici İşlər nazirləri səviyyəsində isə yanvarın 16-da Parisdə, aprelin 15-də Moskvada, iyunun 20-də Vaşinqtonda, sentyabrın 23-də Nyu Yorkda və dekabrın 4-də Bratislavada olmaqla 5 görüş keçirilmişdir. Görüşlərin keçirilmə intensivliyindən çıxış edərək hər iki tərəfin danışıqlar prosesinin irəli aparılmasında maraqlı olduğu qənaətinə gəlmək olar. Lakin Ermənistan tərəfinin il ərzində səsləndirdiyi tamamilə əsassız və ziddiyyətli bəyanatları, eləcə də keçirilən görüşlərdə hər hansı konkret nəticənin əldə olunmadığını nəzərə alsaq, təəssüflə qeyd etməliyik ki, 2019-cu il münaqişənin həlli üzrə "itirilmiş imkanlar ili" kimi dəyərləndirilə bilər.

Bir tərəfdən münaqişənin sülh yolu ilə həllində maraqlı olduğunu bəyan edən Ermənistan rəhbərliyi digər tərəfdən qondarma "müstəqillik" və "miatsum" kimi ziddiyyətli fikirləri ilə danışıqlar prosesinə və ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin səylərinə zərbə vurmuş oldu. Doğrudur, keçirilmiş görüşlər nəticəsində humanitar müstəvidə tədbirlərin həyata keçirilməsi və iki ölkə əhalisinin sülhə hazırlanması təşəbbüsləri irəli sürüldü, hətta bu xüsusda ilk addım olaraq Azərbaycan və Ermənistan mətbuat nümayəndələrinin qarşılıqlı səfərləri reallaşdırıldı. Ancaq bu təşəbbüsün sonradan Ermənistan tərəfindən siyasiləşdirilməsi və təbliğat vasitəsi kimi istifadəsi cəhdləri bu ölkənin əhalisini sülhə hazırlamağa nə dərəcədə hazır olduğu sualını ortaya qoydu. Əslində, təşəbbüsə cəlb olunmuş jurnalistlər, xüsusilə də onları bu prosesdə dəstəkləyən tərəf məsuliyyəti hiss etməli və prosesə xələl gətirməməlidir. Əks təqdirdə, bu kimi təşəbbüslərin və iki xalq arasında körpülərin qurulması cəhdlərinin heç bir mənası olmaz. Beləliklə də gələcəkdə bu təşəbbüslərin davam etdirilməsinə məhz bu prizmadan yanaşmaq və növbəti addımlar haqqında danışmaq olar.

Hər zaman qeyd etdiyim fikri yenidən xatırlamaq istərdim, biz iki qonşu ölkəyik və tez ya da gec, münaqişənin həllindən sonra iki icmanın nümayəndələri yenidən ölkəmizin Dağlıq Qarabağ bölgəsində birgə yaşamalı olacaqlar. Bu baxımdan həyata keçirilən etimad tədbirləri, humanitar təşəbbüslər məhz münaqişənin həllini irəli aparmaq, Azərbaycan ərazilərinin işğalı amilini aradan qaldırmaq və məcburi köçkünlərin öz evlərinə, mülklərinə geri dönməsini təmin etməyə xidmət etməlidir.

**- Münaqişənin həlli üzrə aparılan danışıqlarda yeni təkliflərin irəli sürülmədiyini nəzərə alaraq, qeyd etmək olarmı ki, danışıqlar dalana dirənib? Bu illər ərzində danışıqların aparılması bizə nə verib, danışıqların səmərəsi nədən ibarətdir? Ermənistanla Azərbaycan arasında vasitəçilər olmadan danışıqlar aparıla bilərmi və Dağlıq Qarabağın Azərbaycanlı icması bu danışıqlara necə cəlb oluna bilər?**

- Doğrudur, münaqişənin həlli üzrə danışıqlar prosesində bu il ərzində konkret irəliləyiş olmayıb, lakin bunu "danışıqlar dalana dirənib" kimi dəyərləndirmək düzgün olmazdı. İl ərzində irəli sürülən çoxsaylı görüşlər və konkret təşəbbüslər danışıqlar prosesinin davam etdirilməsinə müəyyən ehtiyac olduğunu göstərir. Biz hər zaman bəyan etmişik, nə qədər ki, münaqişənin danışıqlar, sülh yolu ilə həlli imkanı var, biz bu imkandan istifadə edəcəyik. Əlbəttə, məqsəd mahiyyət üzrə substantiv danışıqlar aparıb prosesi irəli aparmaqdır. Bunun üçün bütün prinsiplər, elementlər, mərhələlər işlənib hazırlanıb, müzakirə edilib və yenidən nəzərdən keçirilib. Bugündək hazırlanmış bütün sənədlərdə münaqişənin mərhələli həlli, işğal olunmuş ərazilərimizin azad olunması, məcburi köçkünlərin geri qayıtması, növbəti mərhələdə status məsələsinin həlli məsələlərinə aydınlıq gətirilir. Bu elementlərlə tanış olmaq üçün ATƏT-in Minsk qrupunun həmsədrlərinin bu ilin 9 mart tarixli bəyanatı ilə tanış olmanız kifayətdir. Ermənistan tərəfindən davamlı şəkildə qaldırılan təhlükəsizlik və status məsələsinə gəldikdə, bir daha vurğulamaq istərdim ki, hər iki məsələ həll prosesi çərçivəsində, ATƏT-in müvafiq qərarlarına, habelə bildiyiniz kimi, tətbiqi üçün zaman məhdudiyyəti olmayan BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq tənzimlənməlidir. Qarabağın azərbaycanlı əhalisi geri qayıtmadan hansı statusdan danışa bilərik? Eləcə də təhlükəsizlik məsələsi bölgənin erməni icması ilə yanaşı, azərbaycanlı icma üçün də kifayət qədər önəmlidir və burada beynəlxalq sülhü qoruma mexanizmlərindən istifadə olunmasına ehtiyac duyulduğu hamıya bəllidir.

Soruşursunuz ki, danışıqların aparılması bizə nə verib. Münaqişəni həll etmək danışıqlar aparmaq deyil, bəs nədir? Münaqişə yenidən alovlanarsa belə yenidən danışıqlar başlayacaq, çünki nə əbədi davam edən müharibə, nə də danışıqlar mövcud deyil. Danışıqları ona görə aparırıq ki, pozulmuş beynəlxalq hüquq normalarını bərpa edək, Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyini bərpa edək, Azərbaycanın sözündə və əməlində bir olduğunu və sülh yolu ilə həlli potensialı bitməyənədək danışıqlara sadiq qaldığını nümayiş etdirək. Danışıqları aparırıq ki, Azərbaycan ərazilərini işğaldan azad edək.

Bu gün Ermənistanın işğalçılıq siyasəti səbəbindən Azərbaycanla Ermənistan arasında diplomatik münasibətlər mövcud deyil və tərəflər arasında danışıqlar beynəlxalq sülh və təhlükəsizliyin qorunmasına cavabdeh olan əsas beynəlxalq qurum - BMT Təhlükəsizlik Şurasının daimi üzvləri, dünyanın üç aparıcı ölkəsinin vasitəçilik səyləri ilə aparılır.

**- Ermənistan əsir və girovların dəyişdirilməsinə dair "hamının hamıya" prinsipinə razılıq vermir, bu ölkə qanunsuz şəkildə saxlanılan Dilqəm Əsgərov və Şahbaz Quliyevi azad etmək istəmir. Qarşılıqlı etimada zidd olan bu addım münaqişənin nizamlanması prosesinə necə təsir edir?**

- Doğrudur, Azərbaycan beynəlxalq humanitar hüququn normalarını rəhbər tutaraq əsir və girov götürülmüş mülki şəxslərin "hamının hamıya" prinsipi əsasında dəyişdirilməsi təklifi ilə çıxış edib. Ermənistan tərəfi isə mülki şəxslərin girov götürülməsini qadağan edən və hərbi münaqişələr zamanı mülki şəxslərə münasibətdə humanist davranış tələb edən 1949-cu il Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarının müddəalarına zidd olaraq, beynəlxalq səviyyədə götürdüyü bu öhdəliklərini kobud şəkildə pozmaqda davam edir. Artıq 5 ildir ki, soydaşlarımız Dilqəm Əsgərov və Şahbaz Quliyev Ermənistan tərəfindən girovluqda saxlanılır, həm də işğal olunmuş ərazilərimizdə qanunsuz rejimin qurama "məhkəmə qərarı" ilə. Ermənistan tərəfinin "cinayətkar" kimi qələmə verdiyi bu şəxslər Azərbaycanın hazırda hərbi işğal altında olan Kəlbəcər rayonunda valideynlərinin məzarlarını ziyarət etmək üçün öz torpaqlarına gediblər. Əgər öz doğma evlərinə getmək cinayətdirsə, o zaman bu insanları yaşadıqları torpaqlardan qovub onları fundamental hüquqlarından məhrum etmək nədir?!

Bilirsiniz, Ermənistan tərəfi artıq anlamalıdır ki, etnik təmizləməyə məruz qalmış yüz minlərlə azərbaycanlının fundamental hüquqları bərpa olunmadan və bu insanlar öz evlərinə geri qayıtmadan münaqişənin həlli istiqamətində irəliləyiş mümkün deyil. Avropa İnsan Hüquqları Məhkəməsi "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə Ermənistanın işğalçı tərəf kimi məsuliyyətini müəyyən etməklə bərabər azərbaycanlı məcburi köçkünlərin öz evlərinə və ya daimi yaşayış yerlərinə qayıtmaq hüququnu bir daha təsdiq edib. Qeyd etmək istərdim ki, Dilqəm Əsgərov və Şahbaz Quliyevin vəkilləri Avropa İnsan Hüquqları Məhkəməsinə şikayətlə müraciət ediblər və Azərbaycan hökuməti də bu işdə iştirak edir. Ümid edirik ki, məhkəmə tezliklə bu işlə bağlı öz mövqeyini açıqlayacaq.

**- Azərbaycanın cari il ərzində xarici siyasət sahəsində fəaliyyətini, 2019-cu ilin yekunlarını necə qiymətləndirirsiniz?**

- Bu il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkəmizin xarici siyasət kursu uğurla davam etdirilmişdir. Ölkəmizin həm ikitərəfli, həm də çoxtərəfli platformalarda fəal şəkildə iştirakı, xarici ölkə və təşkilatlarla əməkdaşlıq və tərəfdaşlıq münasibətlərinin genişləndirilməsi, Azərbaycan haqqında, xüsusilə də Ermənistan-Azərbaycan münaqişəsinə dair həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması, yüksəksəviyyəli beynəlxalq tədbirlərə evsahibliyi edilməsi, eləcə də mühüm beynəlxalq təşəbbüslərdə iştirakımız və töhfəmiz davam etdirilmişdir.

Təqdirəlayiq haldır ki, bu il ölkəmiz iki beynəlxalq təşkilatın zirvə görüşünə evsahibliyi etmişdir. Qoşulmama Hərəkatı və Türk Şurasına sədrlik qarşıdan gələn il ərzində ölkəmiz tərəfindən həyata keçiriləcəkdir. Ölkəmiz həmçinin növbəti il digər iki regional təşkilata - GUAM-a və TRACECA-ya sədrliyi həyata keçirəcəkdir. Bu, əlbəttə ki, həmin təşkilatların çoxsaylı üzv ölkələri tərəfindən Azərbaycana göstərilən etimadın bariz nümunəsidir. Bu il Azərbaycan beynəlxalq və regional təşkilatlarda təmsilçiliyinin coğrafiyasını daha da genişləndirərək dünyanın 135 dövlətini öz sıralarında birləşdirən Qrup 77-yə üzv olmuş, eləcə də Sakit okean Alyansı təşkilatında müşahidəçi statusu almışdır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi iştirak etdiyimiz bütün beynəlxalq platformalarda gündəlikdə saxlanılaraq, münaqişənin həlli ilə bağlı hüquqi bazanın daha da möhkəmləndirilməsinə xidmət edən bəyanat, tövsiyə qətnamə və sənədlər qəbul olunmuşdur.

Cari il ərzində Tanzaniya Birləşmiş Respublikası, Barbados və Namibiya Respublikası ilə diplomatik münasibətlərin qurulmasına dair birgə kommünikelər imzalanmış və beləliklə də Azərbaycan Respublikasının diplomatik münasibətlər qurduğu ölkələrin sayı 185-ə yüksəlmişdir. Cari il ərzində ölkəmizdə Monteneqronun və Slovakiya Respublikasının səfirlikləri fəaliyyətə başlamışdır.

İlin yekunlarına dair yerli jurnalistlərə verdiyi müsahibəsində Prezident İlham Əliyev tərəfindən qeyd olunduğu kimi, il ərzində həm ölkəmizdə keçirilən beynəlxalq tədbirlərdə iştirak etmək üçün, həm də ikitərəfli formatda 40-dan çox dövlət və hökumət başçısı Azərbaycana səfər edib. Həmçinin eyni çərçivədə 61 ölkənin Xarici İşlər naziri ölkəmizə səfər edib, eləcə də Azərbaycan Xarici İşlər naziri olaraq mənim 27 ölkəyə rəsmi və işgüzar səfərlərim baş tutub. Həyata keçirilən hər bir səfərin ikitərəfli və çoxtərəfli əməkdaşlıq münasibətlərimizin inkişafına verilən töhfə olduğunu diqqətə alsaq, o zaman 2019-cu ilin ölkəmizin əməkdaşlıq çərçivəsini genişləndirməsi baxımından nə dərəcədə mühüm bir il olduğu nəticəsinə gəlmək olar.

**- Azərbaycanla Avropa İttifaqı bu il ərzində ikitərəfli münasibətlərin hüquqi bazasını təşkil edəcək strateji tərəfdaşlıq haqqında sazişi imzalaya bilmədilər. Danışıqlardakı vəziyyəti necə qiymətləndirmək olar? Avropa Komissiyasının tərkibinin yeniləndiyini nəzərə alaraq, bu faktın danışıqların uzadılmasına təsir edəcəyini söyləmək olarmı?**

- Azərbaycanla Avropa İttifaqı (Aİ) bərabərhüquqlu, qarşılıqlı hörmət və etimada əsaslanan tərəfdaşlıq münasibətlərini bölüşürlər. Aİ rəsmilərinin çoxsaylı bəyanatlarında, eləcə də Avropa Parlamentinin qəbul etdiyi qətnamələrdə Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə birmənalı dəstək ifadə olunur və Azərbaycan ittifaqın etibarlı və mühüm tərəfdaşı kimi qiymətləndirilir.

Məlum olduğu kimi, Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş 1999-cu ildə qüvvəyə minmiş və son 20 il ərzində Azərbaycanda bir çox dəyişikliklər baş vermiş, Azərbaycan regionda və dünyada vacib geosiyasi oyunçulardan birinə çevrilmiş, ölkəmiz bir sıra dünya və regional səviyyəli əhəmiyyətli nəqliyyat, enerji, mədəni və siyasi layihələrin təşəbbüskarı və icraçısı olmuşdur. Vətəndaşların sosial rifahının yüksəldilməsi, ədliyyə, sosial və dövlət idarəçiliyi sahəsində uğurlu islahatlar aparılır. Azərbaycan hazırda bölgədə iqtisadi layihələrin həyata keçirilməsi üçün ən iri investorlardan birinə çevrilmiş və Şərq Tərəfdaşlığı ölkələri arasında Aİ-yə ən çox sərmayə qoymuş ölkəyə çevrilmişdir. Ölkəmiz Avropanın iqtisadi böhran içində boğulduğu zaman "Cənub qaz dəhlizi" layihəsi vasitəsilə yalnız Yunanıstanda beş min yeni iş yerinin yaranmasına dəstək vermiş, 15 milyard avro məbləğində Avropaya sərmayə qoymuşdur. 2020-ci ilin ilk yarısında Avropanın enerji təhlükəsizliyində vacib rol oynayan TAP layihəsi vasitəsilə Avropaya ilk Azərbaycan qazının nəql edilməsi nəzərdə tutulmuşdur. Ölkəmiz 1990-cı illərdə Aİ-nin yatırımına ehtiyac olan diyardan hazırda Avropanın inkişafına real dəstək verən dövlətə çevrilmişdir. Bir sözlə, Azərbaycan Aİ ilə münasibətlərdə keyfiyyətcə yeni vəziyyət yaranmışdır.

Məhz bu səbəblərə görə Azərbaycan Aİ ilə münasibətlərin inkişaf etdirilməsi və genişləndirilməsi üçün xüsusi, bərabərlik və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan yol seçmiş, "Strateji tərəfdaşlıq Sazişi" layihəsi üzrə danışıqların aparılmasını təklif etmiş və Brüssel bu təklifi qəbul etmişdir. Beləliklə, siyasi və iqtisadi münasibətlərin tərəflər arasında əməkdaşlıq çərçivəsinin genişlənməsi, enerji sahəsində strateji səviyyədə tərəfdaşlığın həyata keçirilməsi, həmçinin artıq Aİ-nin 9 üzv dövləti ilə strateji mahiyyətli sənədlərin imzalanması yeni və hərtərəfli sazişin işlənib hazırlanması ehtiyacını labüd etdi. 2017-ci ilin fevral ayından Azərbaycan tərəfi təqdim etdiyi layihəyə əsasən Aİ ilə yeni sənəd üzrə danışıqlara başlandı.

Üç ildən az müddət ərzində böyük həcmli layihə üzrə çoxsaylı danışıqlar raundu keçirilmiş, sənədin əksər hissəsi razılaşdırılmışdır. Tərəflər danışıqların yekunlaşması və sənədin paraflanması və imzalanması ilə bağlı heç vaxt hər hansı tarix məhdudiyyətlərini nəzərdə tutmamışlar. Bizim üçün danışıqlarda kəmiyyət və vaxt məhdudiyyətləri deyil, keyfiyyət önəmlidir. Şablon yanaşmadan uzaq, reallıqlara söykənən və hər iki tərəfi qane edən yanaşma müsbət nəticənin əldə olunmasında mühüm amillərdən biridir. Azərbaycan tərəfi Avropa Komissiyasının yeni rəhbər heyəti ilə bu istiqamətdə işləməyə davam edəcəkdir. Azərbaycan keyfiyyətli sazişin tərəfdarıdır və onun ölkəmizin milli mənafelərinə uyğun olması mütləqdir.

**- 2019-cu il Azərbaycan-Rusiya əlaqələri baxımından olduqca məhsuldar, səmərəli il olub. Növbəti il iki ölkə əlaqələrində nə ilə yadda qalacaq? Burada Azərbaycan Prezidenti İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiyaya, həmçinin Rusiyadan olan rəsmi şəxslərin Azərbaycana müntəzəm səfərləri qeyd olunmalıdır. Bununla yanaşı, XİN-lərin rəhbərləri səviyyəsində illik əsasda qarşılıqlı səfərlər təcrübəsi mövcuddur və bu çərçivədə sizin rusiyalı həmkarınız bir qədər öncə Bakıya səfər edib. Bu baxımdan sizin 2020-ci ildə Moskvaya səfəriniz gözlənilirmi? Ümumiyyətlə, sizin fikrinizcə, növbəti il iki ölkə əlaqələrində nə ilə yadda qalacaq?**

- Öncə, Azərbaycan ilə Rusiya arasında münasibətlərin inkişafı baxımından başa çatmaqda olan ilin yekunlarına verdiyiniz yüksək qiymətlə razılaşmaq istərdim. Məmnuniyyətlə qeyd etməliyəm ki, bu münasibətlər ildən-ilə sabitlik və dinamizm nümayiş etdirir. Bu il başa çatmaq üzrədir və bu müsbət dinamika da inkişaf etmişdir. Sözsüz ki, sualınızda bəhs etdiyiniz yüksək siyasi rəhbərlik səviyyəsindəki sıx əlaqələr və etibarlı dialoq həlledici rol oynamaqda davam edir. Bu, siyasi münasibətlərdən tutmuş ticarət, iqtisadi və humanitar əməkdaşlığa qədər münasibətlərimizin bütün spektrini əhatə edən strateji tərəfdaşlığın gələcək inkişafı üçün əlverişli zəmin yaradır.

Məlum olduğu kimi, əlaqələrimizin inkişafı məqsədyönlü və proqram xarakteri daşıyır. Konkret istiqamətlər üzrə "yol xəritələri"ndə nəzərdə tutulan və həyata keçirilən tədbirlərdən altısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına ötənilki rəsmi səfəri zamanı, ikisi isə bu ilin dekabrında Bakıda keçirilmiş İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın on səkkizinci iclasında baş tutmuşdur. İlkin hesablamalara görə, 2019-cu ildə ölkələrimiz arasında ticarət dövriyyəsi təxminən 3 milyard ABŞ dolları səviyyəsinə çatacaq.

2019-cu ildə müsbət bir tendensiya bir milyon insan sayına yaxınlaşmaqla Rusiyadan turist axınının davam etməsi olub. Bu, çox mühüm bir göstəricidir və insanlar arasındakı təmasların intensivliyinin əyani təsdiqi kimi bizi sevindirir. Əlbəttə, bu, onu göstərir ki, rusiyalılar Azərbaycanda özlərini rahat hiss edirlər, burada səmimi qəbul ilə üzləşirlər və dil baryerinin olmamasının üstünlüklərindən istifadə edirlər.

Bütün bu müsbət tendensiyaların gələn il də davam edəcəyini gözləyirik. Ümid edirəm ki, çox faydalı hesab etdiyim xarici işlər nazirliklərinin rəhbərləri səviyyəsində qarşılıqlı səfər mübadiləsi təcrübəsinin davam etdirilməsi də bu prosesə öz töhfəsini verə biləcəkdir.

Əlbəttə, Rusiya Federasiyasının da həmsədr qismində çıxış etdiyi ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesinin intensivləşməsinə xüsusi ümid bəsləyirik. Hesab edirik ki, bölgədəki sülh və sabitlik maraqları tez bir zamanda hiss oluna biləcək siyasi nəticələrə nail olmaq zərurətini diktə edir. İnanırıq ki, Rusiya münaqişə düyününün açılmasının başlanılmasında əsas rollardan birini oynamağa qadirdir.

Beləliklə, ümumiyyətlə, gələcəyə nikbinliklə baxırıq və öz tərəfimizdən inkişafımızın strateji hədəflərinin reallaşması istiqamətində fəaliyyət göstərməkdə qərarlıyıq.

**- Ekspertlər arasında belə bir fikir var ki, postsovet ölkələri Avropa İttifaqı və Avrasiya İqtisadi İttifaqı arasında seçim etməyə məcburdurlar. Bəs Azərbaycan barədə də eyni sözləri demək olarmı?**

- Azərbaycan seçim baxımından "ya-ya da" prinsipi əsasında düşünmür. Bütün xarici siyasət qərarlarımız, ilk növbədə, ölkəmizin inkişafı maraqlarına söykənir. Kənardan bu və ya digər seçimi tətbiq etmək cəhdləri uğursuzluğa düçar olur və bunu, son onilliyin təcrübəsi də daxil olmaqla, bütün müasir tarix nümayiş etdirir. Bu reallıqları bu cür cəhdləri edən xarici qüvvələr də artıq birmənalı şəkildə dərk edir.

Həm qonşu dövlətlərlə, həm də əsas qlobal tərəfdaşlarla qarşılıqlı faydalı bərabərhüquqlu əməkdaşlığın inkişafı kursunu davam etdirərək Azərbaycan artıq mühüm nəticələr əldə etmişdir. Əminik ki, bu qarşılıqlı əlaqənin genişləndirilməsi və dərinləşdirilməsi xəttini düzgün qurmaqla daha da böyük uğurlara imza atacağıq.

Ancaq, ümumilikdə, ATƏT Nazirlər Şurasının bu yaxınlarda Bratislavada keçirilən iclasında yenidən səsləndirilən - fərqli vektorlarda çoxşaxəli əməkdaşlığın inkişafına mane olmayan ümumi təhlükəsizlik məkanının birliyi və bölünməzliyindən irəli gələn mövqedən çıxış edirik.

**- Bu il diqqət mərkəzində olan əsas məsələlərdən biri də Azərbaycanla Gürcüstan arasında sərhədlərin delimitasiyası məsələsi olub. Bu xüsusda fikirlərinizi öyrənmək istərdik. Sərhədin delimitasiyası məsələsində tərəflər arasında mövcud olan fikir ayrılığını qarşıdan gələn il ərzində aradan qaldırmaq mümkün görünürmü?**

- Azərbaycanla Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası beynəlxalq təcrübədə tətbiq edilən qaydalara uyğun olaraq aparılır. Bildiyiniz kimi, 1996-cı ildən iki ölkə arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə Dövlət Komissiyası fəaliyyət göstərir. Komissiyanın sonuncu iclası bu il Bakıda keçirilib. İki ölkə arasındakı 480 kilometrlik sərhədin 314 kilometri razılaşdırılıb, razılaşdırılmamış 166 kilometrlik xətt üzrə danışıqlar davam etdirilir. Cari il ərzində ekspertlərin iki görüşü keçirilib, növbəti görüşün isə gələn ilin əvvəli Tbilisidə keçirilməsi gözlənilir.

Fikir ayrılığı dediyiniz əslində razılaşdırılmamış sahələrin mövcud olmasıdır və bunun üçün də mütəxəssislər tərəfindən müvafiq araşdırma, o cümlədən arxiv və kartoqrafik materialların öyrənilməsi kimi tədbirlər həyata keçirilməlidir. Önəmlisi ondan ibarətdir ki, həm Azərbaycan, həm də Gürcüstan delimitasiya prosesinin tezliklə yekunlaşdırılmasının tərəfdarıdır. Ümidvaram ki, iki ölkə arasında dövlət sərhədinin delimitasiyası beynəlxalq təcrübəyə əsaslanaraq hüquqi müstəvidə və strateji tərəfdaşlıq münasibətlərimizə uyğun şəkildə həll olunacaq.

**- Son iki il ərzində Xəzər dənizi bölgəsinin ölkələri arasında fəal qarşılıqlı fəaliyyət müşahidə olunub və bölgə ölkələri arasında əməkdaşlığa maneə törədən amillər aradan qaldırılıb. Xəzər dənizi bölgəsində gələcəkdə daha səmərəli fəaliyyətin perspektivlərini necə qiymətləndirirsiniz?**

- Ötən il Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanması regionumuz və ölkəmiz üçün mühüm addım olmuşdur. Bu sənəd Xəzəryanı ölkələr arasında münasibətlərin daha da inkişaf etdirilməsinə, eyni zamanda, Xəzər dənizi bölgəsində sabitlik, tərəqqi və qarşılıqlı etimad mühitinin inkişaf etməsinə xidmət edir. Xəzər dənizi regionundakı əməkdaşlıq tərəflərin qarşılıqlı maraqları, bir-birinin ərazi bütövlüyü və suverenliyinə hörmət əsasında aparılır. Konvensiya dənizdə həyata keçirilən təsərrüfat-iqtisadi fəaliyyətin davamlılığını və təhlükəsizliyini təmin etməklə, bu cür fəaliyyətin gələcəkdə daha da genişləndirilməsinə münbit zəmin yaradır. Hazırda Konvensiyanın bütün iştirakçılar tərəfindən ratifikasiya olunması qarşımızda duran əsas məsələlərdən biridir. Növbəti mərhələdə Konvensiyanın qüvvəyə minməsi və ondan irəli gələn məsələlərin öz həllini tapması vacibdir. Xatırladım ki, Konvensiyanın səmərəli həyata keçirilməsi məqsədilə Xəzər dənizi məsələləri üzrə yüksək səviyyəli işçi qrup fəaliyyət göstərir.

Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi regionumuz və dünya üçün böyük əhəmiyyət kəsb edən "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin reallaşdırılmasına böyük töhfə olacaqdır. Belə ki, artıq regionda fəaliyyət göstərən subyektlər üçün Xəzər dənizinin hüquqi statusu ilə qeyri-müəyyənlik dövrü bitmişdir. Konvensiyada dənizin tranzit potensialının həyata keçirilməsinin vacibliyi nəzərə alınmış, Xəzəryanı dövlətlər üçün ticarət gəmiçiliyinin azadlığı və təhlükəsizliyinin təmin olunması prinsipi təsbit olunmuşdur. Azərbaycan hər bir Xəzəryanı ölkə ilə siyasi və iqtisadi sahədə sıx əməkdaşlıq edir. Bu, Xəzərdə qarşılıqlı təhlükəsizliyin və etimadın təmin edilməsi üçün mühüm amildir.

**- Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə münasibətlərinə aydınlıq gətirməyinizi istərdik. Azərbaycan nə zaman təşkilatın dialoq üzrə tərəfdaşı statusunu alacaq?**

- Məlum olduğu kimi, Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) Asiya regionunda önəmli regional təşkilatlardan biri hesab edilir və onun əsas məqsədlərindən biri regionda sülh, təhlükəsizlik və sabitliyin əldə edilməsi üçün birgə səylərin göstərilməsidir. Ölkəmizin ŞƏT ilə münasibətlərinə gəldikdə isə qeyd edilməlidir ki, artıq 9-10 iyul 2015-ci il tarixində ŞƏT-in Ufada keçirilən Zirvə görüşündə Azərbaycana ŞƏT-də dialoq tərəfdaşı statusunun verilməsinə dair qərar qəbul edilmişdir. Ölkəmiz ilə ŞƏT arasında mövcud əməkdaşlıq sahələri isə 2016-cı ildə tərəflər arasında imzalanmış memorandumda öz əksini tapmışdır. Belə ki, Azərbaycan Respublikası ilə ŞƏT arasında əməkdaşlıq istiqamətləri sırasında təşkilatın ənənəvi prioritet sahələri olan və Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən terrorizm, ekstremizm və separatizm ilə mübarizə və regional təhlükəsizliyin və sabitliyin təminatı məsələləri yer alır. Həmçinin ölkəmizin beynəlxalq müstəvidə mühüm rol oynadığı sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlığın təbliğ edilməsi sahələri də diqqət mərkəzində olan məsələlərdəndir. Bununla yanaşı, Azərbaycanın transregional multimodal nəqliyyat qovşağı kimi təşviqi çərçivəsində ŞƏT daxilində mühüm yer tutan iqtisadiyyat, nəqliyyat və telekommunikasiya, ticarət və investisiya sahələrində əməkdaşlıq həmin təşkilatla qarşılıqlı fəaliyyət istiqaməti kimi müəyyən olunmuşdur.

ŞƏT çərçivəsində növbəti əməkdaşlıq pilləsi isə müşahidəçi statusudur və artıq ölkəmiz 2018-ci ildə bu statusun əldə edilməsi məqsədilə rəsmi şəkildə təşkilata müraciət etmişdir. Hazırda bu məsələyə ŞƏT daxilində baxılır və hesab edirik ki, ŞƏT ilə Azərbaycan Respublikası arasında mövcud fəal əməkdaşlıq sözügedən müşahidəçi statusunun verilməsindən sonra daha da inkişaf edəcəkdir.

**- Azərbaycan BMT TŞ-nin qeyri-daimi üzvlüyü dövründə quruma sədrliyi zamanı təşkilatın tarixində ilk dəfə olaraq BMT və İƏT arasında tərəfdaşlığın möhkəmləndirilməsi mövzusunda yüksək səviyyəli iclasın keçirilməsi təşəbbüsü ilə çıxış etdi. Bu dövrdə, həmçinin BMT TŞ üzvlərinin Afrikaya səfəri təşkil olundu. Qoşulmama Hərəkatına sədrliyi dövründə Azərbaycan müxtəlif bölgələrdə yerləşən, müxtəlif təşkilatların üzvləri olan ölkələr arasında təmasların qurulması səylərini göstərəcəkmi?**

- Əvvəlcə, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi üzərinə götürməsinin vacibliyini bir daha vurğulamaq istərdik. 25-26 oktyabr 2019-cu il tarixdə 159 nümayəndə heyətinin iştirakı ilə Bakıda keçirilən üzvlərinin sayına görə BMT-dən sonra ikinci qlobal siyasi platformanın XVIII Zirvə Görüşü, habelə onun nəticələrinə dair Azərbaycan Respublikasının suverenliyinə və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə dəstəyin ifadə edilməsi daxil olmaqla qəbul edilmiş sənədlər ölkəmizin dünya miqyasında nüfuzunun daha da artmasını əyani şəkildə nümayiş etdirdi. Bu baxımdan 2011-ci ildə Hərəkata qoşulan Azərbaycanın səkkiz il sonra hazırkı dinamik şəraitdə aktual olan bir sədrlik gündəliyi təklif etməsi ilə sədr seçilməsi faktı özü özündən bəhs edir. Belə ki, biz fundamental Bandunq Prinsiplərinin inkişaf etdirilməsi ruhuna uyğun, Hərəkatın beynəlxalq sülh və təhlükəsizliyin qorunması sahəsindəki fəaliyyətinə yeni bir təkan vermək və əməkdaşlığın inkişafı üçün əlverişli şərait yaratmaq niyyətindəyik.

Ümumiyyətlə, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi Hərəkatın beynəlxalq münasibətlər sistemində mövqeyini və nüfuzunu gücləndirmək məqsədi daşıyacaq. Qoşulmama Hərəkatının gücləndirilmiş mövqeyi onun üçün yeni əməkdaşlıq imkanları açacaq və beynəlxalq məsələlərə töhfə imkanlarını genişləndirəcək. Bu yöndə prioritet istiqamətlərdən biri digər regional və beynəlxalq təşkilatlarla dialoq mexanizmlərinin təsis edilməsi olacaq. Xüsusilə Afrika, Latın Amerikası və Asiyada yerləşən ölkələrlə və təşkilatlarla əməkdaşlıq çərçivələrinin genişləndirilməsi sahəsində səylər göstəriləcək.

**- Növbəti il üzrə Azərbaycanın xarici siyasət prioritetləri nədən ibarətdir? 2020-ci il ərzində diplomatik fəaliyyətimizin hansı istiqamətlərdə davam etdiriləcəyini və hansı sahələrə daha çox diqqət ayrılacağını qeyd etmək olar?**

- Azərbaycanın xarici siyasəti ölkəmizin milli maraqlarına uyğun olaraq dövlət başçısının birbaşa rəhbərliyi altında həyata keçirilir və xarici siyasət prioritetlərimiz dəyişilməz olaraq qalır. Buraya ölkəmizin beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyinin bərpa edilməsi, xarici dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin davam etdirilməsi və daha da genişləndirilməsi, beynəlxalq münasibətlərdə fəal şəkildə iştirak etmək, beynəlxalq sülh və təhlükəsizliyə, inkişafa, tərəqqiyə töhfə verən təşəbbüslərdə iştirak etmək, Azərbaycanın beynəlxalq müstəvidə layiqincə təşviq edilməsi və digər məsələlər daxildir.

Hər bir prioritet istiqamətə uyğun olaraq il ərzində həyata keçiriləcək konkret tədbirlərə gəldikdə isə, burada ənənəvi şəkildə atılan addımlara əlavə olaraq, ölkəmizin dörd beynəlxalq/regional təşkilat çərçivəsində (Qoşulmama Hərəkatı, TRACECA, Türk Şurası, GUAM) gələn il ərzində sədrliyi vəzifələrindən irəli gələn məsələlərin həyata keçirilməsinə də diqqət ayrılacaq. Azərbaycanın maraqlarının diplomatik nümayəndəliklərimizin birbaşa iştirakı ilə ikitərəfli və çoxtərəfli müstəvilərdə fəal şəkildə təşviq olunmasına davam ediləcək.

# Dünya azərbaycanlılarının Prezidenti

*Əvvəli 1-ci səh.*

İndiyədək Bakıda dünya azərbaycanlılarının 4 qurultayının keçirilməsi, xaricdə yaşayan həmvətənlilərimizlə iş üzrə ayrıca dövlət qurumunun təsis edilməsi soydaşlarımızın tarixi vətənlə əlaqələrinin güclənməsinə əlverişli zəmin yaratmaqla yanaşı, milli həmrəyliyə və yekdilliyə nail olmaq amalının Azərbaycanın dövlət siyasətinin üzvi tərkib hissəsinə çevrildiyini nümayiş etdirib. Bütün bu tədbirlər həm sayına, həm də milli-mənəvi, intellektual potensialına görə dünyanın böyük millətləri ilə bir sırada dayanan xalqımızın azərbaycançılıq ideyası ətrafında sıx birləşməsinə, tarix səhnəsində mühüm rol oynayan mütəşəkkil qüvvə kimi formalaşmasına güclü təkan verib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə son 16 ildə Azərbaycanın inkişaf yolunda qazandığı ardıcıl uğurlar bütün dünya azərbaycanlılarını qəlbən sevindirir. Azərbaycanın Cənubi Qafqazda əsas söz və nüfuz sahibi kimi çıxış etməsi dünyanın müxtəlif ölkələrinə səpələnmiş həmvətənlilərimizi daha da ruhlandırır, onların müstəqil dövlətimizin xoşbəxt gələcəyinə inamının, özünüdərk hissinin güclənməsinə, ümummilli maraqlar ətrafında sıx birləşməsinə yaxşı zəmin yaradır. Bu mənada Azərbaycan dövlətinin güclənməsi soydaşlarımızın xaricdəki diaspor təşkilatlarının fəaliyyətinə də müsbət təsir edir. Odur ki, dünyanın müxtəlif guşələrində yaşayan soydaşlarımız Azərbaycanın müstəqil siyasət yeritməsindən, dünya birliyində mövqelərini daha da möhkəmləndirməsindən, eyni zamanda, həyata keçirilən diaspor siyasətindən məmnunluq duyurlar.

## Bu il bütün vəzifələr yerinə yetirilib

İndi beynəlxalq ictimaiyyətdə Azərbaycan deyəndə göz önünə inkişaf və yüksəliş gəlir. Ona görə bütün dövlətlər, siyasi və iqtisadi təşkilatlar, o cümlədən dünyada sülhü və bəşəri ideyaları tərənnüm edən, inkişafa dəstək verən beynəlxalq qurumlar ölkəmizlə əməkdaşlığa maraq göstərir. Son illərdə Azərbaycanın beynəlxalq tədbirlər mərkəzinə çevrilməsinin də əsas səbəblərindən biri ilk növbədə ölkəmizin yüksəlişidir. Bunun nəticəsidir ki, beynəlxalq səviyyədə respublikamızın mövqeləri əhəmiyyətli dərəcədə güclənib. Azərbaycan dünya birliyinin hörmət olunan, seçilən üzvünə çevrilib.

Başa çatmaqda olan 2019-cu il Azərbaycan üçün mühüm uğur göstəriciləri ilə əlamətdardır. Bir neçə gün əvvəl ilin yekunları ilə bağlı geniş müsahibə verən Prezident İlham Əliyev deyib: **"2019-cu il sona yaxınlaşır və əlbəttə ki, il ərzində görülmüş işlər, ölkəmizdə və regionda baş vermiş hadisələr çox ciddi təhlil tələb edir. Bir şeyi tam dəqiqliklə deyə bilərəm ki, ölkəmiz üçün bu il uğurlu olmuşdur.**

**İlin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr həyatda öz əksini tapıb. Azərbaycan 2019-cu ildə uğurla inkişaf edib. Bu inkişaf imkan verir ki, biz gələcək illərdə də öz addımlarımızı düzgün ataq və 2020-ci il də ölkəmiz üçün uğurlu olsun".**

2019-cu il Azərbaycanın qlobal maliyyə böhranlarından sonra iqtisadi sferada artıma nail olduğu növbəti uğurlu mərhələdir. Belə ki, bu il iqtisadi artım 2 faizdən çoxdur. Qeyri-neft iqtisadiyyatı təqribən 3,5 faiz artıb. Qeyri-neft sənayesi sahəsində isə 14 faizlik artım qeydə alınıb. Bu, onu göstərir ki, qeyri-neft sənayesinin inkişafı ilə bağlı ciddi uğurlar var. Kənd təsərrüfatına gəldikdə, burada 7 faizdən çox artım var. Bütün bunlar iqtisadi sahədə əldə olunan nailiyyətlərin bir qismidir.

Əlbəttə ki, 2019-cu ilin Azərbaycan üçün ən mühüm diqqət çəkən məsələsi sosial sahədə əhalinin rifahının daha da yaxşılaşdırılması istiqamətində atılan addımlardır. Belə ki, bu il həyata keçirilən kompleks islahatlar ilk növbədə əhalinin sosial rifahının daha da yaxşılaşdırılmasına mühüm töhfələr verdi. Maaşlar, pensiyalar, sosial müavinətlər, tələbələrin təqaüdləri artırıldı. Konkret ifadə etsək, müavinətlər orta hesabla 50 faiz, minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faizdən çox artdı. Hazırda minimum pensiyanın alıcılıq qabiliyyətinə görə bu gün Azərbaycan MDB-də birinci yerdədir. Eyni zamanda, problemli kreditlər məsələsi yoluna qoyulmaqla sosial sahədə olan məsələlər kompleks şəkildə öz həllini tapdı.

## Sabitliyi və vətəndaş həmrəyliyini təmin edən siyasət

Təbii ki, dövlətin hər nailiyyətinin təməlində dayanan əsas prinsiplərdən biri ictimai-siyasi sabitlikdir. Çünki məhz ictimai-siyasi sabitliyin təmin olunması qarşıda dayanan digər vəzifələrin yerinə yetirilməsində əsas amil sayılır. Bu gün dünyanın əksər regionlarında sosial, iqtisadi və siyasi problemlər qabarıq şəkildə özünü büruzə verir. Xüsusilə qeyd edək ki, artıq neçə onilliklərdir ki, planetin müxtəlif yerlərində müxtəlif səbəbləri olan hərbi münaqişələr, müharibələr hökm sürür. Bunlardan başa çatanı olsa da, başqa bir yerdə yeni münaqişə ocağı yaranır. Nəticə etibarilə bütün bunlar xalqların taleyində dərin iz buraxır, onlara ağır mənəvi zərbə vurur, məhrumiyyətlərə düçar edir. Hərbi münaqişə həm də iqtisadi tənəzzül deməkdir. Dağılan iqtisadiyyatın bərpası üçün uzun illər belə yetmir. Bu gün Yaxın Şərqdə və digər ölkələrdə qarşıdurmalar hələ də davam edir. İraqda, Suriyada, Əfqanıstanda terrorun kökünü tamamilə kəsmək hələ də mümkün olmayıb. Bu ölkələr hər gün dini və etnik zəmində təhdidlərin ağrı-acısını yaşayırlar. Onların xalqları, günahsız insanlar çox ağır məhrumiyyətlərlə üz-üzə qalaraq humanitar fəlakətə düçar olublar. Bütün bunlar göstərir ki, sabitliyin və təhlükəsizliyin təmin olunması həqiqətən vacib məsələdir.

Bu mənada 2019-cu il də Azərbaycan üçün ictimai-siyasi sabitlik baxımından uğurlu dövr kimi tarixə düşdü. Belə ki, cari ildə ötən illərdən bərqərar edilmiş sabitlik təmin olundu və daha da möhkəmləndirildi. Lakin bizi bu günlərə gətirən yollar heç də həmişə hamar olmayıb. Ən azından müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan qüvvələrin başıpozuq fəaliyyətləri nəticəsində Azərbaycanda təhlükəsizliyə təhdidlərin baş alıb getməsi çoxunun yaddaşında dərin iz buraxıb. Yalnız Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkədə sabitlik bərqərar edildi, ictimai-siyasi vəziyyətə təhlükə doğuran zərərli meyillərə, qanunsuz silahlı birləşmələrə qarşı uğurlu və təxirəsalınmaz tədbirlər həyata keçirildi. Məhz o illərdə hakimiyyətdə olan iqtidarların yarıtmaz fəaliyyəti göstərdi ki, sabitlik və xalq-iqtidar birliyi olmayan yerdə dövlət yalnız uçuruma gedər.

Prezident İlham Əliyevin ötən 16 ildəki fəaliyyətinin ən qabarıq tərəflərindən biri də məhz ictimai-siyasi sabitliyin qorunub saxlanılması, daha da möhkəmləndirilməsi, cəmiyyət həyatının təhlükəsizliyinin təmin olunmasıdır. Bu il ərzində də cərəyan edən beynəlxalq ziddiyyətli proseslər şəraitində Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində ölkəmizin sabitliyi və inkişafı təmin olundu. İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə bağlı təbrikində bu barədə deyilir: **"Uğurlu siyasətin nəticəsidir ki, ölkədə möhkəm ictimai-siyasi sabitlik və milli-mənəvi həmrəylik təmin edilmiş, insanlarımızın maddi rifahı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Dünyanın ayrı-ayrı bölgələrində mürəkkəb etno-siyasi proseslərin, din və məzhəb qarşıdurmalarının, humanitar fəlakətlərin baş verdiyi bir vaxtda Azərbaycan sabitliyin, etnik-dini tolerantlığın və multikultural ənənələrin qorunub saxlanıldığı unikal məkandır".**

Onu da qeyd edək ki, vətəndaş həmrəyliyi və hakimiyyətin yürütdüyü siyasətin geniş əhali tərəfindən dəstəklənməsi əsasında bərqərar olmuş möhkəm ictimai-siyasi sabitlik baxımından Azərbaycan nəinki regionda, dünyada aparıcı dövlətlər sırasında yer alıb. Ölkə Prezidentinin yürütdüyü siyasət sabitliyə və vətəndaş həmrəyliyinin əbədi olmasına layiqli töhfələr verir. Bu baxımdan 2019-cu ilin xalqımız üçün ən mühüm uğurlarından biri odur ki, Azərbaycan bu dövrdə də yerləşdiyi bölgənin siyasi-ictimai baxımdan ən sabit və inkişaf edən ölkəsidir. Möhkəm təməllər üzərində bərqərar olan sabitlik gələn il də respublikamızın yüksəlişinə böyük töhfələr verəcək.

Təbii ki, qazandığımız bütün uğurlar xaricdəki soydaşlarımızı da sevindirir, həm də onlara yaşadıqları ölkələrdə olan ehtiramı daha da yüksəldir. Əlbəttə, dövlətimizin bugünkü uğurlarında onların da xidmətləri təqdirəlayiqdir. **"Azərbaycan Respublikası hazırda özünün parlaq və davamlı inkişaf dövrünü yaşayır. Dünyanın müxtəlif guşələrində məskunlaşan, lakin qəlbi daim Azərbaycan eşqi ilə döyünən soydaşlarımız da bu tarixi prosesdən kənarda deyil və onların xalqımızın tərəqqisində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində təqdirəlayiq xidmətləri yüksək qiymətləndirilməlidir"** deyə cənab Prezidentin təbrikində deyilir.

Ulu Öndər Heydər Əliyevin əbədiyaşar ideyalarına əsaslanan müstəqil dövlətimiz bu gün dünya azərbaycanlılarının birliyini qorumaq üçün üzərinə düşən tarixi missiyanı böyük məsuliyyətlə və layiqincə həyata keçirir. Çünki ölkəmizin inkişafı və beynəlxalq nüfuzu həm də bu sahədə daha güclü və uğurlu siyasətin həyata keçirilməsini təmin edir. Sözsüz ki, hər bir sahədə əldə olunan nailiyyətlər növbəti ildə də yüksək templə davam etdiriləcək və Prezidentin təbrikində deyildiyi kimi, harada yaşamalarından asılı olmayaraq soydaşlarımız Azərbaycanın bugünü və aydın sabahı naminə əməl və əqidə birliyi, sarsılmaz həmrəylik nümayiş etdirəcəklər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Cəbhəboyu zonada növbəti yeni hərbi hissənin açılışı olub





Cəbhəboyu zonada səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti yeni inşa edilmiş növbəti hərbi hissənin açılışında iştirak edib.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirliyin rəhbər heyəti yeni istifadəyə verilən hərbi hissədə olaraq əsgər yeməkxanasına, əsgər yataqxanasına, silah və ideoloji otaqlara, ərzaq, meyvə-tərəvəz anbarlarına baxış keçirib.

Bildirilib ki, yeni tikilən hərbi hissədə inzibati, xidməti və iş otaqları mərkəzləşdirilmiş istilik sistemi, işıq, su, qaz və kommunikasiya xətləri, soyuducular, lazımi mebel avadanlıqları ilə tam təmin olunub. Ətrafda abadlıq işləri aparılıb, müxtəlif növ ağaclar əkilib.

Burada yaradılan şəraitlə tanışlıqdan sonra Müdafiə naziri hərbi qulluqçuların xidməti və sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görüləcək işlərlə bağlı müvafiq tapşırıqlar verib.

# Müdafiə naziri "Açıq qapı günü" tədbirində iştirak edib





Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə dekabrın 30-da hərbi hissələrdə əsgər valideynləri və yaxınlarının, ictimaiyyət nümayəndələri və mədəniyyət işçilərinin iştirakı ilə "Açıq qapı günü" keçirilib.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir general-polkovnik Zakir Həsənovun başçılığı ilə nazirliyin rəhbər heyəti döyüş zonasında yerləşən hərbi hissələrdən birində keçirilən "Açıq qapı günü" tədbirində iştirak edib.

Müdafiə Nazirliyinin rəhbərliyi ilə keçirilən görüşdə valideynləri maraqlandıran məsələlər müzakirə olunub və onların sualları cavablandırılıb. Əsgər valideynlərini dinlədikdən sonra nazir bir sıra məsələlərin həlli ilə bağlı müvafiq tapşırıqlar verib.

Nazir və digər rəhbər şəxslər əsgər yaxınları, valideynləri ilə birlikdə bayram şənliyində iştirak edib, şəxsi heyətə bayram hədiyyələri təqdim olunub.

"Açıq qapı günü"ndə hərbi hissəyə gələn vətəndaşlar hərbi hissələrdə yaradılan şəraitlə yaxından tanış olub, xidməti və inzibati binalara, əsgər yataqxanaları və yeməkxanaya baş çəkiblər.

Şəxsi heyət üçün təşkil olunan bayram konsertindən sonra Müdafiə naziri hərbi qulluqçular və ziyarətçilərlə birlikdə bayram süfrəsi arxasında nahar edib.

# Azərbaycan regionun mühüm nəqliyyat qovşağına çevrilir

Bu gün Azərbaycan dünyanın mühüm nəqliyyat arteriyasının keçdiyi ölkədir. Belə əlverişli bir mövqeyə çıxmağımızın əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Liderin təşəbbüsü ilə tarixi İpək yolunun yenidən bərpası ölkəmizin mühüm tranzit ölkəyə çevrilməsinin təməlini qoydu.




Dövlət başçısı İlham Əliyev bu siyasəti uğurla davam etdirdi. Prezident çıxışlarında dəfələrlə qeyd edir ki, nəhəng layihələrin icrasından əvvəl ciddi elmi araşdırmalar aparılaraq qərar verilir. Yəni hər bir layihə təkcə bu günlə bağlı deyil, həm də gələcəyə hesablanıb. Aparılan bu uğurlu siyasət sayəsində Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin qovşağına çevrilib. Beləliklə, dünyanın mühüm nəqliyyat yolları Bakıda birləşir. Bu, ölkəmizin həm iqtisadi, həm də siyasi maraqlarını təmin edir.

Prezident İlham Əliyev ölkəmizdə həyata keçirilən iri tranzit layihələri yüksək dəyərləndirərək demişdir: "Bütün bu layihələr arasında Bakı-Tbilisi-Qars dəmir yolunu mən xüsusi vurğulamaq istəyirəm. Çünki bu, bir neçə səbəbə görə, doğrudan da, strateji obyektdir, strateji infrastrukturdur... Eyni zamanda, biz İrandan da Avropa istiqamətinə Azərbaycan üzərindən yükləri gözləyirik. Bildiyiniz kimi, "Şimal-Cənub nəqliyyat dəhlizi"ndə də Azərbaycan çox fəal iştirak edir. Biz öz ərazimizdə bu dəhlizlə bağlı bütün işləri başa vurmuşuq. Ona görə bütün bu addımların nəticəsində Azərbaycan - açıq dənizlərə çıxışı olmayan bir ölkə beynəlxalq, yəni Avrasiya nəqliyyat mərkəzlərinin birinə çevrilib. Əminəm ki, növbəti illərdə artıq icra edilmiş layihələrin və yeni layihələrin icrası nəticəsində Azərbaycan üzərindən yükdaşımaların həcmi artacaq".

Ölkəmiz dünya miqyaslı bu layihələrin icrası zamanı müxtəlif çətinliklərlə də qarşılaşıb. Belə ki, erməni diasporu və onları dəstəkləyən geniş imkanlara malik siyasi güclər bu layihələrin reallaşmasında problem yaradırdı. Onların əsas məqsədləri Azərbaycan, Gürcüstan və Türkiyənin ərazisindən keçən dəmir yolunun tikintisi və təmirinə maliyyənin ayrılmasına mane olmaq idi.

Lakin Prezident İlham Əliyevin qətiyyəti sayəsində bu layihənin icrasına mane ola bilmədilər. Dövlət başçısı dekabrın 23-də yerli jurnalistlərə müsahibə verərkən bu barədə demişdir: "Bütün bu məsələləri təşkil edəndən sonra gördük ki, biz indi bəzi beynəlxalq təzyiqlə üzləşirik. Bu, bir qədər gözlənilməz idi. Çünki biz yaxşı bilirdik və xəritəyə baxanda hər kəs görür ki, bu yol çox lazımdır. Ancaq bəzi Qərb ölkələri buna etiraz etdilər. Baxmayaraq ki, biz indi onlardan kredit də almaq fikrində deyildik. Ancaq Gürcüstana təzyiqlər başlandı ki, Gürcüstan razılıq verməsin bu layihəyə. Çünki bu layihə həyata keçirilərsə, Ermənistan nəqliyyat dalanında qalacaq. Dünyadakı ermənipərəst qüvvələr, erməni lobbisi, diaspor və ermənipərəst siyasətçilər bu layihənin əleyhinə açıq şəkildə çıxdılar".

Prezident İlham Əliyevin bu sahədə qətiyyətli mövqeyi, Gürcüstanla aparılan uğurlu danışıqlar sayəsində mühüm əhəmiyyətə malik Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə razılıq əldə edildi. Məlumdur ki, Gürcüstanın maliyyə imkanları məhduddur. Azərbaycan dövləti bu problemi də həll etmək üçün qonşu ölkədən keçən dəmir yolunun tikintisinin və təmirinin maliyyələşməsini öhdəsinə götürdü. Beləliklə, həm siyasi, həm də maliyyə tərəfindən Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilməsinə heç bir maneə qalmadı.

Dövlət başçısının qeyd etdiyi kimi, belə nəhəng nəqliyyat struktur layihələrinin icrası üçün qonşu ölkələrlə yaxşı münasibətlərin olması vacibdir. Ölkəmizin qarşılıqlı fayda əsasında təklif etdiyi əməkdaşlıq qonşu dövlətlər tərəfindən də rəğbətlə qarşılanıb. Bunun nəticəsidir ki, Bakı-Tbilisi-Qars nəqliyyat dəhlizinin icrasından sonra "Şimal-Cənub nəqliyyat dəhlizi" istiqamətində də uğurlu nailiyyətlər qazandıq. Bu da Rusiya və İranla olan dövlətlərarası münasibətlərimizin yaxşı olması sayəsində mümkün olub. Çünki bu layihənin icrası da hər iki ölkənin mənafeyinə xidmət edir.

Azərbaycan nəqliyyat dəhlizlərindən daha çox yükün daşınması üçün təkcə qonşu ölkələrlə deyil, həm də region ölkələri ilə ciddi şəkildə əməkdaşlıq edir. Bu gün Çin-Qazaxıstan-Xəzər-Azərbaycan-Gürcüstan-Türkiyə yolundan Türkmənistan, Əfqanıstan da istifadə etməkdədir. Beləliklə, Əfqanıstan-Türkmənistan-Azərbaycan Avropa dəmir yolu xətləri birləşir. Eyni zamanda, İran və Rusiyadan da Azərbaycan üzərindən Avropaya yüklərin daşınmasına başlanıb.

Bu nəqliyyat dəhlizləri ölkəmiz üçün uzunmüddətli gəlir mənbəyi olacaq. Bununla bərabər, region ölkələri ilə əməkdaşlığı gücləndirəcək, beynəlxalq əhəmiyyətli tranzit ölkəsi kimi siyasi nüfuzumuz da artacaq. Belə əlverişli mövqe Azərbaycanı regionda və beynəlxalq miqyasda söz sahibinə çevirəcək.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Şəhid ailəsi yeni ili yeni mənzildə qarşılayır

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində Şəmkir rayonunda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən inşa etdirilən fərdi ev şəhid Elçin Rüstəmovun ailəsinə təqdim edilmişdir.



Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov təqdimetmə mərasimində çıxış edərək ölkəmizdə Qarabağ müharibəsi veteranlarının, əlil və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlərdən danışmış, dövlət başçısının bu kateqoriyadan olan insanlara xüsusi qayğı ilə yanaşdığını diqqətə çatdırmışdır. Qeyd edilmişdir ki, son bir neçə ildə bu kateqoriyadan olan insanlar üçün Şəmkirdə üç çoxmərtəbəli yaşayış binası tikilmiş, 60-dan çox fərdi yaşayış evi inşa olunmuş, yüzlərlə müharibə veteranına, əlil və şəhid ailəsinə pulsuz minik avtomobilləri verilmişdir. Hazırda rayon ərazisində şəhid ailələri üçün daha bir neçə yaşayış evinin tikintisi aparılır. Həmin mənzillərin inşası yaxın vaxtlarda başa çatdırılacaqdır.

Ailənin üzvü Gülnarə Rüstəmova dövlətin bu qayğısını yüksək qiymətləndirmiş, ölkə rəhbərinə minnətdarlığını bildirmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

*"Biz Vətənimizin çiçəklənməsi, qüdrətinin artırılması və suverenliyinin möhkəmləndirilməsi məqsədilə qarşımıza böyük vəzifələr qoymuşuq. Həmin vəzifələrin həlli üçün bütün həmvətənlərimiz, o cümlədən xaricdə yaşayan soydaşlarımız sıx birləşməli, harada yaşamalarından asılı olmayaraq milli maraqlarımızı qətiyyətlə qorumalı, anti-Azərbaycan dairələrin təxribatçı əməllərinə qarşı prinsipial mübarizə aparmalıdırlar. Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə səadət, firavanlıq və bütün işlərinizdə uğurlar diləyirəm".*

**İlham ƏLİYEV**



GILAN HOLDING

Azərbaycan xalqını

Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni 2020-ci il

münasibətilə təbrik edir, hər bir ailəyə səadət, sevinc dolu günlər və ölkəmizə əbədi müstəqillik arzulayır

GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan" şirkəti və onun törəmə şirkətləri

Azərbaycan xalqını

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni 2020-ci il

münasibətilə təbrik edir, hər bir ailəyə səadət və sevinc dolu günlər arzulayır

## Bakıya yeni xüsusi texnika gətirilib

Prezident İlham Əliyevin şəhər təsərrüfatı və kommunal xidmətlərin işinin daha da təkmilləşdirilməsi, bu istiqamətdə həyata keçirilən işlərin yeni səviyyəyə çatdırılması istiqamətində Bakı Şəhər İcra Hakimiyyəti qarşısında qoyduğu tapşırıqların icrası həyata keçirilir.



Bu işlər çərçivəsində paytaxt sakinlərinə göstərilən xidmətlərin səviyyəsinin daha da artırılması məqsədilə Prezidentin ayırdığı maliyyə vəsaiti hesabına Bakı şəhər kommunal təsərrüfatı xidmətləri üçün müasir tələblərə tam cavab verən yeni avtonəqliyyat vasitələri və mexanizmlərin alınması nəzərdə tutulmuşdur. Yeni il ərəfəsində Almaniya istehsalı olan xüsusi təyinatlı avtonəqliyyat vasitələrinin ilk 5 ədədi Bakıya gətirilib.

Yeni texnikanın tətbiqi əhaliyə göstərilən kommunal xidmətlərin səviyyəsini yüksəldəcək, əl əməyindən istifadəni azaldacaq, kommunal xidmətlərin mövcud avtoparkının yeniləşməsinə səbəb olacaqdır. Texnika sayının artırılması şəhərin müxtəlif rayonlarında məişət tullantılarının vaxtında daşınmasına və şəhərin ekoloji durumunun yaxşılaşdırılmasına müsbət təsir göstərəcəkdir.

Bakı Şəhər Mənzil Kommunal Təsərrüfatı Departamentinin Monitorinq Mərkəzində təşkil olunmuş təqdimat mərasimində yeni gətirilmiş xüsusi təyinatlı avtonəqliyyat vasitələri və mexanizmlər, onların texniki göstəriciləri barədə ətraflı məlumat verildi və bildirildi ki, müxtəlif həcmli və təyinatlı bu texnikalar həm də Bakı şəhərində Böyük Britaniyanın tanınmış "Mott MacDonald" şirkətinin iştirakı ilə həyata keçirilən bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsi layihəsinin paytaxtın digər rayonlarında da tətbiq edilməsi işlərində böyük kömək olacaqdır. Yeni, müasir texnikaların tətbiqi şəhərimizin sanitar təmizliyinin yüksəlməsinə, onun daha da gözəlləşməsinə, ətraf mühitin və sağlamlığımızın qorunmasına, yeni ekoloji, sanitar mədəniyyətin formalaşmasına böyük təsir göstərərək Bakı şəhərinin dünyanın ən gözəl şəhərlərindən biri olmasına yardımçı olacaqdır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

**♦İlə yekun vurulur**

# Bir ildə 1000 kilometrdən çox yeni yol

Yeni avtomobil yollarının, körpülərin və yol ötürücülərinin istifadəyə verilməsi Azərbaycanda yol infrastrukturunun müasir səviyyəyə çatdırılması istiqamətində aparılan işlərin davamlı olduğunu təsdiqləyir. Hər il ölkədə ən azı 1000 kilometr yeni yol çəkilir.



Bu baxımdan 2019-cu il də istisna təşkil etmir. İllik investisiya proqramında magistral, şəhərlərarası və kənd yollarının tikintisi üçün kifayət qədər vəsait ayrılmışdı. 1000 kilometr yeni yolun çəkilişi nəzərdə tutulmuşdu. Bu işlər müvəffəqiyyətlə başa çatdırılıb.

2019-cu il iyulun 31-də sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə Prezident İlham Əliyev Azərbaycanda yol tikintisinin geniş vüsət aldığını bir daha vurğulayaraq deyib: "Son 15 ildə 15 min kilometr yol çəkilib. Bu il də kənd yollarının, şəhərlərarası yolların çəkilişi nəzərdə tutulur. Təxminən min kilometrə yaxın yolun çəkilişi nəzərdə tutulur. Məndə olan məlumata görə, altı ayda təxminən 400 kilometrə yaxın avtomobil yolu çəkilib. Bu, demək olar ki, Azərbaycanda yol infrastrukturunun tamamilə yenilənməsinə gətirib çıxardı. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumunun hesabatında avtomobil yollarının keyfiyyətinə görə Azərbaycan dünyada 34-cü yerdədir. Əminəm ki, bizim yerimiz daha da irəliləyəcək. Çünki bu sahəyə, doğrudan da, çox böyük investisiyalar qoyulur və bundan sonra da qoyulacaq".

Oktyabrın 17-də isə dövlət başçısı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin idarə heyətinin sədri Saleh Məmmədovu qəbul edərkən bildirib ki, keçən dəfə yolların keyfiyyətinə görə 34-cü yerdə olmuşuqsa, bu il 27-ci yerdəyik. Bu, MDB məkanında birinci sırada olmaq deməkdir.

Elə həmin tədbirdə ilin 9 ayı ərzində ölkədə 903,5 kilometr uzunluğunda avtomobil yollarının çəkildiyi və istismara tam hazır olduğu barədə də məlumat verilmişdi. İlin sonuna qədər isə bu rəqəmin 1122 kilometr olacağı deyilmişdi.

İstifadəyə verilən yolların əksəriyyətinin açılışında Prezident İlham Əliyevin iştirak etməsi infrastruktur layihələrinin, o cümlədən yol tikintisinin ölkənin həyatında daşıdığı mühüm əhəmiyyəti bir daha nəzərə çatdırır. Yol həm insanların rahatlığı, həm də iqtisadiyyatın inkişafı deməkdir. Təsadüfi deyil ki, bu fikir hər dəfə yeni yolların istifadəyə verilməsi zamanı da vurğulanır.

2019-cu il ərzində istifadəyə verilən yolların timsalında onların istər şəhərlərin, istərsə də bölgələrin sosial-iqtisadi həyatında necə önəm daşıdığını da görmək mümkündür. Hazırda respublikanın nəqliyyat-yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı dövlət büdcəsi vəsaiti hesabına irimiqyaslı layihələrin uğurlu icrası davam edir. Regionlarda kənd və qəsəbələri birləşdirən yolların, həmçinin yaşayış məntəqələrinin daxili yollarının təmirinə və yenidən qurulmasına böyük diqqət yönəldilib.

Dekabrın 5-də Prezident İlham Əliyev Bakı-Şamaxı-Yevlax magistral avtomobil yolunun Şamaxı rayonu ərazisindən keçən 101-117-ci kilometrlik hissəsinin yenidənqurmadan sonra keçirilən açılışında iştirak edib. Ümumi uzunluğu 16 kilometr olan bu yol yenidən qurularkən dörd zolaq boyu genişləndirilib. Həmin tədbirdə dövlət başçısına 4 min nəfər əhalinin yaşadığı 5 məntəqəni birləşdirən Qonaqkənd-Həmyəli-İkinci Çaylı-İkinci Cabanı-Cabanı avtomobil yolunda görülmüş işlər barədə də məlumat verilib.

2019-cu ildə Prezident İlham Əliyevin regionlarda açılışında iştirak etdiyi yollardan biri də Qəbələ avtomobil yoludur. Oktyabrın 28-də yenidənqurmadan sonra istifadəyə verilən bu yol rayonun Böyük Əmili-Bılıx-Əmirvan ərazilərini əhatə edir.

Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolu 10 min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirir. Uzunluğu 19 kilometr olan yol dördüncü texniki dərəcəlidir. İki hərəkət zolaqlı yol üzərində xeyli göstərici nişan və lövhələr, siqnal dirəkləri və 8 avtodayanacaq quraşdırılıb. Avtomobil yolunun 10-cu kilometrliyində Qaraçay çayı üzərində dördaşırımlı yeni körpü tikilib, Zalamçay çayı üzərində isə ikiaşırımlı körpü təmir edilib. Bu yolun inşası əhalinin mənzil başına tez və rahat çatmasına, həmçinin kənd təsərrüfatı məhsullarının bazarlara və digər satış məntəqələrinə vaxtında aparılmasına şərait yaradır.

Qəbələdə dövlət başçısına rayonun Nic-Mıxlıqovaq-Yemişanlı-Uludaş-Tikanlı-Abrıx avtomobil yolunun tikintisi barədə də məlumat verilib. 11 min əhalinin yaşadığı və 8 yaşayış məntəqəsini birləşdirən yolun uzunluğu 18 kilometrdir.

İlin son günlərində isə Prezident İlham Əliyev Bakı-Quba-Rusiya Federasiyası dövlət sərhədi yeni avtomobil yolunun tikintisi ilə tanış olub. Əvvəl bu yol Bakıdan Samur sərhəd-keçid məntəqəsinədək 208 kilometr idi, indi 16 kilometr qısalıb və 192 kilometrdir. Bu onunla əlaqədardır ki, yol rayon mərkəzlərindən keçməyəcək, onlara yalnız qovşaqla birləşəcək. Yol dörd lota bölünür. H.Z.Tağıyev qəsəbəsindən Giləzi qəsəbəsinədək uzanan birinci lot 30 kilometrdir. Hazırda yolun bir istiqamətdə 90 faizinin asfalt-betonla örtülməsi tam başa çatdırılıb. Qalan hissədə tikinti davam edir.

Bakı-Quba-Rusiya Federasiyası dövlət sərhədi yeni avtomobil yolunun H.Z.Tağıyev qəsəbəsindən başlanan hissəsinin inşası ölkəmizdə yol infrastrukturuna böyük əhəmiyyət verildiyinin daha bir təzahürüdür. Belə ki, bu yol "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi"nin tərkib hissəsidir. Onun tikilməsi nəqliyyat xidmətlərini daha da yaxşılaşdırmaqdan əlavə, turizmin inkişafına təkan verəcək, sərnişin və yük daşımalarını xeyli artıracaq.

Ümumilikdə isə bu yolların hamısı Azərbaycanın iqtisadi inkişafına mühüm dəstək göstərəcək. 2019-cu ildə 1000 kilometrdən çox yol çəkildiyini vurğulayan dövlət başçısı 2020-ci ildə də həmin sahədə işlərin bu templə davam edəcəyini bildirib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***




# Yeni ilin mübarək, Xəzər neftçisi!

## Dəniz şəhəri bayramı əmək növbəsində qarşılayır

İki ay əvvəl 70 yaşını təntənə ilə qeyd edən əfsanəvi dəniz şəhəri özünün 71-ci Yeni ilini qarşılayır. Bütün digər şəhərlərdən fərqli olaraq Neft Daşları bayram gecəsində əmək növbəsindədir.









Neftçilərin böyük dəstəsi - operatorlar, ustalar, geoloqlar, inşaatçılar, rabitəçilər, tibb və ictimai-iaşə işçiləri iş başındadırlar. Maraqlıdır ki, bu insanların həftədə, yaxud yarım ayda bir dəfə dəyişən əmək növbələri Neft Daşlarında daha bir növbəyə "bölünür". İş fasiləsiz olduğundan gecə və gündüz növbələri bir-birini əvəz edir. Odur ki, bu gün də neftçilər bilavasitə öz iş yerlərində - dəzgah arxasında, ən müasir avadanlıqlar arxasında dayanıblar. İllər qovuşub ayrılanda onların dənizin dərin qatlarından çıxardığı neft borularla neftyığma məntəqələrinə axmaqda davam edəcək. Söhbət ölkəmizin gücünü, qüdrətini artıran, xalqımızın rifahını daha da yaxşılaşdıran qara qızıldan gedir...

Gündüz növbəsini başa çatdıranlar isə Yeni ili dəniz şəhərinin yeməkxanasında, "Çay evi"ndə qarşılayır, al-əlvan çilçıraqların bərq vurduğu parka gəzintiyə çıxır, müasir idman zallarına üz tuturlar. Başqa sözlə, Neft Daşlarında işçinin boş vaxtını xoş keçirməsi üçün hər cür şərait yaradılıb. İndi neftçilər dənizdə əmək növbəsi çəkərkən televizoru, kondisioneri, soyuducusu, rahat yatacağı olan, isti və soyuq su ilə təchiz edilən səliqəli otaqlarda yaşayırlar. Onların sahildən dənizə özləri ilə ərzaq gətirdikləri vaxtlar da çoxdan arxada qalıb. Buradakı yeməkxanada hazırlanan xörəklərin dadı evdə bişirilənlərdən heç də geridə qalmır. Stasionar özüllərin də bəzilərinin öz aşpazı var. Qalanlarına isə ərzaq vertolyot və gəmilərlə çatdırılır.

Azərbaycan neftçisinə göstərilən hərtərəfli qayğı ildən-ilə artır. Hasil etdiyi məhsul nə qədər dəyərlidirsə, onun özünün təhlükəsizliyi və sağlamlığı yüzqat bundan önəmlidir. Təsadüfi deyil ki, bu münasibət özünü işin nəticələrində də göstərir. "Neft Daşları" köhnə yataq olsa belə, burada hasilatı sabit saxlamaq, hətta artırmaq artıq bir qaydaya çevrilib.

Neftçilər bu il də yaxşı işləyiblər. Xəzərin dərinliklərindən nəzərdə tutulduğundan çox qara qızıl və mavi yanacaq çıxarılıb. Neftçilərin Yeni ili xoş ovqatla qarşılamasının səbəblərindən biri də məhz bu faktdır.

Deyirlər, Neft Daşlarının əməkçilərindən elə birini tapmaq çətindir ki, burada işlədiyi müddətdə bir neçə, heç olmasa bir dəfə Yeni ili dənizdə - evindən, ailəsindən uzaqda qarşılamasın. Lakin onlar bundan o qədər də mütəəssir olmurlar. Çünki işlərinin, peşələrinin, yerinə yetirdikləri vəzifənin nə qədər vacib olduğunu bilir, bundan qürur duyurlar.

Yeni ilin mübarək, Xəzər neftçisi! Sənə sağlam həyat, sakit dəniz, bol məhsul arzu edirik.

***Flora SADIQLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# "Azərişıq" 2019-cu ili yüksək nəticələrlə başa vurur

Respublika ərazisində istehlakçıların kefiyyətli, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün "Azərişıq" ASC tərəfindən 2019-cu il ərzində mühüm işlər yerinə yetirilmişdir.










Belə ki, Binəqədi rayonunun elektrik təchizatının yaxşılaşdırılması üçün 110/35/6 kV-luq "ETK-4" yarımstansiyası tam yenidən qurulmuş, yarımstansiyada 110 kV-luq açıq, 35 və 6 kV-luq qapalı paylayıcı qurğular yeni inşa edilərək eleqaz və vakuum tipli elektrik avadanlıqlarla təchiz olunmuş, 2x40 MVA gücündə transformator quraşdırılmış, qapalı paylayıcı qurğular 2 mərtəbəli binada yerləşdirilməklə növbətçi personal üçün bütün lazımi şərait yaradılmış, Xəzər rayonu ərazisində 35/6 kV-luq 2x25 MVA gücündə "Binə Aqro" yarımstansiyası inşa edilərək istismara verilmişdir.

Xətai rayonunda 10/0,4 kV-luq 2x1600 kVA gücündə 276 saylı, 2x1000 kVA gücündə 3440 saylı, Yasamal rayonunda 6/0,4 kV-luq 2x1000 kVA gücündə 394 saylı, 10/0,4 kV-luq 2x1600 kVA gücündə 3330 saylı, 2x2500 kVA gücündə 465 saylı, 2x1600 kVA gücündə 19 saylı, 2x1000 kVA gücündə 447 saylı, Nərimanov rayonunda 10/0,4 kV-luq 2x1000 kVA gücündə 456 saylı, Səbail rayonunda 10/0,4 kV-luq 2x1600 kVA gücündə 944 saylı, Binəqədi rayonunda 6/0,4 kV-luq 2x1000 kVA gücündə 591 və 499 saylı, Xəzər rayonunda 6/0,4 kV-luq 1000 kVA gücündə "Binə Aqro" və "Qrand Aqro", Suraxanı rayonunda 6/0,4 kV-luq 630 kVA gücündə Hövsan zeytun zavodunun transformator məntəqələri inşa edilərək və yenidən qurularaq istismara verilmişdir.

Ağstafa rayonunda 110/35/10 kV-luq 2x25 MVA gücündə "Ağstafa", Biləsuvar rayonunda 110/35/10-6 kV-luq 2x25+10 MVA gücündə "Səmədabad", Ağdam rayonunda 110/10 kV-luq 16 MVA gücündə "Ergi" yarımstansiyaları əsaslı surətdə yenidən qurulmuşdur, Sumqayıt şəhərində 35/6 kV-luq 4 MVA gücündə "Tuqzavod", Xızı rayonunda 35/10 kV-luq 1,8 MVA gücündə "Yeni Yaşma" yarımstansiyaları yeni inşa edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 13 fevral və 28 oktyabr 2019-cu il tarixlərində açılışı həyata keçirilən Beyləqan rayonundakı 110/35/10 kV-luq 2x25 MVA gücündə "Beyləqan-1", Qəbələ rayonundakı 110/35/10 kV-luq 2x40 MVA gücündə "Qəbələ" və Ağdaş rayonundakı 110/35/10 kV-luq 2x2,5 MVA gücündə "Ağdaş" yarımstansiyaları tam şəkildə yenidən qurulmuşdur.

Bakı şəhərinin elektrik təchizatının yaxşılaşdırılması, elektrik enerjisinə artan tələbatın ödənilməsi üçün Xəzər rayonunda 1 yeni inşa edilmiş 10/35/10 kV-luq 2x40 MVA gücündə "Buzovna-1", Yasamal rayonunda 110/35/10 kV-luq 2x50 MVA gücündə "Bayramzadə" yarımstansiyalarında tamamlama, Pirallahı rayonunda 110/35/6 kV-luq 2x40 MVA gücündə "Pirallahı" yarımstansiyasının tikinti işləri aparılmaqdadır.

İstehlakçıların elektrik təchizatının yaxşılaşdırılması üçün Bakı şəhərində və regionlarda 161 ədəd komplekt transformator məntəqəsi quraşdırılmış, 27,9 km 110 kV-luq, 44,1 km 35 kV-luq, 409,5 km 10 və 6 kV-luq, 36,2 km 0,4 kV-luq, 3066,3 km 0,4 kV-luq ÖİN hava xətləri çəkilmiş və təmir olunmuş, 46,6 km 110 kV-luq, 122,4 km 35 kV-luq, 344,3 km 10 kV-luq, 757 km 0,4 kV-luq kabel xətləri çəkilmişdir. 2019-cu ildə 101 ədəd 110 kV-luq, 347 ədəd 35 kV-luq, 2895 ədəd 10 və 6 kV-luq yarımstansiyalarda elektrik avadanlıqlarının, 80 km 110 kV-luq, 510,2 km 35 kV-luq, 1567,8 km 10 və 6 kV-luq, 1600,4 km-ə yaxın 0,4 kV-luq elektrik veriliş xətlərinin texniki vəziyyəti yoxlanılmış, aşkar edilmiş nasazlıqlar aradan qaldırılmaqla təmir və sınaq işləri aparılmış, 452 ədəd 10 və 6 kV-luq transformator əsaslı təmir olunmuşdur.

Regionlarda elektrik enerjisi itkilərinin azaldılması, elektrik enerjisi uçotunun dəqiq aparılması üçün istismar müddətini başa vurmuş 0,4 kV-luq elektrik şəbəkələrində yenidənqurma işləri aparılmış, bu işlər 46 rayonu, 76 kənd və qəsəbəni əhatə etməklə hesabat dövründə 19 kənd üzrə işlər tam yekunlaşdırılmışdır.

Başa çatan il ərzində ümumilikdə 281.300 ədəd olmaqla əhali istehlakçılarına aid 264.200 ədəd, qeyri-əhali istehlakçılarına aid 17.100 ədəd uçot dəstləri bərpa olunmuşdur. Görülmüş işlər nəticəsində istehlakçılara satılan faydalı elektrik enerjisinin həcmi 17.216,5 min kVt x saat olmuş, ümumi yığım səviyyəsi 95,6 %-ə çatdırılmışdır.

Yeni Yaşma və Şurabad qəsəbələrində yerləşən Külək Elektrik Stansiyalarında 84 mln. kVt x saat elektrik enerjisi istehsal olunaraq elektrik şəbəkələrinə ötürülmüşdür.

"Azərişıq" ASC-də "Asan Kommunal" mərkəzləri vasitəsilə abunəçilərə göstərilən xidmətlərin dairəsi daha da genişləndirilmiş və hazırda istehlakçılara 16 növ xidmət göstərilir.

Respublikanın bütün istehlakçılarının fasiləsiz və kefiyyətli elektrik enerjisi ilə təmin olunması istiqamətində "Azərişıq" ASC tərəfindən həyata keçirilən tədbirlər davam etdirilir.

***"Azərbaycan"***







# Dünyada Yeni il: *fərqli və ortaq adətlər*

Dünya xalqlarının böyük əksəriyyəti yeni ilin başlanğıcını dekabrın 31-dən yanvarın 1-nə keçən gecə qeyd edirlər. Yeni ili bayram etməklə insanlar inanırlar ki, bütün uğursuzluq və kədərli anlar köhnə ildə qalır, yeni il yeni arzular və ümidlər gətirir. Bəs bu bayramın tarixi hara gedib çıxır? Ölkələrin Yeni il adət-ənənələri necədir?

## Çoxəsrlik tarix

Bu bayramın yaranmasının azı 25 əsrlik tarixi var. Bəzi fərziyyələrə görə, Yeni ili ilk dəfə qədim çinlilər qeyd ediblər. Digər mənbələrdə bu, qədim germanlar və romalıların adı ilə bağlanır. Başqa bir mənbə ənənənin Mesopotamiyada yarandığını sübut etməyə cəhd edir. Belə ki, miladdan əvvəl IV minilliyin sonunda Şumer, Babilistan, Assuriya kimi mədəniyyət mərkəzləri burada təşəkkül tapıb. Tarixçilərin fikrincə, məhz həmin dövrdə burada Yeni ilin gəlişi ilk dəfə bayram edilib. "Karnaval" sözü isə babil dilindən tərcümədə "gəmi-dəniz" deməkdir. Bu da xeyir tanrısı Mərdükün Dəclədə üzməsilə bağlı ayinlərdən gələn ifadədir. Bayram günlərindən birində Mərdükün dəhşət ilahəsi, ilanbaşlı Tiamatla döyüşü səhnəsi canlandırılarmış. Nəticədə Mərdükün qalib gələrmiş. Babilistan əsirliyində olan yəhudilər Yeni il bayramı ənənəsini babillərdən öyrənərək sonradan onu yunanlara ötürüblər. Yunanlar vasitəsilə isə Qərbi Avropaya yayılıb.

Digər mənbəyə görə, Qədim Şərqdə hələ İran dövlətinin yenicə yaranmağa başladığı dövrdə iranlıların təqvimləri var imiş. Onlar bilirmişlər ki, ilin ən qısa gündüzü ən uzun gecəsi ilə növbələşir. Və bu gündən sonra həyatverici Günəş səmada get-gedə daha çox bərq vurur, təbiət oyanmağa başlayır. Qədim hindlilər və farslar müasir təqvimlə dekabrın 22-nə təsadüf edən həmin günü "Günəş qapısı" adlandırarmışlar. Sonralar həmin gün Günəş Tanrısı Mitranın doğum günü kimi qeyd edilməyə başlayır. İran dövlətini diz çökdürən romalılar Mitranı da özününküləşdirirlər. Qədim Romada təqvim aylarındakı günlərin sayı müxtəlif idi. Hətta rüşvət verib onları dəyişdirmək də olardı. Lakin bir gün dəyişməz idi. Yeni il həmişə yanvarın 1-i gəlirdi və Mitranın doğum günü - İşığın Qaranlıq üzərində qələbəsi günü də bununla üst-üstə düşürdü. Əsrlər keçdi. Roma dövləti rəsmi olaraq xristian dövləti kimi tanındı. Məlum oldu ki, İsa peyğəmbərin doğum günü də elə dekabrın son günlərinə təsadüf edir. Beləcə bu bayram həm yeni ilin gəlişini, həm həyatın ölüm üzərində qələbəsini, həm də Milad gününü özündə birləşdirdi. Bəzən buna görə müsəlman ölkələrində Yeni il bayramını keçirmək düzgün sayılmır. Lakin bu, bütün dünyada beynəlxalq bayrama çevrilib və sadəcə təqvimin yenilənməsinə görə qeyd olunur.

## Fərqli ölkələrin fərqli adətləri

Dünyanın hər yerində bütün insanlar Yeni ili ümidlər, xoş möcüzələr, yeni uğurlar, xoşbəxtlik arzusuyla gözləsələr də, bayramı hərə öz adət-ənənəsinə uyğun qeyd edir.

**İspaniyada** bayram günü hamı şəhərin mərkəzi meydanına axışır. Hər kəs müəyyən vaxt ərzində 12 gilə üzüm yeməlidir. Bu adətin onlara şans gətirəcəyinə inanırlar. Bayram axşamı küçələrdə müxtəlif tələlər qurulur ki, pis qüvvələr köhnə ildə ilişib qalsın.

**Braziliyalılar** da ispanlar kimi, Yeni il gecəsi 12 gilə üzüm yeyirlər. Onların yedikləri üzümün hər giləsi növbəti ilin bir ayının simvolu hesab edilir. Hansı ayın üzümü şirin çıxarsa, o ayın gözəl keçəcəyinə inanırlar. Braziliyada Yeni il toplardan atılan atəşlərlə qarşılanır. Atəş səsi eşidəndə hamı bir-birini qucaqlayıb öpməyə başlayır. İnanırlar ki, həmin an sənə əziz olan birini öpməyə imkan tapsan, il xoşbəxtlik içində keçəcək.

**Fransada** Şaxta baba Yeni il gecəsi gəlir və evin balaca sakinlərinin başmağına hədiyyələr qoyur. Böyüklər bayram günü daha çox yeyib-içməyi sevirlər. Bu ölkədə bayramın ən maraqlı tərəfi hədiyyələrdir. Amma bir qədər diqqətli olmaq lazımdır. Hər hədiyyəni hər adama vermək olmaz. Məsələn, bu bayramda qadının öz ərindən başqa kimdənsə hədiyyə olaraq ətir qəbul etməsi yaxşı hal hesab olunmur.

Ən qəribə bayram hədiyyələrini isə **eskimoslar** bir-birinə bağışlayırlar. Bu, morjların və ağ ayıların buzdan yonulmuş fiqurlarıdır. Qrenlandiyadakı hava şəraiti bu hədiyyələri uzun müddət saxlamağa imkan verir.

**İsveçrədə** insanlar bir-birinə şam hədiyyə edirlər ki, bu da dostluğun və sevincin rəmzidir. Bayram axşamı ailə başçısı zibil atmaq bəhanəsilə evdən çıxır və Şaxta baba obrazında qayıdıb uşaqlara hədiyyələr paylayır.

**İtaliyada** Yeni ili bərkdən qışqıraraq qarşılamaq adəti var. Ucadan danışmaq italyanlar üçün adi hal olsa da, Yeni il gecəsi onlar öz səslərinə tam sərbəstlik verirlər. Beləcə, həm də köhnə illə vidalaşırlar. Əgər Yeni il bayramı ərəfəsində təsadüfən Roma küçələrindən keçsəniz, ehtiyatlı olun. Çünki pəncərələrdən atılan köhnə əşyalara hədəf ola bilərsiniz. İtalyanlar hesab edirlər ki, Yeni ilin astanasında bütün pis fikirlərlə və köhnə hər şeylə vidalaşmaq lazımdır.

**Şotlandiyada** ənənəvi Yeni il festivalı olan "Hagmonay" hələ də önəmini qoruyur. Bu özəl gecədə insanlar pis ruhları qovmaq üçün əllərində məşəl gəzirlər. Yeni il gecəsi evin bütün qapı və pəncərələri açıq qoyulur. İnanclara görə, qara it əvvəlki ilə aid hər şeyi açıq yerlərdən keçərək özü ilə aparır. Şotlandlar bayram gecəsi edilən evlənmə təklifinin uğursuzluq gətirəcəyinə, yeni ildə evə ilk girən şəxsin özü ilə uğur və ya kədər gətirəcəyini düşünürlər. Əgər bu adam tünd saçlı və əli hədiyyəlidirsə, ev sahibləri onları qarşıda çox yaxşı il gözlədiyinə inanırlar.

**Böyük Britaniyada** bayram günü evdə ideal təmizlik və qanun-qayda hökm sürməlidir. Gecə düşərkən ailənin başçısı illərin yerdəyişməsi üçün evin bütün qapılarını geniş açır. Daha sonra qapı bağlanır və evə ilk gələcək qonaq həyəcan və səbirsizliklə gözlənilir. İnanca görə, ilin necə keçəcəyi içəri girən adamın görkəmindən çox asılıdır. Qadınlar, sarışınlar və əsmərlər o qədər də arzuolunan deyillər. Ən uğurlu qonaq kürən kişi hesab olunur. Çatmaqaş adamın içəri girməsinə qarşı isə o dəqiqə ehtiyat tədbirləri görülür. Ocağa duz atılır, qapıdan xaç asılır. Gələn qonaq özüylə viski, şirin çörək və kömür gətirməlidir. Kömür ocağa atılır ki, təzə ildə ailə ocağı daha gur yansın.

**Macarıstanda** Yeni il axşamı milli paltar geymiş cavanlar küçələrə çıxıb musiqi çala-çala gəzməyə başlayırlar. Dəstəbaşı təntənəli surətdə elan edir ki, köhnə ili "dəfn" edib yenisini qarşıladığımız üçün hamı yeyib-içib şənlənməlidir. Küçələri gəzən cavanlar hansı evin qabağında dayansalar, ev sahibi mütləq onları ləzzətli yeməklərə və şəraba qonaq etməlidir. Macarlar Yeni il süfrəsinə qaz, ördək, toyuq bişirib qoymazlar. Guya Yeni ildə quş əti yeyənin səadəti uçub gedə bilər. Subay qızlar bu adətə daha çox riayət edirlər ki, yeni ildə ərə gedə bilsinlər.

**Danimarkada** yeni ili tullanmaqla qarşılayırlar. Belə ki, gecə saat 12-də hamı stulun üstünə çıxıb köhnə ildən təzə ilə tullanırlar. Bu ölkədə daha bir bayram ənənəsi yaxın dostların və qonşuların qapılarına boşqab çırpmaqdır. Kimin qapısının kandarında daha çox qab-qacaq qırıntıları varsa, gələn il onun üçün düşərli və uğurlu olur.

**Yunanıstanda** Yeni il axşamı qapılara bir baş soğan asılır. Bu, yenidən doğulmağın simvolu kimi qəbul edilir. Ana-atalar ertəsi gün səhər qapıdakı soğanı uşaqlarının başlarına vuraraq onları oyandırırlar. Həmçinin yeni ilin ilk günü qapının kandarında nar kəsərək bərəkətli bir il diləyirlər.

Yeni ildə **İslandiyada** kiçiklər öz valideynlərini xeyli təəccübləndirirlər. Bu balaca çoxbilmişlər Şaxta babanın onlara göz qoymasından ehtiyatlanaraq ay boyu özlərini yaxşı aparır, dəcəllik etmirlər. Əks halda bayram gecəsi sobanın yanına qoyduqları çəkmələrin içində kartof və ya bir parça kömür tapa bilərlər.

**Almanlar** Yeni il gecəsi saat 12-ni vurarkən ovuclarında metal pul sıxaraq tullanırlar. İnanırlar ki, bunu etsələr, təzə il daha bərəkətli olacaq.

**Avstriyada** hələ qədimlərdən Yeni il bayramının xeyirxah obrazları bacatəmizləyən və donuzdur. İnsanlar bayram gecəsini kücələrdə şənlənməklə və karnavallarla keçirirlər.

Yeni il **Rusiyada** ən çox sevilən bayramdır. Uşaqlar yeni ildən hədiyyələr, böyüklər səadət, xoşbəxtlik gözləyir. Yeni il gecəsi süfrəyə mütləq müxtəlif yeməklər, salatlar, içkilər, piroqlar qoyulur. İnanca görə, süfrə nə qədər dolu və gözəl olarsa, qarşıdan gələn il də elə olacaq. Süfrənin ortasına mütləq odda qızardılmış donuz balası qoyulur. Çünki donuz ruslarda bolluq və var-dövlət simvolu kimi tanınır. Süfrəyə quş ətindən heç nə qoyulmur, hesab edilir ki, evdən xoşbəxtlik uça bilər. Xəmirdən müxtəlif heyvan fiqurları bişirilib gələn qonaqlara paylanır. Yeni ili mütləq təzə paltar və ayaqqabıda qarşılayırlar ki, gələn il də həmişə təzə paltar, ayaqqabı almaq imkanı olsun. Yeni il qabağı hamı çalışır ki, bütün borcları qaytarsın, küsülülər barışsın. Evdən sınmış qab-qacağı atır, pəncərə və güzgülər parıldayanadək silinir. Müxtəlif karnavallar, ballar təşkil olunur.

**Yaponiyada** bayram günü budda məbədlərindəki bürünc zənglər 108 dəfə çalınır. Bu rəqəm təsadüfi seçilməyib. Yaponlar hesab edirlər ki, hər bir zərbə insan həyatını məhv etməyə qadir olan 108 ziyanlı ehtirasdan birini qovur. Bununla da gündoğar ölkənin sakinləri Yeni ili təmiz ruhla qarşılayırlar.

**Çində** də bayram günü böyük səs-küy və atəşfəşanlıqla keçir. Bununla çinlilər Yeni ilin gəlişinə mane olan şər qüvvələri qovduqlarını düşünürlər. Yeni il ərəfəsində evlərini başdan-ayağa kimi silib təmizləyən çinlilər bununla da keçən ildən qalan pis şansı evlərindən atdıqlarına inanırlar. Bir çox çinlilər evlərinin qapı və pəncərələrindən qırmızı parça asırlar. Yeni ildə minlərlə insan aslan və əjdahanın rəqslərini izləyir. Çünki əhdaja çinlilər üçün uzun ömrü və zənginliyi təmsil edir.

## Həyat rəmzi - şam ağacı

Beləcə, hər ölkə Yeni il bayramını öz adət-ənənələrinə uyğun keçirir. Amma bütün ölkələrin ortaq atributları var: al-əlvan, bərli-bəzəkli şam ağacı və Şaxta baba. Yeni il bayramını onlarsız təsəvvür etmək qeyri-mümkündür. Bəs Yeni il bayramında yolka bəzəməyin mənası nədir? **Çoxları şam ağacları bəzəmək** ənənəsini xristian dini ilə əlaqələndirir. Əslində isə, həyat rəmzi olan şam ağacının bəzənmə tarixi xristianlıqdan əvvəl başlayıb və dinlə bağlı deyil.

Hələ miladdan çox-çox əvvəl qədim Misirin sakinləri dekabrın ən qısa günlərində yaşıl palma ağaclarını evlərinə gətirirdilər. Bu, həyatın ölüm üzərində qələbəsinin rəmzi idi. Romalılar isə Əkin Allahının şərəfinə evlərini yarpaqlarla bəzəyirdilər. Druidlər palıd budaqlarına qızıl almalar asıb qış bayramını qeyd edirdilər. Orta əsrlərdə qırmızı almalarla bəzədilmiş həmişəyaşıl ağaclar dekabrın 25-də qeyd edilən Adəm və Həvva bayramının rəmzi idi.

Yeni ilin şam ağacı haqqında ilk yazılı məlumat XVI əsrə təsadüf edir. Həmin mənbələrə görə, o vaxt alman şəhəri olan Strasburqda Yeni il gecəsi həm kasıb, həm də adlı-sanlı zadəgan ailələrində küknar ağacları rəngli kağızlar, meyvələr və şirniyyatla bəzədilirmiş. Vaxt keçdikcə bu adət bütün Avropaya yayılır. Yeni dünyaya - Amerikaya yolkanı isə burada məskunlaşan almanlar gətiriblər. 1851-ci ildə burada ilk dəfə təntənəli şəkildə yolka fənərlərinin yandırılması mərasimi keçirilib. O vaxtdan hər il Yeni il bayramında Ağ evin qarşısında bu mərasim keçirilir. Beləcə, şam ağacı bütün dünyada məşhurlaşıb.

## Uşaqların sevimli Şaxta babası

Yeni il bayramını körpələrin çox sevdikləri Şaxta babasız təsəvvür etmək mümkün deyil. Saç-saqqalı tamam ağ, başında qardan papaq olan bu mehriban qocanın dünyanın müxtəlif ölkələrində fərqli adları var. Finlandiyada Şaxta babanı Youlupukki, Rumıniyada Moş Kreçun, İsveçrədə Yul Tomten, Özbəkistanda Korbobo adlandırırlar. Korbobo zolaqlı xələt geyinir və qırmızı araqçın taxır. O, içərisində yeni il hədiyyələri ilə dolu kisələr yüklənmiş uzunqulağa minir. İtaliyada uşaqların Şaxta babaları yox, Şaxta nənələri var. Onun adı Befan nənədir. İsveçdə Şaxta baba qarmaqvari burnu olan Yultomten və cırtdanboylu Yulnissardır. Onların hər ikisi bayram günü pəncərələrin altına hədiyyələr qoyurlar. Fransada iki Şaxta baba var. Onlardan biri Noel babadır. Zənbillərdə uşaqlara hədiyyə gətirən Noel baba çox xeyirxahdır. Digərinin adı Şalanddır. Uzunsaqqal Şaland xəz papaq və isti palto geyinir. Onun səbətində nadinc və tənbəl uşaqlar üçün çubuqlar olur.

Şaxta babanın ən məşhur adı isə Santa Klausdur. ABŞ, Kanada, Böyük Britaniya və Qərbi Avropa ölkələrində Şaxta babanı Santa Klaus adlandırırlar. Bu obrazın yaranma tarixi əsrlərin dərinliyinə gedib çıxır və onunla bağlı ta qədimdən bəri yaranan əfsanə və rəvayətlər zaman keçdikcə dəyişikliklərə uğrayıb.

Türkiyə Cümhuriyyətinin Muğla vilayətinin Patara şəhərində Santa Klaus kilsəsi mövcuddur. Patara antik dövrdə mövcüd olmuş Hiziya dövlətinin şəhərlərindən biridir. Orada IV əsrdə varlı tacir ailəsindən olan Nikolas adlı keşiş yaşayırdı. Orta yaşlarında rahib Nikolas Patara şəhərinin baş keşişi seçilmişdi. Əfsanəyə görə, həmin şəhərdə kasıb bir kişinin 3 qızı vardı. Bu qızlar cehiz üçün pul tapa bilmirdilər. Keşiş Nikolas bundan xəbər tutub bir gecə gizlincə bu qızların evinə gəlir. Pəncərədən və bacadan evə qızlar üçün pul kisəsi atır. Qızların cehiz pulu düzəlir. O gündən xristianlar maddi problemi olanlara müqəddəs Nikolasın kömək edəcəyinə inanırlar. Nikolas 343-cü ildə 65 yaşında vəfat edir. O, öləndən sonra qəbri milyonların ümid yeri olur. 1087-ci ildə müsəlman türklər Pataranı fəth edirlər. Bundan sonra xristian tacirlər bir gecə gizlicə keşiş Nikolasın qəbrini açıb, sümüklərini oğurlayaraq İtaliyanın Bari adasına aparırlar.

O vaxtdan xristian dünyasında Şaxta baba Müqəddəs Nikolay kimi tanınır. Provaslav kilsəsi Müqəddəs Nikolayı səyahətçilərin himayədarı, katoliklər isə kasıblara və uşaqlara yardım edən müqəddəs hesab edirlər. Müqəddəs Nikolay sonralar Mərkəzi və Şimali Almaniyada Weinachtsmann (alman dilində Weinachten - milad, mann isə kişi deməkdir), İngiltərədə isə Father Christmas - Miladın Atası adlandırılıb. Avropalı mühacirlər vasitəsilə Birləşmiş Ştatlaradək gedib çıxan Müqəddəs Nikolayın adı burada artıq Santa Klausa çevrilib. Şimali Amerika ədəbiyyatında və təsviri sənətində ağ saqqallı Santa Klaus qırmızı kürkünü geyinib 8 maral qoşulmuş arabasında Milad gecəsi peyda olaraq bacadan evlərə girir, sobanın yanından asılmış corabların içinə uşaqlar üçün hədiyyələr qoyur.

Adından, geyimindən asılı olmayaraq bu gecə bütün dünyada Şaxta babalar nəvələrini öz sovqatları ilə sevindirəcək.

Deyirlər ki, Yeni ili necə qarşılasan, o cür də yola salarsan. Qoy bu yeni il xoş ümidlərin, xoş niyyətlərin, xoş arzuların gerçəkləşdiyi il olsun.

Qədəmlərin mübarək, 2020!

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# İlahiyyat İnstitutunda ilin yekunları ilə bağlı iclas keçirilib



Azərbaycan İlahiyyat İnstitutunda (Aİl) rəhbərliyin, müəllim və tələbə heyətinin iştirakı ilə ilin yekunlarına həsr olunan iclas keçirilib.

AİI rektoru Ceyhun Məmmədov tədbir iştirakçılarını salamlayaraq, 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və qarşıdan gələn yeni təqvim ili münasibətilə səmimi arzularını ifadə edib. O bildirib ki, ölkəmizdə elm və təhsilin inkişafı, peşəkar kadrların hazırlanması və potensialının gücləndirilməsi vacib məsələlərdəndir. Ulu Öndər Heydər Əliyevin elm və təhsilimizin, mədəniyyətimizin inkişafındakı misilsiz tarixi xidmətlərindən bəhs edən rektor Ümummilli Liderin siyasi xəttini hazırda Prezident cənab İlham Əliyevin əzmlə və böyük uzaqgörənliklə davam etdirdiyini bildirib.

C.Məmmədov 2019-2020-ci tədris ilinin birinci yarımilinin yekunlarından danışarkən qeyd edib ki, beynəlxalq standartlara uyğun və dövlətin perspektiv tələbləri əsasında təhsilin səviyyəsini təmin etməyə çalışırlar və buna qismən nail olublar.

AİI rektoru cari ildə keçirilən konfransların, seminarların, "dəyirmi masa"ların, görüşlərin, təlimlərin əhəmiyyətini vurğulayaraq qeyd edib ki, belə tədbirlərin tələbələrimizin inkişafında xüsusi əhəmiyyəti var. C.Məmmədov, həmçinin institut kollektivinin uğurları kimi çap edilən kitablar, elmi əsərlər, qəzet və jurnallar haqqında söhbət açıb. Bildirib ki, cari il ərzində ali təhsil müəssisəsi müəllim və əməkdaşlarının əməyi sayəsində 15-ə yaxın kitabın nəşrini həyata keçirib.

Rektor gənclərin savadlı, geniş dünyagörüşə malik yetişməsinin qarşıda duran vacib məsələlərdən olduğunu vurğulayıb. AİI rəhbəri qeyd edib ki, hər bir gəncin qarşısında ölkənin hərtərəfli uğurlu inkişafına öz töhfəsini vermək kimi müqəddəs vəzifə dayanır. O bildirib ki, məqsəd dövlətçiliyimizin möhkəmləndirilməsində məqsəd və amalı sarsılmaz olan vətənpərvər, vətənə sevgi ruhunda tərbiyə olunan gənc nəslin formalaşdırılmasına töhfələr verməkdir.

İclasın sonunda iş fəaliyyətində fərqlənən institut əməkdaşlarına və ali təhsil müəssisəsinin ictimai həyatında fəal olan tələbələrə təşəkkürnamələr təqdim olunub.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Bakıda turistlər Yeni ili yüksək ovqatla qarşılayırlar









Yeni il ərəfəsində Bakının küçə və meydanları, park və xiyabanları daha möhtəşəm görünür. Paytaxt sakinləri arasında ölkəmizin bölgələrindən olan qonaqlarla bərabər, xarici turistlərin də çoxluğu müşahidə olunur. Son illər Yeni ildə, Novruz bayramında, eləcə də digər tarixi günlərdə yerli sakinlərlə yanaşı, xarici ölkə vətəndaşlarının da Naxçıvanda, Gəncədə, Qubada, Qusarda, Şəkidə, Lənkəranda, xüsusən də paytaxt Bakıda turist gəzintisində olmaları ənənəyə çevrilib. Bu, bir tərəfdən Bakının ildən-ilə gözəlləşməsi və müasirləşməsi ilə bağlıdırsa, digər tərəfdən Azərbaycan dövlətinin turistlər üçün dünya standartlarına uyğun yaratdıqları şərait və təhlükəsizlik tədbirləri ilə yüksək səviyyədə təmin olunmalarından irəli gəlir. Yeni il qabağı Bakının İçəri şəhər, Beşmərtəbə, Heydər Əliyev Mərkəzi, Dənizkənarı bulvar ərazilərində gəzişən turistlərin sayı xeyli çoxalıb. Onlar Yeni il yolkaları ətrafında xatirə şəkilləri çəkdirir, Bakının tarixi yerləri, abidələri, müasir binalar və tikililərlə yaxından tanış olur, muzeylərdə və digər yerlərdə vaxtlarını səmərəli keçirirlər.

Müşahidələrdən hiss olunur ki, Yeni il qabağı paytaxt Bakıya gələnlər arasında İran, Türkiyə, Gürcüstan, Rusiya Federasiyası və Orta Asiya ölkələri vətəndaşları daha çoxdur. Təsadüfi deyil ki, əvvəlki aylarda olduğu kimi, Orta Asiya ölkələri arasında ən çox əcnəbi qonaq respublikamıza Türkmənistandan (49 min) və Qazaxıstandan (43 min), habelə Cənubi Asiya ölkələrindən Hindistandan (59 min) və Pakistandan (42 min) gəlib. Türkiyə və İrandan gələn xarici qonaqların sayı isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 8.3 faiz artıb.

Yeni il gəzintisində olan bir sıra xarici ölkə vətəndaşları foto-müxbirimizin də obyektinə tuş gəlib. Yaxınlaşıb İranın Təbriz şəhərindən ailəliklə Bakıya, Yeni il şənliklərində iştirak etməyə gəlmiş Yusif Gəncəli ilə həmsöhbət oluruq:

- Valideynlərim Gəncədən olub, 1920-ci il Gəncə üsyanından sonra İrana mühacirət etmişlər. Azərbaycanı çox sevirəm, Bakı çox möhtəşəmdir, xanımım Həbibə, uşaqlarım, qardaşım ağa Həbib və ağa Rza da mənimlədirlər. İki gündür Bakıdayıq, istirahətimiz və gəzintimiz ürəyimizcədir. Qismət olsa, Novruz bayramında da gəlmək fikrimiz var, onda Gəncəyə əqrəbalarımızı ziyarətə gedəcəyik. Qoy bu Yeni il xalqımız üçün uğurlu və bərəkətli olsun.

İçəri şəhərdə, Şirvanşahlar sarayında, Qız qalası ətrafında və Dənizkənarı bulvarda dəstəbədəstə gəzişən xarici ölkələrdən gəlmiş turistlərdəki bayram ovqatının yüksək olması onların gəzintidən razı qaldıqlarının ifadəsi idi.

***Rəhman SALMANLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***


SOCAR
SOCAR PETROLEUM QSC

*Azərbaycan xalqını*

*31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il*

münasibətilə təbrik edir, bol ruzi, sülh, əmin-amanlıq, xoş gələcək arzulayır!




*Bayramınız mübarək!*


# Teatrlarımızın uşaqlara Yeni il hədiyyələri

Hər ilin qışı bir ilin sonunu, eyni zamanda, başqa bir ilin başlanğıcını gətirir. Yeni il bayramını ən çox gözləyən isə, yəqin ki, uşaqlardır. Çünki bu bayran onlar üçün şənlik, Şaxta baba, Qar qız, yolka və hədiyyələr deməkdir. Daha çox teatr binalarında və digər mədəniyyət ocaqlarında sevilən aktyorların ifasında keçirilən Yeni il şənlikləri də uşaqların marağına və sevincinə səbəb olur.











Mədəniyyət müəssisələrimiz, xüsusən, teatrlarımız hər il olduğu kimi, bu dəfə də uşaqları xüsusi bayram repertuarları ilə sevindirəcəklər. Aldığımız məlumata görə, bu, mədəniyyət ocaqlarımızın əksəriyyəti bayramda yeni tamaşalarla və sevimli nağılların qəhrəmanları ilə birlikdə uşaqların görüşünə gəlirlər.

Azərbaycan Dövlət Musiqili Teatrından bildirilib ki, hər il olduğu kimi, bu il də 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və 2020-ci il - Yeni il bayramı münasibəti ilə qış tətili günlərində uşaqların istirahətlərini mənalı və xoş keçirmələri üçün xüsusi hazırlıq görüblər. Teatr bu dəfə onlara bayram əhvali-ruhiyyəli "Şaxta baba, Bremen musiqiçiləri və Penin nağılı" tamaşasını təqdim edir. Yeni il tamaşalarının dekabrın 27-dən yanvarın 5-dək hər gün dörd seans olmaqla nümayişi nəzərdə tutulub.

Şən musiqiləri, teatrın balet truppasının rəqsləri, nəzərəçarpacaq, rəngarəng dekorasiyaları, işıq effektləri ilə diqqəti çəkən tamaşanın quruluşçu rejissorları Anar Babalı və Zaur Əliyev, quruluşçu baletmeysterləri Əməkdar artistlər Zakir və Yelena Ağayevlər, quruluşçu rəssamı Afaq Bayramova, rejissoru Elməddin Dadaşovdur.

Tamaşada Əməkdar artist Novruz Qartal, aktyorlar Əmrah Dadaşov, Ruslan Mürsəlov, İrana Kərimova, Pərvin Dadaşova, Zaur Əliyev, Zarina Qurbanova, Mehriban Rəcəbova, Eleanora Mehdiyeva, Nərmin Əliyeva, Fərid Rzayev, Murad Əliyev, Elməddin Dadaşov, Əli Kərimov, Elnur Zeynalov, kiçik yaşlı aktyor Rahib Məmmədzadə çıxış edirlər.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında da Yeni il şənlikləri təşkil edilib. Teatrdan verilən məlumata görə, bu münasibətlə "Şaxta Baba və Befan nənələr" adlı tamaşa hazırlanıb. Müəllifi və quruluşçu rejissoru Emil Əsgərov olan səhnə əsərinin rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, rəqslərin quruluşçusu Lalə Hacıyeva, musiqi tərtibatçısı Kamil İsmayılov, rejissor assistenti isə Xanım Həsənovadır.

Bayram tamaşasında rolları Əməkdar artistlər Mətləb Abdullayev, Əlfida Cəfərov, Mehriban Xanlarova, Sevinc Əliyeva, aktyorlar Fəridə Şahbazova, Dilarə Nəzərova, Vüsal Mustafayev və başqaları ifa edirlər.

Akademik Rus Dram Teatrı isə öz qapılarını uşaqlara "Sehrli Yeni il macəraları" tamaşası ilə açacaq. Səhnəyə eyni vaxtda beş Şaxta baba çıxacaq.

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrından aldığımız məlumata görə, bu il uşaqlara Ron Hovardın "Qrinç (Yaşıl adam)" əsərini təqdim edirlər. Tamaşanın quruluşçu rejissoru Elşad Rəhimzadədir. Rolları Ramil Məmmədov, Ceyhun Məmmədov, Asya Atakişiyeva, Müşfiq Əliyev, Gülbəniz Lətifova və başqaları ifa edirlər. Bayram tamaşası dekabrın 26-dan yanvarın 5-dək nümayiş olunacaq.

Daha bir mədəniyyət ocağı - Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı bu il də uşaqları sevindirir. Teatr balacaların görüşünə "Qış karnavalı" ilə gəlib. Rejissor Anar Məmmədovun quruluş verdiyi Yeni il tamaşası dekabrın 26-dan yanvarın 5-dək təqdim olunacaq.

Beləliklə, teatrlarımız bu il də uşaqların Yeni il bayramını daha çox yaddaqalan, unudulmaz etmək üçün hazırlıq görüblər. İndi isə bu mədəniyyət ocaqlarımız onların yollarını gözləyir.

***Zöhrə FƏRƏCOVA,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

AZPETROL şirkəti

Azərbaycan xalqını

31 Dekabr -
Dünya Azərbaycanlılarının
Həmrəylik Günü və Yeni il

münasibətilə təbrik edir, xalqımıza sülh,
əmin-amanlıq, birlik, tərəqqi, xoşbəxtlik,
firavan həyat və xoş gələcək arzulayır




Bayramınız mübarək!

azərişıq
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

Azərbaycan xalqını

31 Dekabr -
Dünya Azərbaycanlılarının
Həmrəylik Günü və Yeni il

münasibətilə ürəkdən
təbrik edir, hər bir ailəyə səadət,
sevinc dolu günlər arzulayır




Coca-Cola

"Coca-Cola" şirkəti Azərbaycan xalqını Yeni il bayramı
və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə
təbrik edir.

Qoy üzünüzə gələn il arzularınızın çiçək açacağı,
yaxınlarınızla firavan günlər yaşayacağınız və nəhayət,
Sizi hədəflərinizə çatdıracaq il kimi yaddaşınıza yazılsın!

BAYRAMINIZ MÜBARƏK!

# Müdafiə Sənayesi Nazirliyində bu ilin yekunlarına və qarşıda duran məsələlərə dair geniş müşavirə keçirilib

**Cari ildə Müdafiə Sənayesi Nazirliyinin (MSN) birlik və müəssisələrinin istehsal və təsərrüfat fəaliyyətinin yekunları və 2020-ci ildə bu sahədə qarşıda duran vəzifələr müzakirə olunub.**

AZƏRTAC MSN-in saytına istinadla xəbər verir ki, Müdafiə Sənayesi naziri Mədət Quliyevin sədrliyi ilə keçirilən iclasda tabeçilikdə olan birlik və müəssisələrin 2019-cu il üzrə fəaliyyətlərinin yekunları və qarşıda duran məsələlər müzakirə edilib.

Qeyd olunub ki, Silahlı Qüvvələrin silah, sursat və digər müdafiə təyinatlı məhsullarla təmin edilməsinin vacibliyi nəzərə alınaraq cari ilin iyununda dövlət başçısı tərəfindən Müdafiə Sənayesi Nazirliyinin fəaliyyəti bərpa olunub və Ali Baş Komandan İlham Əliyevin tövsiyə və tapşırıqlarının həlli istiqamətində atılacaq addımlar müəyyənləşdirilib.

Bildirilib ki, dövlət başçısının bu sahəyə göstərdiyi xüsusi diqqət və qayğı nəticəsində ötən müddətdə Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində müasir növ silahlar, döyüş sursatları, hərbi texnika, mühəndis-texniki vasitələr və digər müdafiə təyinatlı məhsullar istehsal edilərək Silahlı Qüvvələrə təhvil verilib. Milli Ordunu yeni nəsil silah növləri ilə təmin etmək məqsədilə Müdafiə Sənayesi Nazirliyi tərəfindən yeni layihələrin reallaşdırılması istiqamətində məqsədyönlü işlərin davam etdirildiyi diqqətə çatdırılıb.

Müşavirədə müdafiə təyinatlı məhsulların yaradılması və istehsalı ilə bağlı 2020-ci ildə qarşıda duran məsələlərə dair geniş müzakirələr aparılıb.

# "Azərenerji" ASC bayram günlərində iş rejimini daha da gücləndirəcək

**İlin 365 günü 24 saat fasiləsiz olaraq elektrik enerjisi istehsal etdiyindən hər zaman növbətçilik prinsipi ilə fəaliyyət göstərən "Azərenerji" ASC Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ilə bağlı iş rejimini daha da gücləndirəcək. Bununla bağlı qabaqlayıcı tədbirlər görülüb.**

Belə ki, enerji sisteminin dayanıqlığı və etibarlığını qorumaq, istehlakçıları fasiləsiz olaraq elektrik enerjisi ilə təmin etmək məqsədilə mərkəzi aparat üzrə məsul şəxslərdən ibarət xüsusi növbətçilik yaradılıb, eyni zamanda elektrik stansiyaları və sistem əhəmiyyətli yarımstansiyalara birbaşa məsul şəxslər təyin edilib. Yüksəkgərginlikli ötürmə xətlərinin təkrar yoxlanılması və nəzarətdə saxlanılması təmin edilib. Regional və Birləşmiş Dispetçer Xidmətlərinin əməliyyat heyətlərinin işi, o cümlədən mühəndis-kommunikasiya, rabitə xətlərinin mühafizəsi gücləndirilib.

**"Azərenerji" ASC bayram münasibətilə Azərbaycan xalqını təbrik edir, firavan həyat, işıqlı və uğurlu gələcək arzulayır.**

*"Azərbaycan"*

# Bir qrup şəhid ailəsi və Qarabağ müharibəsi əlili Abşeron rayonunda mənzillərlə təmin edilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu gün bir qrup şəhid ailəsi və Qarabağ müharibəsi əlilini Abşeron rayonunun Məmmədli kəndində yeni yaşayış binalarından alınmış mənzillərlə təmin edib.**

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, mənzillə təmin edilən şəhid ailələri və Qarabağ müharibəsi əlilləri ölkəmizdə sosial sahədə atılan mühüm addımlara, onların sosial müdafiəsinin gücləndirilməsinə, bu gün isə yeni mənzillə təmin olunduqlarına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

Mənzillərin təqdim edilməsi zamanı qeyd edilib ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə verilən mənzillərin, fərdi evlərin sayı ildənilə əhəmiyyətli dərəcədə artırılır. 2018-ci ildə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626 şəhid ailəsi və Qarabağ müharibəsi əlilinə mənzil və fərdi ev təqdim edilib.

2019-cu ildə isə bundan 50 faiz çox olmaqla 934 mənzil şəhid ailələrinə və müharibə əlillərinə verilib.

İndiyədək isə nazirlik tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə 7600-ə yaxın mənzil və fərdi ev təqdim edilib.








İllərin qovuşuğunda

# Xoş ovqatlı, qış sovqatlı günlərimiz...

Bu da yola salınan ilin son günü: tarixin daha bir səhifəsi. Hər Yeni ildə dilək də diləyənlər az olmur. İllərdir ki, Qarabağımızın, onun tacı olan könül şüşəmizin (Şuşamızın), eləcə də işğal altında qalan digər yurdlarımızın erməni vandallarının əsarətindən azad edilməsi diləyi ilə anaların əlləri göylərə ucalır...









Yola salınan hər köhnə illə yenisinin hesabat anları olur. Yeni illə könhənin görüş günü xalqımız üçün daha əlamətdardır. 31 dekabr xalqımızın tarixinə Dünya Azərbaycanlılarının Həmrəylik günü kimi yazılıb. Bu günü xalqımıza bəxş edən Ulu Öndər Heydər Əliyevin arzu və istəklərindən biri məhz Azərbaycan adlı Vətənindən uzaq düşmüş, qərib ellərdə azərbaycanlılıqları ilə fəxr edən soydaşlarımızın birliyinə nail olmaq idi. Axı, bu müqəddəs birliyə nail olan Ümummilli Liderin gerçəkləşən hər ideya və arzusu Azərbaycanımızın sabahının bu günündən də işıqlı, nurlu, güclü olmasına, azadlığının və müstəqilliyinin möhkəmləndirilməsinə hesablanıb. Həmin müqəddəs amala söykənən siyasət bu gün Prezident İlham Əliyev tərəfindən məqsədyönlü şəkildə uğur və qətiyyətlə davam etdirilir. Yeni təqvim ilinin xalqımız üçün gətirdiyi yeniliklər ildən-ilə öz rəngarəngliyi ilə yadda qalır. Bu il isə xalqımız xüsusi bir canlanmanı hiss etdi. İlin son günlərində ölkədə aparılan kadr islahatları, gəncliyin idarəetmədə və qanunvericilik orqanlarında daha məsul vəzifələrə layiq görülməsi, onlara dövlət başçısı tərəfindən etimad göstərilməsi birmənalı şəkildə iqtidar-xalq monolit birliyini təsdiqlədi.

Əlbəttə, onu demək yetər ki, yola salınan 2019-cu il xalqımızın və ölkəmizin tarixinə yaddaqalan zəngin hadisələrlə yazıldı. İlk növbədə vandal daşnaklar Azərbaycan Ordusunun gücünə və qüdrətinə bələd oldu. Yurdundan didərgin salınmış məcburi köçkün soydaşlarımızın ata-baba torpaqları işğaldan azad edilənədək mənzil-məişət problemlərinin həlli istiqamətində görülən işlər davam etdirildi: yeni salınan qəsəbə və məhəllələrə köçürülən insanların qəti qələbəyə olan inam və ümidləri bir daha cücərdi. Bunlarla yanaşı, respublikamızın yerləşdiyi Cənubi Qafqazın, hətta dünyanın inkişaf etmiş mərkəzi şəhərlərindən biri sayılan Bakı daha çox beynəlxalq tədbirlərə - forum və festivallara evsahibliyi etdi.

Deyirlər ki, ili hansı ovqatla qarşılayırsansa, o cür də yola salarsan. Bu mənada xalqımız hər gələn yeni ili həmişə yüksək əhvali-ruhiyyə və xoş ovqatla qarşılayıb. Sanki təbiət də illərin, əslində isə fəsillərin görüşünə əliboş gəlməməyə çalışır. Hər yeni ili doğma Bakımız və ümumiyyətlə, Azərbaycan təbiəti özünəməxsus qarşılayır. "Qışın oğlan çağı" günəşin zərrin şəfəqləri mavi Xəzərdə "yuyunursa", qəfildən əsən gilavar bu ovqata qar sovqatı ilə qoşulur. Şaxta baba və Qar qız üçün darıxan nəvələr nənələrinin, babalarının əllərindən yapışıb ölkəmizin füsunkar guşələrində əylənmək, xüsusən ən sevimli əyləncələri olan xizəklə sürüşmək, qartopu oynamaq... istəyində olurlar. Qış da ki qarı, şaxtası, dağlarda çovğunu, boran-tufanıyla gözəldir...

Bu il də Şaxta baba ilə Qar qız qarlı dağlar aşaraq, çox ellər dolaşaraq yurdumuza, Vətənimizə ayaqları sayalı gəlir: qış sovqatlı, xoş ovqatlı olsun! Özü ilə Azərbaycanımıza bolluq, bərəkət gətirsin! 2020-ci təqvim ili xalqımıza bundan da artıq firavanlıq və Qarabağımıza Qələbə gətirsin!

Ayrı-ayrı xalqlar Yeni ili eyni ümidlərlə - xoş möcüzələr, uğurlar, xoşbəxtlik arzusu ilə gözləyir və bayramı öz adət-ənənələrinə uyğun qarşılayırlar. Azərbaycanda isə dekabrın son günü illər kimi, bayramları da bir-birinə qovuşdurur: axı, 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür. Bayramlarımız mübarək! Xoş gəlmisən, təzə il, gəl, ömrümüzü bəzə, il!

***M.NƏRİMANOĞLU,***
***F.BAĞIROV (foto),***
***"Azərbaycan"***

# "Buz krallığı"nın paytaxtda Yeni il əyləncələri

## 170 tonluq su hovuzu, musiqili fəvvarələr, akva-balet, heyvanların "hoqqaları" - bir-birindən maraqlı şou proqramları Bakı Dövlət Sirkində

Asudə vaxtların daha səmərəli keçməsi üçün adətən müxtəlif ünvanlar seçilir. Bunlar yalnız kino-teatr, konsert salonları, yaxud turizm marşrutları deyil.






Belə əyləncə məkanlarından biri də mərkəzi şəhərlərdə fəaliyyəti ilə daim diqqətçəkən sirklərdir. Bakı sirki də daim tamaşaçı nəfəsi ilə isinib. 1945-ci ildə ilk milli sirk truppası kimi yaradılıb. Xüsusən ilin əlamətdar və tarixi, eləcə də bayram günlərində burada tamaşaçı əlindən tərpənmək olmur. İllərin qovuşuğunda Bakı Dövlət Sirkində yenidən anşlakdır: kiçik yaşlı məktəblilər doğmaları, xüsusən baba və nənələri ilə yollarını məhz buradan salırlar. Sirkin özünün də keçdiyi yol uzun və keşməkeşli olub.

Bakı Dövlət Sirkinin direktoru, Əməkdar mədəniyyət işçisi Vaqif Bağırzadə əyləncə və istirahət mərkəzinin dünəni və bu günü barədə fikirlərini bölüşərkən onu da vurğuladı ki, yüz ildən artıq bir dövr ərzində insanlara həyəcan və sevinc dolu anlar yaşadan sirkin maneji fanatları hesabına bu gün də öz missiyasını - sənətə və insanlara xidmət vəzifəsini yerinə yetirir: "Sirkin səhnəsində dünyanın müxtəlif ölkələrindən dəvət olunan kollektivlər çıxış edirlər. Yaradıldığı ilk vaxtlar tamaşa yalnız sirk nömrələrindən ibarət olmayıb. Truppanın tərkibinə estrada və balet artistlərinin çıxışları da salınıb. Ənvər Quliyev, "Ulduz bacıları", kəndirbaz Əlixan və digər artistlərin bir-birindən maraqlı nömrələrindən ibarət truppanın fəaliyyəti dövründə "Zirvədən işıq" adlı proqramla Bakı sirki keçmiş SSRİ-nin müxtəlif məkanlarında, eləcə də Afrika, Asiya, Amerika və Avropa qitələrində daimi qastrollarda olub..."

### Nikitinlərin sirk binasında milli tamaşalar

Ötən əsrin 90-cı illərində rus sirkinin ataları sayılan Nikitin qardaşları Bakıda ilk stasionar sirk-heyvanxana açıb. 1904-cü ildə indiki Nəsimi bağının yerində Şərqdə sirk-teatr binası inşa edilib.

Maraqlıdır, Bakı sirkinin kolxoz filialı da olub, onun əsasını qoyanlar isə yerli özfəaliyyətçilər, kəndirbazlar və xalq pəhləvanları idi. 1945-ci ildə Azərbaycanda ilk peşəkar sirk kollektivi yaradılıb. Kollektiv Bakı sirkinin kolxoz filialından və Azərbaycan estrada artistlərindən, həmçinin bədii özfəaliyyətçilərdən təşkil olunub. "Azərbaycan toyu" adlı ilk proqramı dahi bəstəkar Üzeyir bəy Hacıbəyli hazırlayıb.

Sirk ustalarının bir-birindən maraqlı, rəngarəng, həm də "qorxulu" nömrələri olur. Məhz buna görə məşhur kəndirbaz Rza Əlixan, sim üzərində rəqs edən "Ulduz bacıları" - Sona, Şəfiqə və Gülnaz, təlim görmüş itlərlə şou göstərən Maralxanım Şirinova, jonqlyor Xosrov Abdullayev, akrobat İsmayıl Mirzəyev, "Üç qardaş"la tanınan Nikolay Qorkovenko, Xosrov Abdullayev, Viktor Xelaya, ilanoynadan Sofu Cəfərovun adları sirksevərlərin yaddaşına yazılıb. Yunis və Yusif Ağayev qardaşlarının "Nəsrəddin və Bəhlul Danəndə" səhnələri, "Zorxana" və milli güləş nümayişləri də unudulmayan oyunlar sırasına daxildir. Xalq pəhləvanı Sali Süleymanın, klounlar - Qasım Məlikovla Kamal Abdullayevin çıxışları da o dövrün ən yaddaqalan nömrələri hesab edilir.

### "Cigitlər"in akrobatlarla çıxardığı "hoqqa"lar

Bakı Dövlət Sirki həmişəki kimi, bu gün də tamaşaçı qıtlığı çəkmir, əksinə, şoutamaşa məkanının qapısını döyənlərin sayı demək olar ki, gündən-günə artmaqdadır. Çünki burada bir-birindən maraqlı, əyləncəli proqramlar nümayiş etdirilir. Bakı Dövlət Sirkinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Mahir Hümbətovla söhbət zamanı öyrəndik ki, son illər tamaşa salonundakı anşlakın bir çox səbəbləri var. Onlardan ən əsası ölkə ərazisində əhalinin asudə vaxtının səmərəli təşkilinə daha çox diqqət yetirilməsidir. Sirkdə də bu amil özünü qabarıq şəkildə göstərir: "...Teatrdan, konsert salonlarından fərqli olaraq, sirk tamaşalarının daha çox diqqət çəkməsi həm də burada idmanla incəsənətin müxtəlif sahələrinin sintezləşməsi ilə proqramların tərtib edilməsidir. Sirkin mövsümi xarakter daşıması təsadüfi deyil. Bu il də Bakı Dövlət Sirkinin tamaşaçıları yaş baxımından rəngarəngdir: uşaqdan-böyüyə Bakı sakinləri, eləcə də paytaxtın qonaqları, hətta turistləri belə tamaşalara tələsirlər.

Burada yalnız şən klounlar deyil, eyni zamanda əhliləşdirilmiş heyvanlarla nömrələr də göstərilir. Bunları azyaşlı tamaşaçılar daha çox sevirlər. Akrobatların çıxardığı "hoqqa"lara tamaşaçılar gün ərzində 3 dəfə baxa bilirlər. 5 yaşadək uşaqlar sirk tamaşalarına pulsuz buraxılır. Bu, artıq ənənə halını alıb, son 16 ildir ki, davam etdirilir. 3 manejli sirkin tamaşa salonu 2 min nəfərlikdir. Burada qiymətlər sırasına görə 10, 12, 15 və 20 manatlıqdır".

### Dünyadakı sirk məşhurlarımız...

Yarandığı ilk illərdə Bakı sirki SSRİ-nin Ümumittifaq Sirklər Birliyinin tərkibində olduğu üçün gözdən-könüldən uzaq düşmüşdü. Digər mədəniyyət sahələrində olduğu kimi, burada da lazımi şəraitin yaradılması Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Dünyanın məşhur "Sirk-disuley"nin ustalarının adları arasında həmyerlimiz Üzeyir Cəfərovun da olması ürəkaçan faktlardandır. Yaxud Çina Franklina adı ilə tanınmış kluon Elçin Şirinovu sirksevərlərimiz gözəl tanıyırlar. Məhz belə ustadların maraqlı proqramları ilə Bakı Dövlət Sirki son illər dünyanı dolaşmaqdadır. Sənətkarlarımızın səsi Almaniya, Rusiya, Niderland, İtaliya, Çin, Çili, Argentina... kimi ölkələrdən gəlir.

Bu gün Bakı sirkində göstərilən proqramlar da zənginliyi ilə sevilir və baxılır. Axı proqramda "Lasta-rika" kimi şoular da var. "Sözəbaxan" pinqvinlərlə göstərilən belə nömrələr tamaşaçılarda xoş ovqat və yüksək əhvali-ruhiyyə yaradır...

### "Water land" - "Buz krallığı"nın fantastik şousu

Bu da yeni proqram: Bakı Dövlət Sirkinin qapıları, bir qayda olaraq, yenə də əyləncə, şousevər tamaşaçılarının üzünə açıqdır. Noyabrın 2-dən başlayan yeni mövsümdə daha çox kiçik yaşlı tamaşaçılar burada əməlli-başlı əylənib, deyibgülüb, fantastik sirk sousunu hərarətlə alqışlayıblar. "Buz krallığı" fantastik sirk şousunda nələr göstərilmir ki: qeyri-adi lazer və işıq effektləri ilə yeni təqdimatda əhliləşdirilmiş heyvanlar, hava gimnastlarının uçuşu, akrobatlar, güc jonqlyorlarının "hoqqaları", illüziya, monosikl, "Şmaks" klounların dueti. Bütün bunlar 170 tonluq dondurulmuş su hovuzu, yəni buz üzərində! Bir-birindən maraqlı daha nələr-nələr...

Buyurun, bir-birindən maraqlı əyləncəli şou proqramlı sirk tamaşaları yolunuzu gözləyir, Yeni ilinizi xoş ovqatla qarşılayın...

***Məhəmməd NƏRİMANOĞLU,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Beynəlxalq Muğam Mərkəzində konsert proqramı təqdim olunub

Dekabrın 29-da Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Beynəlxalq Muğam Mərkəzində konsert proqramı təqdim olunub.



AZƏRTAC xəbər verir ki, konserti izləyənlər arasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da olub. Gecədə Azərbaycanın Xalq artisti, tanınmış pianoçu Murad Hüseynov Azərbaycan və Avropa bəstəkarlarının əsərlərini ifa edib.

Tanınmış bəstəkarlar Klod Debüssinin "Ay işığı", Robert Şuman və Ferens Listin "İthaf", Moris Ravelin "Sonatina", Frederik Şopenin "Noktürn", "Polonez", "Vals", Vasif Adıgözəlovun "Prelüdiya", Adil Bəbirovun "Prelüdiya-Skertso" əsərlərinin ifası tamaşaçılar tərəfindən maraqla qarşılanıb.





Xalq artisti Murad Hüseynov Bela Bartokun fortepiano və skripka üçün "Rumın rəqsləri" əsərini skripka ifaçısı-dirijor Cavad Tağızadə ilə birlikdə təqdim edib. Konsert ən məşhur əsərlərdən parçaların Murad Hüseynovun, Əməkdar artist Sahib Paşazadənin (tarzən), Cavad Tağızadənin (skripka) və Seymur Həsənsoyun (akkordeon) ifası ilə başa çatıb.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə növbəti xeyirxah aksiya

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə milli nağıl qəhrəmanı Cırtdan Azərbaycan bölgələrində yaşayan uşaqlara Yeni il hədiyyələrini çatdırıb.**



AZƏRTAC xəbər verir ki, Xızı, Quba, Siyəzən, Şabran, Yevlax, Astara, Lerik, Ağcabədi, Şəki, Qax, Lənkəran, Masallı, Zaqatala, Balakən, Ucar, Zərdab rayonlarının balaca sakinlərinə şən musiqi sədaları altında Yeni il hədiyyələri çatdırılıb. Sevimli milli nağıl qəhrəmanı Cırtdan tərəfindən bayram sovqatı təqdim edilib, şən animatorlar uşaqları öz məzəli oyunları ilə sevindiriblər.

Leyla Əliyevanın bu təşəbbüsü hətta Azərbaycanın ən ucqar rayonlarındakı uşaqlara belə Yeni il ərəfəsində böyük xoşbəxtlik və bayram əhvalı bəxş edib.



# Əsgərlərə bayram sovqatı verilib

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin kollektivi 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayına bayram sovqatı gətirib.

AZƏRTAC xəbər verir ki, əsgər və zabitlərlə keçirilən görüşdə muxtar respublikanın Baş Naziri Əlövsət Baxşıyev bayramlar, həmçinin Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin yaradılmasının 14-cü və Mülki Müdafiə Alayının yaradılmasının 13-cü ildönümü münasibətilə əsgər və zabitləri təbrik edib.

Qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin irəli sürdüyü təşəbbüs nəticəsində təsis edilən 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü dünyadakı bütün soydaşlarımızın qəlbini vətən hərarəti ilə isidir və müstəqil Azərbaycan dövlətinə məhəbbət hissi aşılayır.

Baş Nazir Əlövsət Baxşıyev Fövqəladə Hallar Nazirliyinə göstərilən qayğıdan bəhs edib və bildirib ki, nazirliyin bütün struktur təşkilatları üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlir. Mülki Müdafiə Alayının komandiri, polkovnik-leytenant Azadil Hüseynov, əsgər Fərid Qoçəliyev, Allahverdi Allahverdiyev diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Sonra gətirilən bayram sovqatı əsgərlərə təqdim olunub.

Günay Bank

Azərbaycan xalqını
Dünya Azərbaycanlılarının
Həmrəylik Günü və
Yeni il
münasibətilə təbrik edir



# Əlahiddə Ümumqoşun Orduda gənc əsgərlərin növbəti xidmət yerlərinə yola salınması mərasimi keçirilib

Əlahiddə Ümumqoşun Orduda gənc əsgərlərin növbəti xidmət yerlərinə yola salınması mərasimi keçirilib.



Ordunun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Tədbirdə çıxış edən polkovnik Mehman Gülməmmədov əsgərləri ixtisas hazırlığı kursunu uğurla başa vurmaları münasibətilə təbrik edib. Bildirib ki, gənc əsgərlərin ixtisas hazırlığı dövründə dərslər tədris proqramına uyğun olaraq keçirilib. Tədris prosesində əsas diqqət praktiki məşğələlərə yönəldilib və bu məqsədlə bütün silah növlərindən praktiki atışlar, zirehli və avtomobil texnikalarından isə praktiki sürücülük çalışmaları yerinə yetirilib.



Ölkəmizdə sabitlik, dinamik iqtisadi inkişafla yanaşı, ordu quruculuğunun da mühüm amillərdən biri hesab olunduğunu vurğulayan valideyn Taməddin Hüseynov əsgərlərə hərbi xidmətlərində uğurlar arzulayıb.

Əsgərlər adından çıxış edən Elçin Əhmədov Azərbaycan Ordusunda xidmət etdiyinə görə qürur duyduğunu bildirib və bundan sonra da hərbi biliklərini təkmilləşdirəcəklərinə söz verib.

Əlahiddə Ümumqoşun Ordu Komandanı, general-leytenant Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdıran general-mayor Fazil Ağalarov bildirib ki, bu gün Əlahiddə Ümumqoşun Ordunun maddi-texniki bazasının möhkəmləndirilməsinə, ən müasir silah və sursat, texnika ilə təminatına xüsusi diqqət yetirilir. Azərbaycan Respublikası Prezidentinin, Ali Baş Komandanın diqqət və qayğısı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fədakar əməyi sayəsində bu gün Naxçıvanın müdafiəsi yüksək səviyyədə təmin olunur.

Fazil Ağalarov deyib: "Əminliklə deyə bilərik ki, gənc əsgər ixtisas hazırlığı kursunu uğurla başa vuran əsgərlərimiz qazandıqları nəzəri bilikləri və praktiki vərdişləri daha da təkmilləşdirəcək, vətənimizin ərazi bütövlüyü uğrunda ən çətin döyüş tapşırıqlarını şərəflə yerinə yetirəcəklər".

Təbrik oxunduqdan sonra müxtəlif ixtisaslar üzrə elementləri praktiki yerinə yetirən əsgərlər qazandıqları bilik və bacarıqları peşəkar döyüşçü kimi nümayiş etdiriblər.

Ən yaxşı tabor, bölük və taqım adına layiq görülən bölmələrə keçici bayraqlar təqdim edilib, nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçular mükafatlandırılıblar.

Təntənəli keçiddən sonra "Əlahiddə Ümumqoşun Ordunun marşı" ifa edilib.

Mərasim başa çatdıqdan sonra əsgər valideynləri və yaxınları hərbi hissədə yaradılmış şəraitlə tanış olub, əsgərlərlə birlikdə nahar ediblər.

# Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Fərhad Abdullayevin sədrliyi ilə konstitusiya məhkəmə icraatı qaydasında növbəti açıq məhkəmə iclası keçirilib.

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda "Azərçörək" İstehsalat Birliyinin 18 saylı müəssisəsinin direktoru Rauf Əfəndiyevin şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 2019-cu il 1 may tarixli qərardadının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim S.Salmanovanın məruzəsini, ərizəçinin və vəkilinin, maraqlı şəxslərin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, "Azərçörək" İstehsalat Birliyinin 18 saylı müəssisəsinin direktoru R.Əfəndiyevin Bakı Apelyasiya Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 2019-cu il 10 yanvar tarixli qərarından kassasiya şikayətinin verilməsi üçün buraxılmış prosessual müddətin bərpası barədə ərizəsinin təmin olunmaması, kassasiya şikayətinin mümkün sayılmaması və onun qəbulundan imtina olunmasına dair Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 2019-cu il 1 may tarixli qərardadı Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə, Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 96-cı maddəsinə uyğun olmadığından qüvvədən düşmüş hesab edilsin. İşə bu qərarda əks edilmiş hüquqi mövqelərə uyğun olaraq Azərbaycan Respublikasının inzibati və mülki prosessual qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada və müddətdə yenidən baxılsın.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

# 2019-cu ilin yubilyarları

## Prezident İlham Əliyevin verdiyi sərəncamlar görkəmli şəxsiyyətlərimizə, onların fəaliyyətinə və zəngin irsinə diqqət və ehtiramın ifadəsidir








Hər zaman xalqın inkişafı, dövlətin tərəqqisi naminə həyata keçirilən məqsədyönlü işlər öz bəhrəsini verir. Amma bu günün uğurlarında keçmişin də xidmətləri var. Bu mənada Azərbaycan mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının, elminin inkişafında misilsiz rol oynamış sənətkarlarımızın unudulmaması, onlara layiq olduqları ehtiramın göstərilməsi təqdirəlayiqdir. Prezident İlham Əliyevin bu il də verdiyi bir sıra sərəncamlar bir daha təsdiq etdi ki, xalqımızın, onun dövlətinin və dövlət rəhbərinin tariximizdə, müxtəlif sənət sahələrində böyük xidmətlər göstərmiş görkəmli şəxsiyyətlərimizə, onların fəaliyyətinə və zəngin irsinə diqqəti, sevgisi sonsuzdur.

### İllərdən "Nəsimi ili"

Yola salmaqda olduğumuz 2019-cu ilin "Nəsimi ili" elan olunması bu sevginin və ehtiramın bir nümunəsidir. Tariximizə, qüdrətli sənətkarlarımızın zəngin irsinə diqqət və qayğı ilə yanaşan Prezident İlham Əliyevin "Nəsimi ili" haqqında 11 yanvar 2019-cu il tarixli sərəncamında Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin əsərlərinin bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malik olduğu bildirilib. Sənəddə qeyd olunub: "Şərq xalqlarının mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutan Nəsimi yaradıcılığı uzun illərdən bəri elmi-ədəbi fikrin diqqət mərkəzindədir. Şairin irsinin ölkəmizdə sistemli tədqiqi və təbliği Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyinin keçirildiyi vaxta təsadüf edir. Böyük söz ustasının 600 illiyinin UNESKO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri siyahısına daxil edildiyi və beynəlxalq miqyasda qeyd olunduğu həmin dövrdən etibarən Nəsimi ilə bağlı çox sayda araşdırmalar aparılmışdır. Qüdrətli şairin yaradıcılığının üzə çıxarılan əlyazma nüsxələri əsasında öyrənilməsi Azərbaycan dili və ədəbiyyatı tarixinin tədqiqində yeni mərhələ açmışdır".

Sənəddə diqqətə çatdırıldığı kimi, İmadəddin Nəsiminin əsərləri ölkəmizdə dəfələrlə işıq üzü görüb. Şairin əsərləri dövlət rəhbəri İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən, kütləvi tirajla nəşr olunaraq ölkə kitabxanalarına hədiyyə edilib.

Azərbaycanın dünya şöhrətli övladı İmadəddin Nəsiminin xatirəsinin əbədiləşdirilməsi istiqamətində bu il silsilə tədbirlər həyata keçirilib. Şairin 650 illik yubileyi isə Prezident İlham Əliyevin qərarı ilə bütün ölkəni əhatə edib. Məşhur Azərbaycan şairi bir il ərzində müxtəlif tədbirlərlə anılıb, həyat və yaradıcılığı diqqətlə öyrənilib. Dövlət başçısının verdiyi sərəncamla 2019-ci ilin "Nəsimi ili" elan olunması yaşından, təhsilindən, peşəsindən, tutduğu mövqedən asılı olmayaraq hər bir azərbaycanlının bu böyük sənətkarın əsərlərinə yaxından bələd olmasına şərait yaradıb.

### Ədəbiyyatımızı yaradanlara və yaşadanlara qayğı

Ölkə rəhbərinin 17 yanvar 2019-cu il tarixli sərəncamına uyğun olaraq bu il Cəlil Məmmədquluzadənin 150 illik yubileyi də silsilə tədbirlərlə yaddaqalan olub. Bu böyük yazıçı, dramaturq, publisist və ictimai xadimin Azərbaycan ədəbiyyatının yeni mərhələyə yüksəlməsində müstəsna rol oynadığı, bütöv bir ədəbi məktəb formalaşdırdığı sənəddə vurğulanıb. Bildirilib ki, vətəndaş yazıçının bədii nailiyyətlərlə zəngin irsində azərbaycançılıq məfkurəsi dövrün ictimai-siyasi fikrinin aparıcı amili kimi dolğun ifadə olunub: "Sənətkar həyat həqiqətlərini, ictimai mühiti hərtərəfli əks etdirən və bədii-estetik dəyər daşıyıcısına çevrilən rəngarəng obrazlar qalereyası yaratmışdır. Ana dilinin saflığı uğrunda daim mübarizə aparmış Cəlil Məmmədquluzadənin meydana gətirdiyi qiymətli dram və nəsr əsərləri, parlaq publisistika dərin humanist məzmuna malik olub, özündə milli və ümumbəşəri dəyərlərin vəhdətini ehtiva edir. Azərbaycanda və onun hüdudlarından kənarda geniş yayılaraq milli oyanışa, yeniləşmə hərəkatına yol açan və azadlıq ideyalarının inkişafına qüvvətli təsir göstərən "Molla Nəsrəddin" jurnalı məhz Mirzə Cəlil düşüncəsinin məhsuludur".

Bənzərsiz istedadı, Azərbaycan ədəbiyyatının, mətbuatının inkişafına cəfakeş xidmətlərinə baxmayaraq mütəfəkkir şair və publisist Məhəmməd Hadinin həyat üzünə gülməmişdi. XX əsr Azərbaycan poeziyasında romantizmin ədəbi cərəyan kimi təşəkkülü və inkişafında mühüm xidmətlər göstərmiş nakam şairin də bu il "bəxti gətirib". Azərbaycan Prezidentinin sərəncamında Şərq bədii-estetik fikir tarixinin dərin bilicisi olan, bütün istedadını doğma vətəninin mədəni tərəqqisi uğrunda mübarizəyə həsr edən, dövrün mürəkkəb sosial-siyasi mənzərəsini dolğun göstərən, ictimai həyat hadisələrini fəlsəfi mövqedən işıqlandıran və eyni zamanda, özünün bənzərsiz sənətkarlıq xüsusiyyətləri ilə seçilən, maarifçilik ideyaları ilə zəngin əsərlərində elmin və mədəniyyətin təbliği başlıca yer tutan bu qüdrətli qələm sahibinin xalqları oyanışa və istiqlaliyyət uğrunda mübarizəyə səslədiyi bildirilib. Vurğulanıb ki, Məhəmməd Hadi azadlığı cəmiyyətin və şəxsiyyətin həyatının mənası sayaraq onu daim romantik vüsətlə tərənnüm edib. Dövlət başçısının sərəncamına uyğun olaraq böyük söz ustası Məhəmməd Hadinin anadan olmasının 140-cı ildönümü layiqincə qeyd olunub.

2019-cu ilin martında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair, yazıçı və dramaturq Cəfər Cabbarlının 120 illiyi tamam olub. Prezident İlham Əliyev bu görkəmli şəxsiyyətə, onun zəngin irsinə də layiqli qiymətini verib. Dövlət başçısının imzaladığı sərəncamda Cəfər Cabbarlının şəxsiyyət azadlığının və humanizmin, milli azadlıq və istiqlal ideallarının tərənnümçüsü olduğu, çoxcəhətli ədəbi və ictimai fəaliyyəti boyunca daim xalqımızın dünya mədəniyyəti səhnəsində layiqli mövqe qazanmasına çalışdığı nəzərə çatdırılıb: "Klassik ədəbi irs zəminində yetişən ədib milli ədəbiyyatın parlaq ənənələrini qorumaqla bərabər, yenilik və müasirlik uğrunda mübarizəni yaradıcılığının əsas qayəsinə çevirmişdir. Dramaturgiyamızın təşəkkülü və yüksəlişi tarixində yeni mərhələnin təməlini qoyan Cəfər Cabbarlının əsərləri milli teatrda mühüm hadisə kimi dəyərləndirilmiş, uzun illər boyu tamaşaçıların bir neçə nəslinin estetik zövqünün formalaşmasında əvəzsiz rol oynamışdır".

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, istedadlı nasir, tanınmış ədəbiyyatşünas, pedaqoq, ictimai xadim, Xalq yazıçısı İsmayıl Şıxlının isə martda 100 illiyi tamam olub. İsmayıl Şıxlının yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Prezidenti 28 yanvar 2019-cu il tarixində sərəncam imzalayıb. Sərəncamda İsmayıl Şıxlı zəngin yaradıcılığı ilə Azərbaycan xalqının bədii fikir salnaməsinə yeni parlaq səhifə yazmış söz ustadlarından biri kimi dəyərləndirilib. Sənətkarın klassik irsin ənənələrini davam etdirməklə və folklor xəzinəsindən bəhrələnməklə meydana gətirdiyi əsərlərdə dərin həyat fəlsəfəsinin öz dolğun ifadəsini tapdığı diqqətə çatdırılıb: "Üslubun mükəmməlliyi, bədii dilin obrazlılığı, daxili aləmin təsvirinin genişliyi və əlvanlığı İsmayıl Şıxlı nəsrinə xas olan səciyyəvi cəhətlərdir. Taleyüklü məsələlərə münasibətdə daim vətəndaş ziyalı mövqeyi nümayiş etdirmiş İsmayıl Şıxlının fəaliyyəti bütövlükdə azərbaycançılıq məfkurəsinə sədaqətin və ənənəvi dəyərlərə ehtiramın bariz nümunəsidir".

Bu günlərdə Azərbaycan Yazıçılar Birliyinin üzvlərini birliyin 85 illik yubileyi münasibətilə təbriki də Prezident İlham Əliyevin söz sənətkarlarına qayğısının təzahürüdür. Təbrikdə qeyd edilir ki, Yazıçılar Birliyi ədəbi nəsillər arasında varisliyi təmin etmiş, ictimai fikrin milli özünüdərk zəminində formalaşdırılması, ana dilimizin saflığının qorunması, bədii sərvətlər xəzinəmizin zənginləşdirilməsində əhəmiyyətli rol oynayıb: "Mütərəqqi və humanist ideyalardan qidalanmış klassik irsimizi nəcib ideya-fəlsəfi axtarışlar ədəbiyyatı və xalq həyatının bədii salnaməsi hesab edən Ulu Öndər Heydər Əliyev yazıçını "mədəniyyətin milli sərvətlərinin əsas mühafizəçisi" adlandırırdı.

Azərbaycan ictimai-mədəni fikrinin inkişafına töhfələr vermiş və ədəbiyyatımızı dünya ədəbi irsinin ayrılmaz tərkib hissələrindən biri olaraq tanıdıb sevdirmiş görkəmli söz ustalarımızın adları bizə son dərəcə əzizdir. Xalqımız şeiri, sənəti hər zaman yüksək qiymətləndirmişdir və bu gün də əsl vətəndaşlıq mövqeyi nümayiş etdirərək müstəqillik ideallarımıza doğru qələm sahiblərinə ehtiram göstərir".

Prezident ümidvar olduğunu bildirib ki, yaradıcılıq aləminə qədəm qoyan gənc ədəbi qüvvələr də ədəbi-mədəni ənənələrimizin layiqli davamçıları olacaq, azərbaycançılıq məfkurəsi işığında milli təəssübkeşlik hissi ilə yazıb yaradacaqlar.

### Tariximizin öyrənilməsinə, mədəni, ədəbi dəyərlərimizin təbliğinə töhfə

2019-cu ildə Azərbaycan ictimai fikrinin böyük nümayəndələrindən biri, görkəmli publisist, tənqidçi, tanınmış hüquqşünas və şərqşünas alim Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinin qeyd edilməsi ilə bağlı Prezident İlham Əliyev 2019-cu ilin 10 aprelində sərəncam imzalayıb. Əhməd bəy Ağaoğlunun ötən əsrin əvvəllərindən etibarən Azərbaycanda və onun hüdudlarından kənarda cərəyan edən mürəkkəb ictimai-siyasi proseslərdə fəal iştirak etdiyi, milli oyanış hərəkatının daim ön sıralarında dayanan vətənpərvər şəxsiyyət, eyni zamanda, müsəlman Şərqində müasirləşmə siyasətinin ardıcıl tərəfdarı kimi tanındığı sənəddə əksini tapıb. Ölkə rəhbərinin sərəncamında vurğulanıb: "Ümumxalq mənafeyinin qorunması naminə çoxşaxəli, gərgin və məhsuldar fəaliyyəti ərzində o, parlaq bədii-publisistik və dolğun elmi-nəzəri irs yaratmış, Azərbaycanın ədəbi-mədəni və sosial-fəlsəfi fikir xəzinəsinin yeni ideya və konsepsiyalarla daha da zənginləşməsinə diqqətəlayiq xidmətlər göstərmişdir. Əhməd bəy Ağaoğlunun ictimai problemləri mənəvi-əxlaqi aspektdə işıqlandıran, cəmiyyəti tərəqqiyə doğru yönəltməyə və qabaqcıl dünya mədəniyyətindən bəhrələnməklə yeniləşməyə çağıran geniş mövzu dairəsinə malik dərinməzmunlu əsərləri Azərbaycan maarifçiliyinə mühüm töhfədir".

Başa çatmaqda olan 2019-cu ilin mart ayı daha bir yubileylə əlamətdar olub. Azərbaycan musiqi sənətinin görkəmli nümayəndəsi, tanınmış pedaqoq, Xalq artisti Hacıbaba Hüseynovun 100 illiyi də dövlət başçısının diqqətindən kənarda qalmayıb. Qədim xanəndəlik sənəti ənənələrinin layiqli davamçılarından biri olan ustad sənətkarın muğamı və bədii sözü ahəngdar şəkildə uzlaşdırdığı, yüksək ifaçılıq mədəniyyətinin parlaq nümunələrini yaratdığı dövlət başçısının 22 fevral 2019-cu il tarixli sərəncamında diqqətə çatdırılıb: "Hacıbaba Hüseynov daim saflığını qorumağa çalışdığı muğamın tədrisi sahəsində də uzun illər səmərəli fəaliyyət göstərmiş və məşhur xanəndələrin bütöv bir nəslinin yetişdirilməsinə böyük əmək sərf etmişdir".

İstedadı və böyük zəhməti ilə Azərbaycan mədəniyyətinin inkişafına çalışan sənətkarlarımız unudulmazdırlar. Ölkə rəhbərininin 24 yanvar 2019-cu il tarixli sərəncamı bunun növbəti göstəricisi olub. Həmin sənədə əsasən, Əməkdar incəsənət xadimi, Xalq artisti, dünya kinematoqrafiyasının mütərəqqi təcrübəsindən yaradıcı şəkildə bəhrələnərək nadir istedada malik rejissor kimi özünəməxsus dəstxətti ilə kino sənətimizə mühüm yeniliklər gətirən, mədəniyyət tariximizdə dərin iz qoyan, yüksək estetik meyarlarla xalqımızın mədəni, mənəvi irsini canlandıran və müasirlərin həyatını dolğun əks etdirən rəngarəng mövzulu silsilə ekran əsərləri Azərbaycan kinosunun qızıl fonduna daxil olan, həmçinin respublikada kino işinin təşkili və kadr hazırlığı sahəsində də təqdirəlayiq xidmətlər göstərən Tofiq Tağızadənin 100 illik yubileyi dövlət səviyyəsində qeyd olunub.

2019-cu ilin dekabrında Azərbaycan xoreoqrafiya məktəbinin tanınmış nümayəndəsi, Xalq artisti Əminə Dilbazinin anadan olmasının 100 illiyi tamam olur. Azərbaycan incəsənətinin inkişafı və təbliği işinə dəyərli töhfələr vermiş sənətkarın yubileyinin qeyd edilməsi haqqında Prezident İlham Əliyev sərəncam imzalayıb. Sərəncamda Əminə Dilbazinin Azərbaycan rəqs sənətinin çoxəsrlik ənənələrinin qorunub yaşadılmasında müstəsna xidmətlər göstərdiyi qeyd olunub: "Sənətkar uzunmüddətli fəaliyyəti ərzində daim yüksək səhnə mədəniyyəti nümayiş etdirmiş, fitri istedadı və bənzərsiz ifaçılıq imkanları sayəsində xalq rəqslərinin qiymətli nümunələrinə yeni çalarlar qazandıraraq onları orijinal ifa tərzi ilə xeyli zənginləşdirmişdir".

Prezidentin tapşırığı ilə Azərbaycan Respublikası Mədəniyyət və Təhsil nazirlikləri, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Yazıçılar Birliyi və digər qurumların təkliflərini nəzərə almaqla tədbirlər planını hazırlayıb həyata keçirirlər. Ölkə rəhbərinin qeyd etdiyimiz bütün sərəncamları həm də tariximizin öyrənilməsinə, mədəni, ədəbi dəyərlərimizin təbliğinə və mənimsənilməsinə böyük dəstək, töhfədir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Azərbaycan zəngin milli-mənəvi dəyərlərə malikdir

Hər bir xalqın, millətin mövcudluğu onun milli adət-ənənələrinə, öz mədəniyyətinə, ədəbiyyatına, tarixinə bağlılığından asılıdır.

Müasir Azərbaycan tarixinə nəzər saldıqda milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı prinsiplərinin banisi kimi Ulu Öndər Heydər Əliyevi görmək olar. Müstəqillik dövrünün təməl daşları üzərində tarixi imzası olan Ulu Öndər azərbaycançılıq ideologiyasının əsasını qoyaraq milli-mənəvi dəyərlər sistemimizi daha da gücləndirmiş, aşınmadan xilas etmişdir.

Heydər Əliyev azərbaycançılığı milli ideologiya kimi irəli sürür, mədəniyyətimizi, mənəvi dəyərləri təkcə milli yox, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi. Azərbaycançılığın əsasında yer alan ünsiyyət birliyi isə vahid ana dilimiz vasitəsilə həyata keçirilir. Azərbaycan dili milliliyin ifadə vasitəsi olduğu üçün azərbaycançılıq ideologiyasının komponenti kimi çıxış edir. Çünki ana dili onun dünyada tanınmasında ən mühüm milli atributlardan biridir.

Müstəqil Azərbaycana rəhbərliyi dövründə Ulu Öndər Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi və dilimizin qorunması sayəsində mühüm işlər gördü. Azərbaycan xalqının mədəni, intellektual, milli-mənəvi inkişafının təməllərindən biri kimi milli dil siyasətinə böyük əhəmiyyət verirdi. Onun 18 iyun 2001-ci il tarixində imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman da dilimizə olan dərin ehtiramın nümunəsi idi.

Ümummilli Liderin müstəqil Azərbaycana rəhbərlik dövrü təkcə ölkənin siyasi, sosial-iqtisadi, mədəni böhrandan qurtuluşu, demokratik islahatların, hüquqi dövlət quruculuğu proseslərinin uğurla həyata keçirilməsi ilə xarakterik olmadı. Cəmiyyətin milli-mənəvi dəyərlərimizə, o cümlədən islama münasibətinin düzgün və sağlam əsaslarla formalaşdırılmasının əsası da məhz bu dövrdə qoyuldu. Heydər Əliyev ölkəmizdə hüquqi və dünyəvi dövlət quruculuğunun əsasını qoymaqla yanaşı, müqəddəs dinimizə, bütün mənəvi dəyərlərə çox həssaslıqla yanaşır, xalqımızın mental keyfiyyətlərini hər şeydən uca tuturdu.

* * *

Xalqımızın zəngin milli-mənəvi dəyərləri sistemində azərbaycançılıq məfkurəsi də mühüm yer tutur. Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində dövlətin qarşısında duran vəzifələri, onların Azərbaycana münasibətdə üzərinə düşən mənəvi öhdəlikləri, habelə azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiyadır. Azərbaycançılıq millətindən asılı olmayaraq, özünü azərbaycanlı sayan vətəndaşların həmrəyliyi üçün möhkəm istinad mənbəyi, ideoloji bünövrədir. Bu ideologiyanın mühüm müsbət xarakteri həm də bütün dünyaya səpələnmiş 50 milyondan artıq azərbaycanlını vahid ideallar naminə səfərbər etmək qüdrəti ilə müəyyən olunur. Milli-mənəvi, islami-əxlaqi, dünyəvi-humanitar dəyərləri, Şərq və Qərb mədəniyyətlərinin dialoqunu, türkçülük və avropaçılıq meyillərini, tarixi təkamüldə varislik və tərəqqiçiliyi, ünsiyyət birliyini ahəngdar şəkildə ehtiva edən azərbaycançılıq ideologiyası məhz buna görə də müxtəlif coğrafi regionlarda, sosial-siyasi sistemlərdə, mədəni mühitlərdə formalaşmış diasporumuz üçün cəlbedicidir.

Azərbaycançılıq ideologiyasının öz həqiqi təsdiqini tapmasında da Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri vardır. Ulu Öndər daim vurğulayırdı ki, azərbaycançılıq ideologiyası real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Heydər Əliyevin azərbaycançılıq ideologiyası ilə dilindən, dinindən, millətindən, irqindən, sosial mənsubiyyətindən asılı olmayaraq, bütün ölkə vətəndaşlarını ümumi vətən naminə həmrəyliyə dəvət edirdi. Ulu Öndər azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail oldu. Onun "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" məşhur sözləri bu gün də azərbaycanlıların ana şüarına çevrilibdir. 2001-ci ilin ən yaddaqalan və milli həmrəyliyimizin nümayişinin ən yüksək zirvələrindən biri noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi olmuşdur. Ümummilli Lider Heydər Əliyevin 2001-ci il mayın 23-də imzaladığı sərəncama əsasən, keçirilmiş bu qurultay dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin, həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi üçün şərait yaratmışdır.

Həmin qurultaydan sonra Azərbaycan diaspor hərəkatı tamamilə yeni mərhələyə qədəm qoymuş, Ümummilli Lider Heydər Əliyev bu sahədə sistemli dövlət siyasətinin həyata keçirilməsini təmin etmək məqsədilə 2002-ci ildə Xaricdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsi ( indiki Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılmışdır. Komitənin yaradılması xaricdəki Azərbaycan cəmiyyətlərinin, birliklərinin və dərnəklərinin fəaliyyətinin vahid mərkəzdən koordinasiyasına, habelə onların dövlət qayğısı ilə əhatə olunmasına geniş imkanlar vermişdir. Dövlət Komitəsinin yaradılması dünya azərbaycanlılarının konsolidasiyasında, diaspordan lobbiyə doğru inkişafında yeni bir mərhələnin başlanğıcını qoymuşdur.

Azərbaycanda diaspor və lobbi quruculuğu Prezident İlham Əliyevin fəaliyyətində də mühüm yer tutmuş, bu istiqamətdə ardıcıl və sistemli tədbirlər həyata keçirilmişdir. Dövlət başçısı müxtəlif ölkələrə səfərləri çərçivəsində soydaşlarımızla keçirdiyi görüşlərdə milli diasporun vahid, mütəşəkkil qüvvə kimi təşkilatlanması zərurətini önə çəkmiş, bunun ideoloji-siyasi konturlarını müəyyənləşdirmişdir. Ölkə rəhbəri müasir dövrdə bu sahəyə xüsusi diqqət ayırmadan xarici siyasətdə ciddi uğur qazanmağın qeyri-mümkünlüyünü çıxışlarında dəfələrlə vurğulamışdır.

Prezident İlham Əliyevin 8 fevral 2006-cı il tarixli sərəncamı ilə 2006-cı il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi diaspor quruculuğu işinə yeni nəfəs verməklə ən əlamətdar hadisələrdən biri kimi yadda qalmışdır. Qurultayda Azərbaycan diasporunun hazırkı vəziyyəti müzakirə edilmiş, bu sahədə çalışan təşkilatların fəaliyyətlərinin əlaqələndirilməsi işinin təkmilləşdirilməsi, ölkə həqiqətlərinin, xalqımıza qarşı törədilmiş terror və soyqırımı aktları ilə əlaqədar çoxsaylı faktların dünya ictimaiyyətinə çatdırılmasının daha müasir metodlarının hazırlanması, digər xalqların diaspor təşkilatları ilə əlaqələrin gücləndirilməsi məsələləri xüsusilə önə çəkilmişdir.

* * *

Milli-mənəvi dəyərlərin mühüm göstəricilərindən olan multikulturalizm (çoxmədəniyyətlilik), tolerantlıq (dini dözümlülük) da mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda qədim dövrlərdən müxtəlif xalqların nümayəndələri yaşamış, bir çox xalqların dinləri mövcud olmuşdur. Azərbaycan və onun xalqı həmişə dini dözümlülüyü ilə fərqlənmişdir. Ölkəmizdə heç vaxt dini zəmində münaqişə, toqquşma olmamışdır. Hətta ötən əsrin 80-ci illərinin axırı və 90-cı illərinin əvvəllərindəki ağır dövrdə belə heç bir mənfi fakt qeydə alınmamışdır.

Məhz Heydər Əliyevin əsasını qoyduğu sağlam dövlət-din münasibətlərinin nəticəsi olaraq bu gün dünyanın bəzi ölkələrində olduğu kimi, islam dininin alətə çevrilərək gözdən salınmasına imkan verilmədi. Ölkəmizdə bu sahədə həyata keçirilən siyasət, dövlət-din münasibətlərinin Azərbaycan modeli xalqın və dövlətin maraqları üzərində qurularaq özünün mənəvi saflığı ilə bütün ziyanlı ideologiyaların, arzuolunmaz dini-siyasi məqsədlərin qarşısında sipər oldu. Bu siyasətin uğurlu nəticələri sağlam cəmiyyətlə dövlətçiliyimizin sütunlarını daha da sarsılmaz etdi.



Ulu Öndərin bizə əmanət etdiyi toleranlıq, dini dəyərlərə yüksək ehtiram Prezident İlham Əliyevin apardığı siyasətin də mühüm istiqamətlərindəndir. "Azərbaycan xalqı həmişə öz milli-mənəvi dəyərlərinə sadiq olub. Bu gün Azərbaycan dövləti milli dəyərlərimizin qorunması üçün ardıcıl siyasət aparır. Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik" deyən Prezident İlham Əliyev hər zaman mənəvi irsimizin mühafizəçisi rolunu oynayır. Onun birbaşa diqqəti sayəsində tarixi-mədəni irsimizin yaşadılması və milli-mənəvi dəyərlərimizin dirçəldilməsi, dini ziyarətgahların əsaslı təmiri və yenidən qurulması böyük vüsət alıb. Bunun nəticəsidir ki, Təzəpir, Bibiheybət, Əjdərbəy məscidlərində geniş tikinti və yenidənqurma işləri həyata keçirilib. Eramızın 743-cü ilində inşa olunan və Cənubi Qafqazda, eləcə də Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidi əsaslı bərpa və yenidənqurmadan sonra istifadəyə verilib. Bütün bunlar bir daha göstərir ki, Prezident İlham Əliyev tarixi keçmişimizin unudulmasına imkan vermir və çalışır ki, gələcək nəsillər xalqımızın milli-mənəvi dünyasına daha çox bağlı olsunlar.

2014-cü ilin dekabrında isə Bakıda Azərbaycanın ən böyük məscidi olan Heydər Məscid-Kompleksi istifadəyə verilib.

Prezident İlham Əliyevin tapşırıqlarına əsasən Gəncədəki tarixi memarlıq abidəsi - xalq arasında "Göy günbəz", "Göy məscid", yaxud "Göy İmam" kimi tanınan "İmamzadə" Dini-Mədəniyyət Kompleksində təmir-bərpa işləri aparılıb. Bu kompleksin ən qiymətli abidəsi türbədir. Burada beşinci imam Məhəmməd Baqirin oğlu İbrahim dəfn olunub. Türbə sonralar ziyarətgaha çevrilib və onun ətrafında müxtəlif binalar inşa edilib. Azərbaycan memarlığının dəyərli nümunələrindən olan "İmamzadə" piri Şərqin qədim karvan-ticarət yolunun üzərində yerləşib.

* * *

İslam Əməkdaşlıq Təşkilatının və Avropa Şurasının üzvü olan Azərbaycan hər iki qurumda layiqincə təmsil olunmaqla dünyada baş verən hadisələrə tək islami deyil, bəşəri dəyərlər baxımından münasibətini bildirir. İƏT-in fəal üzvü kimi sivilizasiyalararası əlaqələrin möhkəmləndirilməsinə, inkişafına, dünyada irqi ayrı-seçkilik hallarının aradan qaldırılmasına layiqli töhfələrini verən Azərbaycan islam aləminin təhsil, elm, mədəniyyət təşkilatı olan ISESCO-da da uğurlu fəaliyyət göstərir. 2009-cu ildə ISESCO tərəfindən Bakı şəhərinin islam mədəniyyətinin paytaxtı elan edilməsi, 2018-ci ildə bu ada Azərbaycanın ən qədim diyarı Naxçıvanın layiq görülməsi bir daha təsdiqləyir ki, islam aləminin ayrılmaz parçası olan ölkəmiz dünyada dinlər, millətlərarası münasibətlərin tənzimlənməsi, mültikultural dəyərlər, bərabərlik prinsipləri əsasında inkişafı üçün səylərini əsirgəmir.

Ölkəmizdə "Multikulturalizm ili", "İslam Həmrəyliyi ili"nin qeyd olunması, I Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi, 10 ildən artıqdır ki, hər il keçirilən "Bakı prosesi"nin bütün dinlər və millətlər üçün humanitar tribunaya çevrilməsi Azərbaycanın dünyada sülhün təminatına verdiyi töhfələrdəndir. Prezident İlham Əliyevin Bakıda "2017-İslam Həmrəyliyi ili: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda keçirilən beynəlxalq konfransda çıxışı zamanı qeyd etdiyi kimi, Azərbaycan xalqı öz milli-mənəvi köklərinə çox bağlıdır. Müstəqil Azərbaycan dövlətinin təməli məhz bu milli dəyərlərdir. Bizim milli-dəyərlərimiz isə ümumbəşəri dəyərlərin tərkib hissəsidir. Həm coğrafi yerləşməyimiz, tariximiz, sivilizasiyaların Azərbaycan ərazisindəki keçmişi və rolu, əlbəttə ki, Azərbaycanı dinlərarası, mədəniyyətlərarası dialoqun aparılmasında əvəzolunmaz ölkəyə çevirir.

2018-ci ilin iyun ayında Naxçıvanda keçirilən "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018" tədbirinin keçirilməsi də milli-mənəvi dəyərlərimizə olan beynəlxalq diqqətin mühüm ifadəsi idi. Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı seçilməsi barədə qərarın qəbulu tarixi hadisə olmaqla sivilizasiyalararası dialoqa mühüm töhfələr verən Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə yüksək qiymətin təzahürüdür. "İslam Həmrəyliyi ili" çərçivəsində Bakıda IV İslam Həmrəyliyi Oyunları ən yüksək səviyyədə keçirildi. Oyunlar ərzində bütün müsəlman ölkələri məhz Azərbaycanın paytaxtında birləşdi, Bakı 54 ölkəni "Sülh, həmrəylik" şüarı altında birləşdirdi.

* * *

Milli-mənəvi dəyərlərimizin qorunmasında Prezident İlham Əliyevlə birgə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva da yaxından iştirak edir. Fond milli-mənəvi dəyərlərimizin yaşadılmasını, onun təbliğini, tarixi-dini, mədəni abidələrin qorunmasını və bərpasını daim diqqət mərkəzində saxlayır.

Heydər Əliyev Fondu "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində bugünədək Azərbaycanda və digər ölkələrdə onlarla tədbir həyata keçirmişdir. Fondun maliyyə dəstəyi ilə Bakıdakı Pravoslav və Müqəddəs Məryəm kilsələrində də təmir-bərpa işləri aparılmış, yəhudi uşaqları üçün təhsil və mədəniyyət mərkəzinin tikintisinə dəstək verilmişdir. Göründüyü kimi, Heydər Əliyev Fondu təkcə islam dininə aid tarixi-dini abidələrin bərpasına deyil, həmçinin Azərbaycandan kənarda olan digər dinlərə məxsus abidələrin də bərpasına qayğı ilə yanaşır ki, bu da xalqımızın tolerantlığının və sülhpərvərliyinin əyani sübutudur.

Fond tərəfindən reallaşan layihələr beynəlxalq aləmdə ciddi marağa səbəb olur. Belə ki, bəşəriyyətin xilasına yönələn milli-mənəvi ideallar, ictimai şüura hakim kəsilən layihələr zəngin mənəvi və intellektual potensialdan qaynaqlanır və birmənalı olaraq cəmiyyət tərəfindən qəbul edilir. BMT, İƏT, UNESKO, ISESCO və onlarca belə mötəbər qurumların fondun layihələrinə verdiyi qiymətlər dediklərimizi əsaslandıran amildir.

Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün daha çox aktual məsələlərdəndir. Çünki milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu var. Müasir dövrdə şəxsiyyətin formalaşmasında milli dəyərlərin təsirini gücləndirmək işində keçmiş tarixi ənənələrə və dəyərlərə qayğı ilə yanaşmaq, eyni zamanda müasir dünyada gedən qloballaşma proseslərinin yaratdığı ümumbəşəri dəyərlərin müsbət tərəflərini mənimsəmək də çox vacibdir. Milli dəyərlərimizin qorunmasında gənc nəslin və gələcək nəsillərin də üzərinə böyük məsuliyyət düşür.

***Qəzənfər ABBASOV,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, iqtisad elmləri doktoru***

DÜNYA AZƏRBAYCANLILARININ
HƏMRƏYLİYİ GÜNÜ
VƏ
YENİ 2020-Cİ İL

münasibətilə Azərbaycan Respublikasına daim sülh və əmin-amanlıq, Azərbaycan xalqına xoşbəxtlik və rifah arzulayırıq.

TEKFEN İNŞAAT

# Daxili İşlər Nazirliyi vətəndaşlara müraciət edib

Daxili İşlər Nazirliyi (DİN) Yeni il münasibətilə vətəndaşlara müraciət ünvanlayıb.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a daxil olan müraciətdə qeyd edilib: "Qarşıdan gələn Yeni il bayramı münasibətilə bütün vətəndaşlarımızı səmimi-qəlbdən təbrik edir, onlara möhkəm cansağlığı, xoşbəxtlik və yeni-yeni uğurlar arzulayırıq!

Bu bayramı yüksək əhvali-ruhiyyədə keçirmək üçün ölkəmizdə hər cür şərait yaradılıb. Təəssüflər olsun ki, bəzi vətəndaşlarımız yaradılmış bu əlverişli şəraitdən səmərəli istifadə etmək əvəzinə, bayram ərəfəsində öz maliyyə itkilərini düşünmədən, satışı qanunla qadağan edilmiş, yüksək səsyayıcı qabiliyyətinə malik bahalı pirotexniki vasitələrdən istifadə edərək ətrafdakı insanların rahatlığını və dincliyini pozurlar.

Bundan başqa, yanğına və digər xoşagəlməz hadisələrin də baş verməsinə səbəb olan bu vasitələrin anidən baş verən partlayışı həm də insanların, əsasən də yaşlı, xəstə və uşaqların psixi durumuna və səhhətinə mənfi təsir göstərir, onlarda qorxu hissi yaradır.

Bunları nəzərə alaraq, bir daha vətəndaşlarımızdan, xüsusən gənclərimizdən xahiş edirik ki, bayram günlərində insanların yüksək əhvali-ruhiyyəsini, dincliyini pozan, sağlamlığa zərər yetirən, ictimai asayişin pozulmasına səbəb olan belə hərəkətlərdən çəkinsinlər. Vətəndaşlarımızın bayram sevincini, ovqatlarını bu kimi xoşagəlməz hərəkətlərlə pozmasınlar".

# 2020-ci ildə Maliyyə Nazirliyi tərəfindən 5 illik dövlət qiymətli kağızları buraxılacaq

Maliyyə Nazirliyi tərəfindən 2020-ci il ərzində ümumi həcmi 850 milyon manat məbləğinədək dövlət qiymətli kağızlarının buraxılışı nəzərdə tutulur.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qeyd olunan buraxılış çərçivəsində 300 milyon manat dövlət qısamüddətli (1 il və daha qısa) və 550 milyon manat ortamüddətli (1 ildən 5 ilədək) dövlət qiymətli kağızlarının daxili maliyyə bazarlarında buraxılmasını təsdiq edən müvafiq sənədlər, o cümlədən dövlət istiqrazlarının buraxılış şərtləri artıq dövlət qeydiyyatına alınıb.

İnvestorlar tərəfindən daha uzunmüddətli dövlət qiymətli kağızlarına olan tələbatın artmasını nəzərə alaraq 2020-ci ildən etibarən Maliyyə Nazirliyi tərəfindən ilk dəfə olaraq dövriyyə müddəti 5 ilədək olan dövlət istiqrazlarının emissiya edilməsi nəzərdə tutulur. Bununla Prezident İlham Əliyevin 2018-ci il 24 avqust tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya" sənədində qarşıya qoyulan vəzifələrin icrası, habelə daxili bazarda dövlət qiymətli kağızlarının müddətinin mərhələli şəkildə uzadılması və daha uzunmüddətli qiymətli kağızlar üzrə istinad dərəcəsinin (bençmark) müəyyən olunması təmin edilməklə qiymətli kağızlar bazarının inkişafı daha da sürətləndiriləcək.

Cari və əvvəlki illərdə olduğu kimi, növbəti ildə də dövlət istiqrazları üzrə keçiriləcək hərraclar barədə dövrü olaraq rüblük, habelə həyata keçirilən hərracların nəticələri barədə məlumatlar hərrac baş tutduqdan dərhal sonra nazirliyin rəsmi saytında dərc olunacaq.

# Bakıda atəşfəşanlıq olacaq

Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə dekabrın 31-də gecə saat 12:00-da paytaxtın Dənizkənarı Milli Parkının ərazisində möhtəşəm atəşfəşanlıq təşkil olunacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə Bakı Şəhər İcra Hakimiyyətindən məlumat verilib.

Bildirilib ki, şəhərin mərkəzi küçələri, Dənizkənarı Milli Parkın ərazisi və digər parklar bəzədilib, yolkalar qurulub, buradakı ağacların çil-çıraqlarla bəzədilməsi, müxtəlif yeni il atributları və simvollarının, nağıl qəhrəmanları fiqurlarının quraşdırılması, burada bayram tərtibatının aparılması işləri həyata keçirilib, müxtəlif yerlərdə bayram yarmarkaları təşkil olunub.

Bakı Şəhər İcra Hakimiyyəti sakinləri və şəhərimizin qonaqlarını atəşfəşanlığı seyr etmək üçün dekabrın 31-də gecə saat 12:00-da Dənizkənarı Milli Parka dəvət edir.

# *DSX:* Azərbaycan Respublikasının dövlət sərhədini pozan Pakistan və Əlcəzair vətəndaşları saxlanılıblar







Dövlət sərhədinin etibarlı mühafizəsinin təmin olunması və sərhədin pozulması hallarına qarşı mübarizə istiqamətində əməliyyat-qoşun tədbirləri davam edir.

Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən bildiriblər ki, dekabrın 22-də Xidmətin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində Biləsuvar rayonunun Ağalı kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozan bir nəfər saxlanılıb. Sərhəd pozucusunun Biləsuvar rayonunun Zəhmətabad kənd sakini Dadaşlı Pərvin Ziyafət oğlu olması müəyyənləşib. İlkin araşdırma zamanı onun dekabrın 20-də dövlət sərhədini Azərbaycan-İran istiqamətində pozması müəyyən edilib.

Dekabrın 26-da DSX Sərhəd Qoşunlarının "Xudat" sərhəd dəstəsinin xidməti ərazisində Xaçmaz rayonunun Zeyxuroba kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində Azərbaycan Respublikasından Rusiya Federasiyası istiqamətində dövlət sərhədini pozan bir nəfər şəxs saxlanılıb, sərhəd pozucusunun Pakistan vətəndaşı, 1991-ci il təvəllüdlü Əli Yasif Pakistani olması müəyyən edilib.

Dekabrın 27-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Zaqatala" sərhəd dəstəsinin xidməti ərazisində Balakən rayonunun Mazımçay kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində Azərbaycan Respublikasından Gürcüstan istiqamətində dövlət sərhədini pozan 1 nəfər saxlanılıb. Sərhəd pozucusunun Əlcəzair vətəndaşı, 1986-cı il təvəllüdlü Muhəmməd Şərif olması müəyyənləşdirilib.

Qeyd olunan faktlar üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

***"Azərbaycan"***

# Ermənistan silahlı qüvvələri iriçaplı pulemyotlardan da istifadə etməklə atəşkəs rejimini 22 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli və Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Beynəlxalq aləm

## ABŞ İraqda könüllülərin bazasını bombaladı



ABŞ hərbi hava qüvvələrinin İraqın qərbində, Ənbar əyalətində "Həşdi- Şəəbi" könüllülər bazasına endirdiyi zərbə nəticəsində 25 nəfər həlak olmuş, 51 nəfər yaralanmışdır. Bu barədə "Həşdi-Şəəbi"nin əməliyyat mərkəzinin başçısı Cavad Rəbayəvi məlumat vermişdir. Onun dediyinə görə, ölənlərin sayının artması ehtimalı böyükdür, çünki xəsarət alanlar arasında ağır yaralılar var.

Bundan əvvəl İraq Müdafiə Nazirliyi bildirmişdi ki, ABŞ aviasiyası Ənbar əyalətinin Hərş və Səllum rayonlarında "Kətaibi-Hizbullah" qruplaşmasının iki obyektini üç dəfə bombalamışdır.

## UNICEF: həddi-büluğa çatmayanlara qarşı zorakılıq artıb



Dünyada münaqişələr zonasında uşaqlara qarşı zorakılıq hallarının sayı son 10 il ərzində xeyli artmışdır. 2018-ci ildə BMT-nin ekspertləri bu cür 24 mindən çox hal qeydə almışlar. Bu barədə "Alman dalğası" radiostansiyası xəbər verir.

BMT Uşaq Fondunun (UNICEF) məlumatına görə, zorakılıq hallarına qətl, xəsarət yetirilməsi, seksual zorakılıq və insan oğurluğu aiddir. 2018-ci ildə bu cür halların sayı 2010-cu illə müqayisədə 2,5 dəfədən çox olmuşdur.

Son 10 il ərzində BMT ümumilikdə böhran nöqtələrində uşaqlara qarşı 170 mindən çox zorakılıq aktı qeydə almışdır. Hər gün orta hesabla 45-ə yaxın bu cür hal baş verir.

UNICEF-in məlumatına görə, təkcə 2018-ci ildə münaqişə zonalarında 12 mindən çox uşaq öldürülmüş, yaxud əlil vəziyyətinə salınmışdır. Bu il tendensiya davam etmişdir - ilk altı ay ərzində həddi-büluğa çatmayanlara qarşı 10 mindən çox zorakılıq halı qeydə alınmışdır.

## Türkiyədə İŞİD-lə əlaqəli 70 nəfər tutuldu

Türkiyənin dörd bölgəsində keçirilmiş antiterror əməliyyatı zamanı onlarca adam saxlanılmışdır. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Xüsusi xidmət orqanlarının əməkdaşları İŞİD qruplaşması ilə əlaqədə şübhəli bilinən azı 70 nəferi saxlamışlar. Həbslərin əksəriyyəti paytaxt Ankarada, Batman vilayətində, Kayseridə və Adanada həyata keçirilmişdir. Tutulanlar əcnəbilərdir. Lakin onların vətəndaşlığı açıqlanmır.

## Sankt-Peterburqda terror aktları planlaşdıranlar həbs olundu




Rusiya Federal Təhlükəsizlik Xidmətindən (FTX) verilən məlumata görə, Yeni il bayramı günlərində terror aktları hazırlayan iki nəfər saxlanmışdır. Ölkə Prezidenti Vladimir Putin cinayətin qarşısının alınmasında xüsusi xidmət orqanlarının xətti ilə göstərilmiş yardıma görə ABŞ lideri Donald Trampa təşəkkürünü bildirmişdir.

Sankt-Peterburqda terror aktları hazırlayan iki rusiyalı artıq etiraf ifadəsi vermişdir. FTX-nın məlumatında deyilir ki, "FTX amerikalı tərəfdaşlarından aldığı informasiya əsasında Yeni il bayramı günlərində Sankt-Peterburq şəhərində Rusiyanın terror aktları törətmək niyyətində olmuş iki vətəndaşını saxlamışdır".

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti

BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 9 noyabr 2019-cu il və 10 dekabr 2019-cu il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsi ilə "Azərsu" ASC-nin balansında olan regionlarda yerləşən tullantı sutəmizləyici qurğular üçün mal-materialların satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən malgöndərənlərin (podratçılar) tenderdə iştirak etmək üçün tələb olunan sənədlərinin (tender təklifi və bank təminatı istisna olmaqla) qəbulu vaxtı 10 yanvar 2020-ci il saat 16:00-a, tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 21 yanvar 2020-ci il saat 16:00-a, təkliflərin açılışı isə 22 yanvar 2020-ci il saat 16:00-a dəyişdirilmişdir.

İddiaçılar "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs Məmmədyar Musayev, 431-47-67/2288, mammadyar.musayev@azersu.az) müraciət edə bilərlər.

*Tender komissiyası*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası və Katibliyin əməkdaşları Komissiya Katibliyi müdirinin köməkçisi Ramin Nurəliyevə atası

**ADİL NURƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəhbərliyi və kollektivi xidmətin Tovuz regional ərazi şöbəsinin rəisi Elçin Süleymanova anası

**SURAYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mahir və Elçin Muradovlar

**AYDIN BƏŞİROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8895
Sifariş 4341
Qiyməti 40 qəpik